

**“Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Anar Məmmədov
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnal*

*Aprel - İyun (2020-ci il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 9 iyul 2020-ci il tarixli, 10/76 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş prokurorunun yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 10.07.2020
60x84 1/8 formatda 114 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2020

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib

**17** Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib

**22** Ümumdünya Səhiyyə Təşkilatı COVID-19-a qarşı mübarizədə Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirib

**23** Prezident İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edib

**24** Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**26** Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə ağac əkib

**30** Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

**32** Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**33** Milli Məclisdə Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyi dəstəklənib

**37** Prezident İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edib

**42** Azərbaycan Respublikası Prezidentinin Sərəncamları

## RƏSMİ TƏDBİRLƏR

**45** Azərbaycanın yeni Baş prokuroru Kamran Əliyev kollektivə təqdim olunub

**46** Azərbaycan Respublikasının Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib

**48** Baş prokurorun yeni birinci müavini və müavinləri kollektivə təqdim olunub

**51** Prokurorluq orqanlarında struktur islahatları aparılıb

**52** Baş prokuror Kamran Əliyev Litva Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Eqidiyus Navikasu qəbul edib

**53** Baş prokuror Kamran Əliyev Amerika Birləşmiş Ştatlarının səfiri Örl Litzenbergeri qəbul edib

**55** Baş prokuror Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniqi qəbul edib

**57** Baş prokuror Kamran Əliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sesseranı qəbul edib

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**58** Xanlar Vəliyev – Azərbaycana fəda edilmiş şərəfli ömür

**69** Firad Əliyev – Fövqəlbaşərlik mücəssəməsi

**73** Firad Əliyev – Narkomanlığa qarşı mübarizə hər kəsin borcudur

**76** Anar Nəsibov – Dövlət ittihamının müdafiəsi sahəsində keyfiyyətin artırılması perspektivləri: məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi fonunda milli qanunvericilik və beynəlxalq təcrübə prizmasından

**86** Mahir Tağıyev – Özünə və yaxın qohumlarına qarşı ifadə verməmək hüququ

## HÜQUQİ AKTLAR

**96** Qanunvericiliyə dəyişikliklər

**112** Konstitusiya Məhkəməsi Plenumunun qərarı

# Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib

**Prezident İlham Əliyev:**
**"Mənim seçimim birmənalıdır – insanların sağlamlığı."**

Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə giriş nitqi söylədi.



## Prezident İlham Əliyevin giriş nitqi

– Bu gün biz ilin birinci rübünün yekunlarını müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi. Mart ayında isə müəyyən



qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər.

Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Ona görə bu, bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, ibrət götürməliyik. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır. Biz bunu görürük.

Ona görə bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək. Əvvəllər qeyd etdiyim kimi, biz addımlarımızı vəziyyətə uyğun atacağıq və əlbəttə, hamımız istəyirik ki, bu karantin rejiminə tezliklə son qoyulsun və vətəndaşlar öz normal həyatına qayıtsınlar. Ancaq bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər.

Ancaq bir daha demək istəyirəm ki, koronavirus pandemiyası nə vaxt qurtaracaq bunu heç kim bilmir, heç kim proqnoz verə bilmir. Ona görə biz də, sadəcə olaraq, həm ölkə daxilində vəziyyəti tam nəzarətdə saxlamalıyıq, geniş monitorinq aparmalıyıq və aparırıq. Eyni zamanda, dünyada gedən prosesləri də yaxından müşahidə edərək öz addımlarımızı elə ataq və tam əmin olaq ki, bu koronavirus pandemiyası artıq təhlükə törətmir. Hesab edirəm ki, ancaq ondan sonra müəyyən dərəcədə yumşalma addımlarının atılması mümkündür. Hələ ki, demək tezdir, amma son günlərin rəqəmləri ümidvericidir. Ümid etmək istəyirəm ki, bu müsbət dinamika, yəni, xəstələrin sayı ilə bağlı müsbət dinamika bundan sonra da davam edəcək. Ancaq yenə də deyirəm, biz addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq.

O ki qaldı, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinə, bu da qaçılmazdır. Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edir ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildirmişdir. Eyni zamanda, biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yəni, dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur. Hesab edirəm ki, bu vəziyyətdən şərəflə çıxmağımız, – mən buna əminəm, – bir daha göstərəcək ki, bizim bütün addımlarımız düşünülmüş addımlardır və xalqımızın, dövlətimizin maraqlarına uyğun şəkildə atılan addımlardır.

Ancaq bir daha demək istəyirəm ki, iqtisadi vəziyyətə pandemiyanın təsiri qaçılmazdır. Biz artıq bunu görürük. Ona görə hökumətə tapşırıq verirəm, xüsusilə Baş Nazirə, Maliyyə nazirinə və İqtisadiyyat nazirinə ki, dövlət xərclərinə yenidən baxılsın və prioritet təşkil etməyən xərclər ixtisar edilsin. Eyni zamanda, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bundan əvvəl də bildirmişdim. Son vaxtlar bu istiqamətdə müsbət dinamika göz qabağındadır və bunun nəticəsində biz həm keçən il, həm də bu ilin üç ayında büdcəmizə əlavə maliyyə vəsaiti daxil edə bilmişik. Ancaq hesab edirəm ki, burada hələ ehtiyatlar var, həm investisiya xərclərinə, eyni zamanda, cari xərclərə yenidən baxılmalıdır. Çünki bəzi hallarda cari xərclər şişirdilir. Xüsusilə dövlət təşkilatlarının, dövlət şirkətlərinin cari xərcləri əfsuslar olsun ki, şişirdilir və bu sahəyə çox ciddi diqqət göstərilməlidir. Bu sahədə şəffaflığın tam təmin olunması istiqamətində əlavə addımların atılması zəruridir. Hesab edirəm ki, biz bunun hesabına, əlbəttə, öz iqtisadi-maliyyə vəziyyətimizi sabit saxlayacağıq. Eyni zamanda, hökumətə tapşırıram ki, yeni gəlir mənbələri aşkar edilməlidir. Yenə də demək istəyirəm ki, ehtiyatlar var, çoxdur. Son müddət ərzində bu ehtiyatların bir hissəsi artıq üzə çıxıb və büdcəyə daxilolmalar artır, keçən il və bu il. Keçən il büdcəyə proqnozdan əlavə bir milyard manatdan çox vəsait daxil edilibdir, bu ilin üç ayında 300 milyon manatdan çox. Ona görə bu məsələyə çox diqqətlə baxmaq lazımdır və təkliflər hazırlanmalıdır. Yenə də demək istəyirəm ki, biz bilmirik bu vəziyyət nə qədər çəkəcək. Ona görə öz addımlarımızı elə atmalıyıq ki, iqtisadi, makroiqtisadi sabitlik təmin edilsin. Əlbəttə ki, biz, ilk növbədə, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, 600 mindən çox insan, hansı ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirib, dövlət tərəfindən dəstəklə təmin edilir. Bu insanların maaşlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır və işini itirənlər artıq öz adlarını kütləvi surətdə qeydiyyata salırlar. Biz burada da çox diqqətli olmalıyıq, sui-istifadədən uzaq olmalıyıq. Bu, həm vətəndaşlara aiddir, həm də dövlət orqanlarına. Doğrudan da işini itirmiş, yaxud da ki, işləməyən insanlara yardım göstərilməlidir. Çünki mənə verilən məlumata görə, son günlər ərzində müraciətlərin dinamikası çox sürətlidir və bu, müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifayət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar.

Onu da bildirməliyəm ki, mənim göstərişimlə son aylar ərzində ünvanlı sosial yardım alan insanların sayı artırılıb, indi 70 mindən çoxdur. Əlbəttə ki, hər bir məsələyə biz ayrı-ayrılıqda baxmalıyıq, vahid meyarlar tətbiq olunmalıdır və bu meyarlar vətəndaşlara da aydın olmalıdır ki, bununla bağlı heç kimdə heç bir şübhə qalmasın.

Əlbəttə ki, həyat yerində durmur, həyat davam edir və mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq, necə ki, 2019-cu ildə islahatların böyük hissəsi icra edilmişdir. Əslində,

islahatların yeni mərhələsinə start 2018-ci ilin prezident seçkilərindən sonra verilmişdir. Mənim andiçmə mərasimindəki çıxışımda inkişafımızın və islahatların bütün istiqamətləri açıq-aydın göstərilmişdir. Ondan sonra biz bu islahatların ardıcıllıqla həyata keçirilməsi ilə məşğuluq və bu gün deyə bilərəm ki, ölkəmizdə daha yaxşı vəziyyət yaranmışdır – həm siyasi müstəvidə, iqtisadi sahədə, həm də sosial problemlərin həllində. Əlbəttə, əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək.

Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır – həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə. Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik.

Struktur islahatları aparılıb və hesab edirəm ki, struktur islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxmalıyıq. Siyasi islahatlar göz qabağındadır, kadr islahatları aparılıb. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsədi güdür ki, idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin. Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. Eyni zamanda, yerli icra orqanlarında aparılan kadr islahatları, xüsusilə, xoşagəlməz hallara qarşı ciddi mübarizə də göz qabağındadır. Bu, bizim şüurlu seçimimizdir. Bütün xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaq. Hesab edirəm ki, Prezident tərəfindən edilən xəbərdarlıq hər kəs üçün dərs olmalıdır. Əgər kimsə bundan ibrət götürməsə, günah onun özündə olacaq.

Bu islahatların məntiqi davamı parlament seçkiləri idi və bu ilin fevral ayında keçirildi. Parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır. Seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirildi. Tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsi Milli Məclisin Sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək. İndiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, bizim əsas məqsədimizdir. Çünki əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır. Ancaq, eyni zamanda, bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır.

Hesab edirəm ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Müstəqillik dövründə bu sahədə heç vaxt belə müsbət mənzərə müşahidə edilmirdi.

Əlbəttə, bəlkə mən hadisələri bir qədər qabaqlayıram. Çünki bu proses hələ təzə-təzə başlayır. Ancaq bəlkə ona görə qabaqlayıram ki, mən bu prosesin sürətlə getməsini arzulayıram. Şadam ki, bizim dialoq təklifinə müxalifət partiyalarının hamısı müsbət cavab verib və artıq siyasi dialoq başlayır. Əminəm ki, bu, ölkəmizə böyük fayda gətirəcəkdir.

O ki qaldı, bu dialoqdan imtina edənlərə, onları siyasi qüvvə adlandırmaq düzgün olmaz. Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq. Həmin bu qüvvələr Azərbaycanı 1990-cı illərin əvvəllərində ağır vəziyyətə salıblar, xəyanət ediblər, torpaqlarımızın işğalını şərtləndiriblər. Ondan sonra qorxaqcasına qaçıb gizləndilər. Həmin bu adamlar Azərbaycana böyük zərbə vurmuşlar, vətəndaş müharibəsinə start vermişlər. Torpaqlarımız işğala düşən zaman burada qardaş qanı axıdıldı. Bu qruplaşma ölkəmizdə xaos, anarxiya yaratdı, korrupsiya dövlət siyasətinə çevrildi və səriştəsizlik, tərbiyəsizlik, mədəniyyətsizlik artıq AXC-Müsavat hakimiyyətinin rəmzinə çevrildi. O hakimiyyəti təmsil edən adamların yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkə faktiki olaraq dağılma ərəfəsində idi.

Ona görə bu qruplaşmanı indiki şəraitdə siyasi qüvvə adlandırmaq olmaz. Onu bildirməliyəm ki, həmişə nəyisə gözləyirlər və həmişə xarici amilə ümid edirlər. Yadınıza salın, 2005-ci ildə postsovet məkanında inqilablar baş verdiyi zaman onlar da bundan ruhlanıb “narıncı inqilab” etmək fikrinə düşmüşdülər. Hətta özləri üçün ayrı bir rəng də seçməkdə çətinlik çəkdilər, Ukraynadan o vaxt narıncı rəngi götürüb burada tətbiq etmək istədilər. Narıncı rəngdə maykalar, bantlar sifariş edib ölkəmizə gətirdilər. Ancaq bir şeyi nəzərə almadılar ki, o vaxt, 2005-ci ildə parlament seçkiləri noyabr ayında keçirilmişdi. Noyabrda artıq soyuqlar başlayır. O gülməli mənzərə yadımdadır ki, bunlar pencəyin, paltonun üstündən narıncı maykaları geyib küçələrə çıxmışdılar. Bəziləri isə boyunlarına salmış, bəziləri başlarına bağlamışdılar. Bu, bir komediya mənzərəsi yaradırdı. Bax, budur bunların qabiliyyəti. O da alınmadı. Ondan sonra “ərəb baharı” başlayanda yenə də ruhlandılar ki, bunların əlinə bir fürsət düşəcək. 2011-2012-ci illərdə Azərbaycanda “ərəb baharı”nın təkrarlanmasını istəmişdilər. O da alınmadı. 2013-cü ildə prezident seçkiləri ərəfəsində hansı eybəcər addımlar atmışdılar, onu hər kəs xatırlayır. İndi isə koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni, bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır.

Hesab edirəm ki, bizim bu ilin əvvəlindən beynəlxalq müstəvidə də fəaliyyətimiz uğurludur. Mənim Davos Forumunda və Münxen Konfransında iştirakım, hesab edirəm ki, çox müsbət nəticələrə gətirib çıxarıb. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyanın bir nömrəli beynəlxalq iqtisadi tədbiridir və dünyanın siyasi, iqtisadi elitası orada iştirak edir. Mən Azərbaycana böyük marağı bir daha gördüm, bunun şahidi oldum. Dünyanın nəhəng şirkətləri Azərbaycanla işləmək istəyirlər. Növbəti addımların atılması və yeni razılaşmaların imzalanması üçün yaxşı şərait yaradılmışdır. Davos Forumunda keçirdiyim bir çox görüşlər konkret nəticəyə gətirib çıxarır. Azərbaycana sərmayə qoyulur, böyük şirkətlər Azərbaycanla daha fəal əməkdaşlıq edir və sair.

O ki qaldı, Münxen Təhlükəsizlik Konfransına, bu da dünya miqyasında təhlükəsizliklə bağlı bir nömrəli konfransdır. Bu dəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imkan oldu ki, canlı efirdə həm tarixi həqiqətlər, həm münaqişə ilə bağlı həqiqətlər geniş auditoriyaya çatdırılsın. Çünki bu auditoriya milyonlarla insanı əhatə edir. Nəzərə alsaq ki, tarixdə ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərləri canlı efirdə debatda idilər. Bu debatlara çox böyük maraq var idi. Bu, bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mi-

fologiya üzərində qurulub. Bizim sözümüz isə tarixə, tarixi sənədlərə, tarixi reallıqlara və beynəlxalq hüquqa əsaslanır. Ona görə Münxen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib və bunların uzun illər ərzində uydurduğu yalan məlumatlara son qoyub. Əlbəttə, istisna edilmir ki, bu cəhdlər bundan sonra da göstəriləcək, ancaq artıq buna heç kim inanmayacaq.

Ona görə hesab edirəm ki, həm münaqişə ilə bağlı, həm Cənubi Qafqazın tarixi ilə bağlı keçirilmiş bu tədbir bizim böyük uğurumuzdur. Azərbaycan xalqı mənə göndərilən on minlərlə mesajlarda, məktublarda öz dəstəyini bir daha ifadə etmişdir.

Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ndən gedir. Bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. "Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq istəyirəm Azərbaycan vətəndaşları bilsinlər ki, bu beynəlxalq təşkilatlar arasında bir təşkilatın adı yoxdur. Hesab edirəm, hər kəs başa düşür ki, söhbət Avropa Şurasından, Avropa Şurası Parlament Assambleyasından gedir, hansı ki, uzun illər, 20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir.

Avropa Şurası Parlament Assambleyası susubdur. Baxın, bütün təşkilatlar, o cümlədən Avropa təşkilatları bəyan edirlər ki, biz bu seçkiləri tanımırıq. Bunun birmənalı mənası odur ki, Dağlıq Qarabağ Azərbaycandır. Avropa Şurası Parlament Assambleyası niyə susur? Niyə bunu demir? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Bizə qarşı o təşkilatdan gələn bütün iradların heç bir əhəmiyyəti yoxdur. Mən demişəm, bir daha demək istəyirəm ki, onların qəbul etdikləri qətnamələr, qərarlar mənim üçün kağız parçasından artıq deyil. O təşkilatın Azərbaycanla bağlı olan fikri məni maraqlandırmır və heç vaxt maraqlandırmayıb.

Bir məsələyə də diqqətinizi çəkmək istəyirəm. Azərbaycanla bağlı məruzəçilər var və bu məruzəçilər də susub, bir söz demirlər. Burada balaca bir hadisə baş verən kimi ölkəmiz haqqında ağızdolusu yalan, böhtan uydururlar. Nə üçün susublar? Bundan sonra onlar Azərbaycan üzrə məruzəçi olmaq mənəvi haqqını itiriblər. Azərbaycan xalqı hər şeyi yaxşı görür. Görür ki, bunların çirkin bəyanatlarının arxasında heç də Azərbaycanda demokratiya, insan haqlarının qorunması məsələsi dayanmır. Azərbaycanı qaralamaq, şantaj etmək, nüfuzdan salmaq, beləliklə, ölkəmizin maraqlarına zərbə vurmaq bu qurumun məqsədidir.

Biz isə öz yolumuzla gedirik. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bütün beynəlxalq aləmin bu qondarma "seçkilər"ə olan reaksiyası bizim mövqeyimizi daha da gücləndirir.

Beynəlxalq tədbirlərdən danışarkən, əlbəttə ki, Azərbaycanın təşəbbüsü ilə videokonfrans şəklində keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünü qeyd etməliyəm. Azərbaycan keçən ilin oktyabr ayında bu təşkilatda sədrliyi öz üzərinə götürmüşdür. Bu təşəbbüs irəli sürüldü. Bildirməliyəm ki, Türk Şurası bu günə qədər dünyanın yeganə təşkilatıdır ki, dövlət başçıları səviyyəsində koronavirusla bağlı Zirvə görüşü keçirib. Görüş çərçivəsində səslənən fikirlər, qarşılıqlı dəstək, həmrəylik və qəbul edilmiş yekun Bəyannamə bir daha göstərdi ki, bizim təşkilatımızın çox möhkəm əsasları var və ağır gündə biz bir-birimizin yanındayıq.

Hesab edirəm ki, Azərbaycanın təşəbbüsü burada çox yerində və vaxtında atılmış addımdır, bütün həmkarlarım bunu qeyd etmişlər.

İqtisadi nailiyyətlərimizlə bağlı bir daha demək istəyirəm ki, biz yanvar, fevral aylarını çox yaxşı göstəricilərlə başa vurmuşuq. Ümumi daxili məhsul 3 faizə yaxın artmışdır, qeyri–neft sektorunda təxminən 7 faizə yaxın artım olmuşdur. Ancaq əgər üç ayı götürsək ümumi daxili məhsul 1,1 faiz artıb. Qeyri–neft sektorunda isə 3 faizdən bir qədər çox artıb. Yenə də artım var. Ancaq, əlbəttə, əgər koronavirus araya girməsəydi, bu artım daha da böyük olacaqdı.

Qeyri–neft sənaye sektorunda artım 23 faizdir. Bu da onu göstərir ki, son müddət ərzində bu sahəyə göstərilən diqqət və qoyulan sərmayə öz gözəl nəticəsini verməkdədir. İnflyasiya 3 faiz səviyyəsindədir, ilin iki ayında 2,8 faiz idi, bir qədər artıb. Əhalinin gəlirləri isə 7 faizə yaxındır. Üç ayda vergi və gömrük orqanları büdcəmizə proqnozdan əlavə 310 milyon manatdan çox vəsait daxil etmişlər. Xüsusilə nəzərə alsaq ki, indi iqtisadi fəallıq aşağı düşüb, bu, hesab edirəm ki, yaxşı nəticədir, yenə də şəffaflıqla bağlı olan tədbirlərin bariz nümunəsidir.

Bildirməliyəm ki, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Əksinə, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat nəzərdə tutulur. Ancaq bundan artıq olacaq. Təkcə lazımi avadanlıqların, ləvazimatların alınması üçün bu yaxınlarda Prezidentin ehtiyat fondundan 97 milyon manat ayrıldı. Bundan sonra da ilin sonunadək nə qədər lazımdırsa, hələ 150 milyon manatın ayrılması da nəzərdə tutulur. Bu, 2,5 milyard manatın içində deyil. Bütün sosial ödənişlər aparılır. Hesab edirəm ki, orta aylıq əməkhaqqının 28 faiz, orta pensiyanın təqribən 27 faiz artması da onu göstərir ki, bu istiqamətdə müsbət işlər görülür. İndi bizim orta aylıq əməkhaqqımız 712 manatdır, orta pensiya 295 manatdır. Yaşa görə pensiya isə 330 manata yaxındır. Yəni, biz maaşları, pensiyaları ildən-ilə artırırıq. Əlbəttə ki, keçən il çox böyük artım olmuşdu, 4,2 milyon insan dövlət tərəfindən qəbul edilmiş proqramlardan yararlanıb. Bu il bütün sosial infrastruktur obyektlərinin tikintisi də ixtisarsız icra ediləcək. Minimum 7 min köçkün ailəsi yeni mənzillərə köçürüləcək və minimum 1500 şəhid ailəsinə yeni mənzillər veriləcək.

Bir sözlə, demək istəyirəm ki, üç ayın yekunlarını prinsip etibarilə müsbət qiymətləndirmək olar. Ancaq bir daha demək istəyirəm ki, heç kim bilmir pandemiya nə qədər davam edəcək və iqtisadi fəallıq nə zaman bərpa olunacaq. Biz bütün addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Onu da bildirməliyəm ki, mənim Sərəncamımla sosial, iqtisadi, maliyyə, makroiqtisadi vəziyyəti sabit saxlamaq üçün dörd işçi qrup yaradılmışdır. Bu qrupların rəhbərləri görülmüş işlərlə bağlı bu gün məlumat və təkliflər versinlər. Birinci söz verilir Maliyyə naziri Samir Şərifova.

***

Maliyyə naziri Samir Şərifov çıxış etdi.

***

**Prezident İlham Əliyev:** Sağ olun. Mən qeyd etdim ki, inflyasiya bu il aşağı səviyyədədir. İki ayda daha aşağı səviyyədə idi. Üç ayın yekunlarına görə 3 faizə çatıb. Ancaq tam nəzarət altındadır. Ona görə makroiqtisadi vəziyyətlə bağlı və eyni zamanda, bank sektorunda görülmüş işlərlə bağlı və görüləcək işlərlə bağlı məruzə üçün söz verilir Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova.

***

Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov çıxış etdi.

***

**Prezident İlham Əliyev dedi:**

– Sağ olun. Böhran dövründə bank sektorunun fəaliyyəti xüsusi önəm daşıyır. Ona görə bankların sağlamlaşdırılması və bank sektorunun ölkə iqtisadiyyatına verə biləcəyi töhfənin düzgün qiymətləndirilməsi çox vacibdir. Hesab edirəm ki, vurğuladığınız məsələlər tam düzgün təhlil əsasında qeyd olunur. Əlbəttə ki, biz makroiqtisadi vəziyyətimizi qorumalıyıq, sabit saxlamalıyıq. Koronavirusun ilk aylarının təcrübəsi onu göstərir ki, biz buna müvəffəq olmuşuq. Makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi sabitdir. Siz qeyd etdiyiniz kimi, bir müddət əhali və hüquqi şəxslər tərəfindən dollarizasiyaya doğru addımlar atıldı. Ancaq indi de-dollarizasiya prosesi müşahidə olunur.

Mən ictimaiyyətin diqqətini bir məsələyə də çəkmək və öz sözümü bildirmək istəyirəm. Əfsuslar olsun ki, əgər hər hansı bir ölkədə, – xüsusilə qonşu ölkələr nəzərdə tutulur, – o ölkənin milli valyutasında hansısa dəyişiklik baş verirsə, Azərbaycanda buna dərhal belə sürətli reaksiya verilir. Halbuki

buna heç bir ehtiyac yoxdur. Biz bunu bir neçə il bundan əvvəl görmüşük və məhz buna görə iki devalvasiyaya getməli olduq. Çünki bizim Mərkəzi Bankın valyuta ehtiyatları demək olar ki, əriyirdi, süni ajiotaj yaradılmışdı və dollarizasiya pik həddə çatmışdı. İndiki şəraitdə də həmçinin. İndi koronavirus pandemiyası geniş vüsət alan kimi, bəzi ölkələrin milli valyutaları tənəzzülə uğradı, ancaq hazırda Azərbaycanda bunun heç bir əsası yoxdur. Bizim kifayət qədər resurslarımız var və dövlət orqanlarının nümayəndələri bu məsələ ilə bağlı açıqlamalar vermişdilər. Ancaq bəzi adamlar şayiə yaydılar, bəzi adamlar panikaya qapıldılar. Biz valyuta bazarında dərhal fəallıq gördük və dollara tələbat artdı. İlkin mərhələdə böyük həcmdə dolların satışı da nəzərdə tutuldu. Amma sonra gördülər ki, makroiqtisadi vəziyyət sabitdir, manatın vəziyyəti sabitdir və indi bu ajiotaj yoxdur. Ona görə Azərbaycan vətəndaşlarından artıq dərəcədə xahiş edirəm, şayiələrə uymasınlar, inanmasınlar. Bizi istəməyən qüvvələr, daxili və xarici anti-Azərbaycan qüvvələr şayiə yaymaqla məşğuldurlar, insanları çaşdırmaq, insanlarda panika yaratmaq istəyirlər. Bunun üçün heç bir əsas yoxdur. Azərbaycan güclü dövlətdir və Azərbaycan rəhbərliyi vətəndaşlara hər şeyi necə varsa, elə də təqdim edir. Biz ümumi mənzərəni şişirtmirik, eyni zamanda, tam səmimiyyətlə deyə bilərəm ki, panika üçün, hansısa narahatlıq üçün bu gün heç bir səbəb yoxdur. Əsas məqsədimiz koronavirusla apardığımız mübarizədə qalib gəlmək, bu vəziyyətdən az itkilərlə çıxmaq, iqtisadiyyata az ziyan vurmaqdır. Çünki biz açıq-aydın başa düşürük ki, bu məhdudlaşdırıcı tədbirlər iqtisadiyyata ziyandır. Burada biz iki amil arasında seçim etməliyik – iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır – insanların sağlamlığı. Ona görə bu məhdudlaşdırıcı addımlar atıldı. Biz, əlbəttə, bəri başdan bilirdik ki, bu, iqtisadi fəallığa mənfi təsir göstərə bilər, istər-istəməz müəyyən şayiələrin yayılmasına, iqtisadi sahədə müəyyən narahatlığa gətirib çıxara bilər. Biz bunu şüurlu şəkildə etdik ki, insanlarımızı, onların həyatını qoruyaq. Çünki bundan daha qiymətli heç nə yoxdur. İqtisadiyyat bir il tənəzzülə uğraya bilər, başqa il arta bilər, hər halda, hər şey nəzarət altındadır. Ona görə valyuta bazarında da bu gün heç bir təşvişə ehtiyac yoxdur.

Biz makroiqtisadi vəziyyəti qorumalıyıq. Eyni zamanda, banklar indiki şəraitdə biznesə daha böyük dəstək verməlidirlər. Mən çox şadam ki, artıq biznes kreditlərinin faizi artır, amma istehlak kreditlərinin faizi düşür. Bu, hesab edirəm ki, çox yaxşı tendensiyadır və bu, saxlanmalıdır.

Mən bankların özünüməşğulluq proqramına qoşulmasını da alqışlayıram. Yaxşı bilirsiniz ki, bu proqrama çox böyük tələbat var və biz nəzərdə tuturduq ki, dövlət xətti ilə on min insana vasitələri təqdim edək. İndi Dünya Bankı da buna qoşuldu. Onlar tərəfindən də vasitələr veriləcək, bizim banklar da verəcək. Çünki tələbat daha çoxdur. Təqribən 40-50 min tələb, yəni, sifariş var. Ona görə xüsusilə indiki şəraitdə mikrobiznesin inkişafı, – indi kənd təsərrüfatında da bu sahədə işlər nəzərdə tutulur, – mütləq aparılmalıdır ki, biz biznesi qoruyaq, onlara dəstək verək və razıyam ki, artıq normal həyata qayıtmaq üçün hazırlıq işlərimizi aparmalıyıq.

Ona görə mən bütövlükdə bank sektorunda və makroiqtisadi sahədə görülmüş işləri müsbət qiymətləndirirəm, belə də davam edin. Bilirəm ki, siz gündəlik formatda hər şeyə monitorinq aparırsınız. Hesab edirəm ki, faiz dərəcələrinin sabit saxlanması da çox müsbət addımdır, o qədər də asan məsələ deyil. Çünki neftin qiymətinin kəskin düşməsi, iqtisadi fəallığın azalması istər-istəməz faiz dərəcələrinin artımını şərtləndirirdi. Ancaq son aylar ərzində faiz dərəcələri ardıcıllıqla aşağı düşür. Ona görə siz bu dərəcələri indi də sabit saxlayırsınız. Hesab edirəm ki, indiki vəziyyətə görə bu, düzgün addımdır.

Təbii ki, koronavirus iqtisadi fəallıqla bağlı bizə çox böyük problem yaratdı. Ancaq buna baxmayaraq, hesab edirəm ki, vaxtında atılmış addımlar, xüsusilə sahibkarlara, biznesə verilən dəstək bir daha dövlətin siyasətini göstərir. Bizim həm siyasətimiz birmənalıdır, həm də imkanlarımız var. Bu imkanları biz yaratmışıq. Əgər biz bu maliyyə imkanlarımızı yaratmasaydıq, bu gün necə kömək edərdik? Mən Azərbaycanı heç kimlə müqayisə etmək istəmirəm, amma biz baxırıq, görürük indi başqa ölkələrdə nələr baş verir. Adambaşına bizdəki qədər düşən dəstək həcmi az ölkələrdə müşahidə olunur. Çünki indi bizim həm imkanlarımız var, - düzdür, neftin qiymətinin aşağı düşməsi bu imkanlara da mənfi təsir göstərir, - eyni zamanda, siyasi iradə də var. Ona görə bu vəziyyətdə biznes strukturlarının dəstəklənməsi təbiidir və biz heç vaxt onları ağır vəziyyətdə qoya bilmərik. Çünki koronavirus onların

biznesinə ziyan vurub, biz isə onların işini yüngülləşdirməliyik.

Onu da bildirməliyəm ki, son vaxtlar aparılan islahatlar nəticəsində Azərbaycanda biznes mühiti böyük dərəcədə yaxşılaşmışdır. Bunu bir neçə mötəbər beynəlxalq təşkilat da qeyd edir. Bu yaxınlarda məşhur "Heritage" Fondu da iqtisadi azadlıqlarla bağlı reytinq cədvəli tərtib edib və Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə dünyada 44-cü yerdədir. Bir il ərzində biz 19 pillə qalxmışıq. Hesab edirəm ki, bu, böyük nəticədir.

Ümumiyyətlə, maliyyə paketi, iqtisadi sabitliyin təmin edilməsi istiqamətində görülən və görüləcək işlərlə bağlı məruzə üçün söz verilir İqtisadiyyat naziri Mikayıl Cabbarova.

***

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış etdi.

***

**Prezident İlham Əliyev dedi:**

– Mən giriş sözümdə dedim ki, hökumət və əlbəttə, İqtisadiyyat Nazirliyi yeni gəlirlər mənbəyi axtarmalıdır. Bir daha demək istəyirəm ki, ehtiyatlar var və bilirəm, bu istiqamətdə iş gedir. Bunu uzatmaq lazım deyil. Hesab edirəm ki, qısa müddət ərzində yeni təkliflər hazırlanıb mənə təqdim edilməlidir.

Onu da bilməliyik ki, OPEC və qeyri-OPEC ölkələrinin razılaşması bizim üzərimizə də öhdəliklər qoyur. Bildirmək istəyirəm ki, Azərbaycan həmişə OPEC+ çərçivəsində çox fəal rol oynamışdır. Onu da xatırlatmaq istəyirəm ki, OPEC+ formatının ideyasını ilk dəfə Davos Ümumdünya İqtisadi Forumunun panel müzakirəsində mən vermişdim. Hətta bu gün OPEC-in baş katibi bunu qeyd edir. İndi artıq nəinki OPEC+ və neft hasil edən bütün ölkələr razılığa gəlib. Hesab edirəm ki, bu, çox nadir əməkdaşlıq formatıdır və bu format hər bir ölkənin üzərinə əlavə öhdəlik qoyur, o cümlədən Azərbaycanın. Bu razılaşmaya görə bizim neft hasilatımız bu il ixtisar ediləcək. Artıq kvotalar müəyyən edildi. Əgər neftin qiyməti lazımi səviyyəyə qalxmasa, onda biz əlavə itkilərə məruz qalacağıq. Biz bunu bilməliyik ki, bu itkilər təqribən 700 milyon, bəlkə də 1 milyard dollar ətrafında ola bilər. Ona görə indidən öz addımlarımızı atmalıyıq, çünki onsuz da keçən il qəbul edilmiş qərarlar əsasında böyük sosial paket icra edildi. Təbii ki, bu sosial paket bu il və bundan sonrakı illərdə də insanlara təqdim ediləcək. Koronavirusla bağlı ən azı 2,5 milyard manat nəzərdə tutulur. Qeyd etdiyim kimi, Prezidentin ehtiyat fondundan ləvazimatların alınmasına 100 milyon manata yaxın vəsait istiqamətləndirilib. Əgər neftin qiyməti bərpa olunmasa, bizi əlavə itkilər gözləyir və təbii olaraq bizim valyuta ehtiyatlarımız azalacaq. Birinci rübdə, yanvarın birinə nisbətdə artıq valyuta ehtiyatlarımız azalıbdır. Bu, təbiidir və belə olan halda bir daha demək istəyirəm ki, xərclərə böyük diqqətlə baxmalıyıq. Dövlət investisiya xərcləri əsas iki məqsədi güdməlidir. Məşğulluğu təmin etmək, çünki biz investisiya xərclərimizi kəskin ixtisar edə bilmərik. Çünki birincisi, önəmli layihələr icra edilməlidir və ən başlıcası odur ki, əgər dövlət investisiya xərcləri kəskin azalsa, onda bu sahədə çalışan insanlar işsiz qalacaq. Ona görə bizim investisiya proqramımıza baxarkən iki əsas amili nəzərə alın. Məşğulluq və bu layihələrin iqtisadiyyatın real sektoruna olan təsiri. Çünki Azərbaycanda böyük infrastruktur layihələri icra edilib. Onların böyük hissəsi tam başa çatıb, ona görə iki əsas amil nəzərə alınmalıdır. Hesab edirəm ki, aprel-may aylarında ikinci yarımillikdə nəzərdə tutulan investisiya proqramlarının təhlili və yenidən tərtib edilməsi zəruridir. Bu məsələ ilə ciddi məşğul olun.

Bununla paralel olaraq, - bu vəzifəni mən artıq qarşıya qoymuşam və bilirəm ki, İqtisadiyyat Nazirliyi bu məsələ üzərində işləyir, - özəl sərmayənin təşviqi istiqamətində əlavə addımlar atılmalıdır. Biz iqtisadi liberallaşmaya daha inamla getməliyik və investisiyalar üçün bütün sahələr bizdə açıq olmalıdır. Biz həm yerli investorları, həm xarici investorları inandırmalıyıq ki, onların investisiyaları səmərə verəcək, onlara gəlir gətirəcək. Xüsusilə nəzərə alsaq ki, həm "Doing Business" proqramında böyük irəliləyişə nail olduq, həm iqtisadi azadlıq indeksi, - artıq qeyd etdim ki, burada da Azərbaycan yüksək qiymətləndirilir, - bizim kredit reytinqimiz də müsbətdir, həm də dövlət xarici borcumuz aşağı səviyyədədir. Azərbaycan vətəndaşları bunu bilir. Mən hətta koronavirusa qədərki bir çox hallarda bu məsələyə xüsusilə diqqət yetirirdim ki, bizim dövlət xarici borcumuz daxili məhsulumuzun 17 faizini təşkil edir və daha da aşağı düşməlidir. İndiki böhranlı dövrdə bu amil çox böyük önəm daşıyır. Dövlət borcumuzun aşağı səviyyədə olması bizim kredit reytinqimizin sabit saxlanmasına imkan verir. Bu da investorlar üçün əsas amillərdən biridir.

Sosial sahə bizim üçün həmişə prioritet olubdur, indiki şəraitdə ikiqat prioritet olmalıdır. Çünki son

illərdə məşğulluq, sosial təminat istiqamətlərində böyük addımlar atılıb, ancaq indiki şəraitdə bu, xüsusi önəm daşıyır. Ona görə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri məlumat versin ki, məşğulluqla bağlı işlər nə yerdədir, özünüməşğulluq proqramı necə icra edilir, işsizlərlə bağlı hansı addımlar atılıb və hansı addımların atılması nəzərdə tutulur.

***

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev çıxış etdi.

***

**Prezident İlham Əliyev dedi:**

– Qeyri-formal məşğulluqla bağlı işlər artıq müəyyən müddətdir ki, aparılır və mənə müntəzəm olaraq məruzə edilir. Keçən il də bu istiqamətdə müsbət mənzərə müşahidə olunurdu, yəni, əmək müqavilələrinin sayı artır. Hesab edirəm ki, bu pandemiya dövrü hələ də kölgədə işləyənlər üçün bir dərs olmalıdır. Çünki mən dəfələrlə həm sahibkarlara, həm işçilərə müraciət etmişdim ki, kölgədən çıxın, əmək müqavilələri bağlayın. Əgər əmək müqavilələriniz olmasa, pensiya ala bilməyəcəksiniz, tibbi sığorta ala bilməyəcəksiniz. Əgər siz işsizsinizsə və qeydiyyata düşmürsünüzsə, işsizlik müavinəti ala bilməyəcəksiniz. Ona görə hesab edirəm ki, indiki şəraitdə və siz qeyd etdiniz, əmək müqavilələrinin sayı qısa müddət ərzində 10 minlərlə artdı. İndiki şəraitdə bu sahəyə daha da böyük diqqət yetirməliyik. Hesab edirəm ki, həm maarifləndirmə istiqamətində, həm də əlbəttə ki, inzibati tədbirlər, monitorinq tədbirləri və institusional islahatlar nəticəsində biz qeyri-formal məşğulluğun əhatə dairəsini böyük dərəcədə daralda bilərik və bu istiqamətdə işlər davam etdirilməlidir. Bu 70 min yeni əmək müqaviləsinin bağlanması göstərir ki, hələ də ehtiyatlar çoxdur və bu ağır vəziyyət bu gün kölgədə işləyənlər üçün də, necə deyərlər, bir yolgöstərici amil olmalıdır.

Ödənişli ictimai işlərə gəldikdə, biz ilin əvvəlində 37 min ödənişli iş yerinin yaradılmasını nəzərdə tuturduq. İndi bu pandemiyaya görə bunların sayı 50 minə çatıb. Amma yenə də baxın, əgər bölgələrdə xüsusilə buna əlavə tələbat yaranarsa, məlumat verin, bəlkə biz əlavə vəsait ayıraq ki, bu çətin dövr ərzində insanları işlərlə təmin edək.

Hesab edirəm ki, 12 min insanın özünüməşğulluq proqramına cəlb edilməsi, çox müsbət nəticədir. Nəzərə alsaq ki, biz təqribən 3, 4, 5 minlə başlamışıq. Amma giriş sözümdə dediyim kimi, – siz də bu barədə mənə məlumat vermisiniz, – təqribən on minlərlə tələbat var. Əlbəttə ki, bu tələbatın ödənilməsi asan məsələ deyil. Çünki hər bir məsələyə ayrı-ayrılıqda baxılır, bəzi hallarda bəzi insanların bu işlərə qabiliyyəti çatmır, bəzi insanlar vasitələri alıb sonra onları satırlar. Belə hallar da var və dünya praktikası var. Mənə verilən məlumata görə, dünya praktikasında özünüməşğulluq proqramının uğur əmsalı təqribən, 50 faiz ətrafındadır, Azərbaycana gəldikdə, bu, daha çoxdur. Ancaq bu proqrama cəlb olunan vətəndaşlar bilməlidirlər ki, əgər onlara verilmiş imkanlardan düzgün istifadə etməsələr, bu imkanı itirəcəklər və ikinci dəfə onlara bu şərait yaradılmayacaq. Ona görə xahiş edirəm, əgər kiməsə vasitə verilirsə onu satmasın, ondan səmərəli şəkildə istifadə etsin ki, özü üçün davamlı, dayanıqlı gəlir mənbəyi yaratsın. Bizim əsas məqsədimiz budur ki, insanlar özləri üçün müstəqil gəlir mənbələri yaratsınlar və ailələrini saxlaya bilsinlər. Ona görə 12 min insanın imkanlarını araşdırmaq böyük vaxt tələb edir və burada meyarlar çox dəqiq ölçülüb-biçilməlidir ki, ədalət prinsipi tam təmin edilsin.

Həssas təbəqənin qorunması, – bu barədə siz məlumat verdiniz, – hesab edirəm ki, indiki şəraitdə ən vacib məsələdir. Biz onlara sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik. Azərbaycan xalqının əsrlərboyu yaşatdığı bu gözəl xüsusiyyətləri bu gün bütün xalqımız nümayiş etdirməlidir və nümayiş etdirir. Qeyd etdiyiniz kimi, biznes dairələri öz təşəbbüsləri ilə imkansız adamlara kömək göstərirlər və mən bunu alqışlayıram. Bu, biznesin sosial məsuliyyətinin təzahürüdür. Kimin nəyə gücü, imkanı çatırsa kimsəsiz insanlara, ahıl insanlara, həssas təbəqədən olan insanlara kömək göstərin. Əlbəttə ki, dövlət öz üzərinə bu funksiyanı götürüb, bunu edir və edəcək. Ancaq biznes dairələrinin bu şəraitdə bu işlərə qoşulması və ayrı-ayrı insanların öz təşəbbüsü ilə ehtiyacı olan insanların yanında olması məni hədsiz sevindirir, onlara öz təşəkkürümü bildirmək istəyirəm. Yerli icra orqanları şərait yaratmalıdır ki, onlar bu yardımı daha böyük həcmdə etsinlər. O ki qaldı, həssas təbəqədən olan tələbələrə, siz qeyd etdiniz, 17 min tələbənin ödənişi dövlət tərəfindən təmin ediləcək. Bu, çox gözəl addımdır və buna da tam nəzarət olmalıdır ki, heç kim bu proqramdan kənarda qalmasın.

Kommunal ödənişlərlə bağlı güzəştlər edilibdir. Hesab edirəm ki, pandemiya ilə bağlı sosial paketin

tam icra edilməsi karantin və pandemiya dövründə vətəndaşların yaşayışı üçün çox ciddi kömək olacaqdır.

Eyni zamanda, biz ilin əvvəlində nəzərdə tutulmuş proqramları da yaddan çıxarmamalıyıq. Bu haqda mən artıq giriş sözümdə dedim. Şəhid ailələrinin mənzillərlə təmin edilməsi – biz ilin sonuna qədər bu istiqamətdə də 1500 mənzilin verilməsini təmin etməliyik. Hazırda birinci 3 ayda neçə şəhid ailəsi evlərlə təmin edilib? Bu haqda məlumat verin.

Nazir Sahil Babayev: Möhtərəm cənab Prezident, artıq 180 şəhid ailəsi üçün evlər tam satın alınıbdır. Əlavə olaraq satınalmada 200 şəhid ailəsi ilə bağlı evlər, mənzillər var. Sadəcə, bu xüsusi karantin rejimində kütləvi tədbirin olmaması üçün onları təqdim etmirik. Rejim bitən kimi artıq əlimizdə 300-dən artıq belə mənzil hazır olacaq.

***

**Prezident İlham Əliyev dedi:**

– Karantin rejimi kənd təsərrüfatı işlərinə mane olmamalıdır. Ona görə müvafiq göstərişlər verilmişdir. Çünki bildiyiniz kimi, bəzi insanlar mövsümi işlərlə bağlı bir rayondan başqa rayona getməli olurlar. Ona görə indi ki, şəhərlərarası nəqliyyat dayandırıldı, bu məsələ ayrıca müzakirə edilməlidir və bütün şərait yaradılmalıdır ki, kənd təsərrüfatı sahəsində karantin rejimi bizə problem yaratmasın və insanların gediş-gəlişi təmin edilsin. Operativ Qərargaha bu məsələ ilə bağlı göstəriş verildi. Əminəm ki, bu göstəriş yerinə yetiriləcək.

Birinci rübdə kənd təsərrüfatının artımı 3,7 faiz olmuşdur. Bitkiçilikdə daha böyük nəticələr əldə edilib, 13 faizdən çox artım var. Nəzərə alsaq ki, keçən il də bitkiçilikdə artım böyük idi, bu, göstərir ki, bu sahə uğurla, sürətlə inkişaf edir. Heyvandarlığa gəldikdə, burada inkişafa nail olmaq üçün daha çox vaxt lazımdır. Burada da artım 3 faizdən bir qədər çoxdur.

Bu il kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara Sahibkarlığın İnkişafı Fondundan kreditlərin ayrılması nəzərdə tutulur. Xüsusilə hesab edirəm ki, indiki şəraitdə kənd təsərrüfatı emalı sahəsinə daha çox diqqət yetirilməlidir. Çünki biz əlavə dəyər zənciri yaratmalıyıq və çalışmalıyıq ki, həm daxili bazara, həm xarici bazarlara daha çox hazır məhsul təqdim edək. Eyni zamanda, bu, yeni iş yerlərinin yaradılmasına da gətirib çıxaracaq. Əlbəttə ki, kiçik sahibkarlar da yaddan çıxmamalıdır. Bilirəm ki, Kənd Təsərrüfatı Nazirliyinin bəzi təklifləri var. Ona görə, ümumiyyətlə, kənd təsərrüfatı işlərinə hazırlıqla bağlı, görüləcək işlərlə bağlı, problemlərlə bağlı məlumat vermək üçün söz verilir Kənd Təsərrüfatı naziri İnam Kərimova.

***

Kənd Təsərrüfatı naziri İnam Kərimov çıxış etdi.

***

Dövlətimizin başçısı müşavirəyə yekun vurdu.

## Prezident İlham Əliyevin yekun çıxışı

– Bir daha demək istəyirəm ki, son illər kənd təsərrüfatı sahəsində müsbət dəyişikliklər baş verir. Elektron Kənd Təsərrüfatı Proqramı icra edilir. Fermerlərə subsidiyaların verilməsi mexanizmi təkmilləşdirilib və artıq kartlar da verilibdir. Bu, çox müsbət haldır, yəni, kənd təsərrüfatı müasir standartlara cavab verməlidir. Belə olan halda, əlbəttə ki, həm məhsuldarlıq artacaq, həm kənddə işləyən insanlar əmək sərf edəcəklər, həm də daxili bazarı təmin edəcəyik və xarici bazarlara da daha geniş çeşiddə məhsullarla çıxa biləcəyik. Kənd təsərrüfatı ilə bağlı olan əsas məsələ məhsuldarlığı artırmaqdır. Kənd Təsərrüfatı Nazirliyi artıq bu istiqamətdə işlər görür, demək olar ki, yetişdirilən bütün növ məhsullar üzrə məhsuldarlıq ildən-ilə artır. Amma biz bilməliyik ki, əhalimiz artır və daxili istehlak da artacaq. Ona görə kənd təsərrüfatının istehsalı yüksək templərlə inkişaf etməlidir ki, biz həm daxili tələbatı ödəyə bilək, eyni zamanda, ixrac bazarlarına da öz məhsulumuzu çatdıra bilək.

Hesab edirəm ki, qeyd etdiyiniz məsələlərin həlli üçün, əlavə vəsait ayrılmalıdır. Mikrokreditlərin verilməsi üçün Prezidentin ehtiyat fondundan vəsaitin ayrılması nəzərdə tutulmalıdır. Hesab edirəm ki, bu məqsədlər üçün 30 milyon manat vəsait ayrıla bilər və müvafiq Sərəncam layihəsi də hazırlansın, mənə təqdim edilsin.

Quraqlıqla bağlı dedikləriniz çox ciddi məsələdir, bu, böyük narahatlıq doğurur. Çünki bu meyl davam edə bilər. Bilirsiniz ki, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq var. Bəzi proqnozlar onu göstərir ki, Azərbaycanda bəlkə on ildən, iyirmi ildən sonra səhralaşma prosesi də istisna deyil. Ona görə biz bəri başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlığı



xatırlamırlar. Bu il də quraqlıq gözlənilir. Ona görə su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir. Heç kimə sirr deyil ki, su olan yerdə məhsuldarlıq da artır və insanların dolanışığı da yüksəlir. Məhz bu məqsədlə ölkəmizdə bir neçə önəmli genişmiqyaslı layihə icra edilmişdir. Əgər Şəmkirçay su anbarı, Taxtakörpü su anbarı vaxtında tikilməsəydi, kanallar çəkilməsəydi, o sudan qidalanan rayonlarda böyük çətinliklər ola bilərdi. Biz son bir neçə il ərzində orta hesabla təqribən yüz min hektara yaxın torpağa suyun verilməsini təmin edirik. Bunlar vaxtilə suvarılmayan, yaxud da ki, suvarılması lazımi səviyyədə olmayan torpaqlardır. Ona görə bundan sonra da kənd təsərrüfatının və fermerlərin bu sahədə tələbatını ödəmək üçün gərək yeni proqram tərtib edilsin. Biz köhnə metodlarla gedə bilmərik. Çünki bu metodların səmərəliliyi özünü doğrultmur. İndi dünya texnologiyaları bütün sahələrdə inkişaf edir, o cümlədən meliorasiya sahəsində. Biz indi bu işləri dədə-baba üsulu ilə görə bilmərik. Yeni texnologiyalar tətbiq edilməlidir. Mənə verilən məlumata görə, bəzi yerlərdə suyun itkisi 40-50 faizə çatır. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük investisiya qoyulub. Amma vaxtilə tikilmiş qurğuların, infrastrukturun bir çoxu çürüyüb və həm suyun çatdırılmasına imkan vermir, həm də ki, o sızmalar torpağın şoranlaşmasına gətirib çıxarır. Ona görə biz burada iki ziyan görürük. Onu da bilməliyik ki, bizim su ehtiyatlarımız o qədər də geniş deyil və əsas su mənbələrimiz sərhədlərimizin kənarında formalaşır. Ona görə hər damcı su bizim üçün önəmlidir. Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Sovet vaxtında tikilmiş su kanallarımızın demək olar ki, hamısı torpaq kanallardır. Son vaxtlar biz ancaq beton kanallar tikirik və vaxtilə tikilmiş

torpaq kanalları betona alırıq. Beləliklə, su itkisinin qarşısını alırıq. Ancaq hesab edirəm ki, daha irəli baxmalıyıq. İndi dünyanın inkişaf etmiş ölkələrində, xüsusilə, bizim iqlimimizə oxşar iqlimi olan ölkələrdə təcrübə var, orada məhsuldarlıq da çox yüksəkdir və bu təcrübə Azərbaycanda tətbiq edilməlidir.

Ona görə hesab edirəm ki, bu sahədə ciddi irəliləyişə nail olmaq üçün xüsusi komissiya yaradılmalıdır. Su ehtiyatlarından səmərəli istifadə etmək üçün komissiya yaradılacaq. Hesab edirəm ki, komissiyaya Baş Nazirin müavini Şahin Mustafayev rəhbərlik etməlidir. Çünki Şahin Mustafayev İqtisadiyyat naziri işlədiyi dövrdə bu məsələ ilə fəal məşğul olub və mənə müntəzəm olaraq məruzələr edib. Komissiyada aidiyyəti qurumların rəhbərləri - Kənd Təsərüfatı naziri, İqtisadiyyat naziri, Ekologiya və Təbii Sərvətlər naziri, "Meliorasiya və Su Təsərrüfatı" Səhmdar Cəmiyyətinin, "Azərsu" Səhmdar Cəmiyyətinin rəhbərləri və digər aidiyyəti qurumların rəhbərləri təmsil olunmalıdırlar ki, konkret tədbirlər planı hazırlansın. Demək olar ki, indi təhlillə bağlı materiallar və belə məlumatlar var. Əsas məsələ odur ki, nə etməliyik, hansı addımlar atmalıyıq. Yəqin, xarici mütəxəssisləri də cəlb etməliyik ki, bizə yaxşı məsləhətlər versinlər. Biz suyun hər bir damcısının qədrini bilməliyik.

Beləliklə, bugünkü müşavirəmiz başa çatmaq üzrədir. Bildirməliyəm ki, əlbəttə, bizim iqtisadi və sosial planlarımız yerindədir. Koronavirus planlarımıza müəyyən təsir etsə də, bizi əsas yolumuzdan döndərə bilməz. Əlbəttə ki, indi bizim bütün səylərimiz koronavirusla mübarizəyə yönəldilib. Bu da təbiidir. Məhz bu məqsədlə mənim Sərəncamımla Baş Nazirin rəhbərliyi altında Operativ Qərargah yaradılıb. Qərargah çox səmərəli işləyir, 24 saat çalışır. Demək olar ki, mən də 24 saat əlaqədəyəm. Gün ərzində bəlkə də 5-6 dəfə zəngləşirik, danışırıq. Deyə bilərəm ki, əgər vaxtında bu addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün biz daha da böyük problemlərlə üzləşə bilərdik. Biz özümüzü bu günə qədər demək olar ki, çox böyük problemlərdən qoruya bildik. Son iki günün dinamikası, yəni, xəstələrin və sağalanların sayı arasındakı dinamika müəyyən nikbinliyə yol açır. Amma mən hələ ki vaxtı qabaqlamaq istəmirəm, hələ ki təhlil aparılır. Bildiyiniz kimi, karantin rejimi ayın 20-nə qədər qüvvədədir. Növbəti həftə ərzində həm Operativ Qərargah, həm bütün digər aidiyyəti qurumlar öz təkliflərini verməlidirlər ki, ayın 20-dən sonra biz hansı addımları atmalıyıq, karantin rejimi qüvvədə qalacaq ya yox, qalacaqsa hansı formada qalacaq. Biz yumşalmaya nə vaxtdan başlaya bilərik. Biz bütün bunları gərək dəqiq bilək. Bir daha demək istəyirəm ki, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. İqtisadiyyat bərpa olunar. Biz indi fəal işləyirik və işləyəcəyik ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq.

Koronavirusla bağlı addımlar ardıcıllıqla atılır. Bizdə indi 20-dən çox xəstəxanada xəstələr müalicə alır. Eyni zamanda, 4-5 ulduzlu otellərdə, o cümlədən Atletlər kəndində karantində olan vətəndaşlar yerləşdirilib. Biz artıq 70 mindən çox test keçirmişik və keçirilən testlərin sayına görə dünya miqyasında 30-cu yerlərdəyik. Həkimlərə diqqət göstərilir, onların maaşları 3, 4, 5 dəfə artırılıbdır. Biz maska istehsalına başlamışıq və bir müəssisə artıq fəaliyyətə başlayıb. Mənə verilən məlumata görə, digər müəssisə də fəaliyyətə başlayır. Bu da çox müsbət haldır. Əlavə 10 modul tipli xəstəxananın tikintisi artıq başlamışdır. Onlardan altısı dövlət, dördü isə özəl sektor tərəfindən inşa ediləcək. Bizim ən müasir xəstəxanamız – “Yeni klinika”, keçən ayın sonunda istifadəyə verildi. Bu 575 çarpayılıq ən müasir klinikamız koronavirus xəstələrinin sərəncamına verildi. Mən klinikanın açılışında qeyd etmişdim ki, biz bu xəstəliyə görə bu klinikanı vaxtından bir qədər əvvəl istifadəyə verdik və o tədricən fəaliyyətə başlayır. Son məlumata görə, artıq bu klinikada 100 koronavirus xəstəsi müalicə alır. Deməli orada çarpayıların istifadəyə verilməsi prosesi davam edir və bütün imkanlar maksimum səfərbər olunubdur.

Bizim bu sahədə görülən işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, mən minlərlə elektron məktub alıram. Bu məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır.

Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq.

Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib

**Videokonfrans vasitəsilə keçirilən Zirvə görüşü koronavirusa qarşı mübarizəyə həsr olunub**




Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.

Zirvə görüşünün iştirakçılarını salamlayan **Prezident İlham Əliyev dedi:**

– Hörmətli Zirvə görüşünün iştirakçıları. Mən sizi səmimiyyətlə salamlayıram. Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşü qlobal pandemiyaya - koronavirus xəstəliyinə qarşı mübarizəyə həsr olunmuşdur.

Zirvə görüşünün gündəliyi üzv dövlətlərlə razılaşdırılmışdır. Etiraz yoxdursa, Zirvə görüşünün gündəliyi qəbul olunur.

Mən Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19-la mübarizəyə həsr olunan onlayn Zirvə görüşünü açıq elan edirəm.

Dövlətimizin başçısı Zirvə görüşündə giriş nitqi söylədi.

## Prezident İlham Əliyevin giriş nitqi




– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli BMT Baş Assambleyasının sədri.

Hörmətli beynəlxalq təşkilatların rəhbərləri.

Zati-aliləri.

Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, Hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdür.

Təqdirəlayiq haldır ki, Qoşulmama Hərəkatının bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəkləmişdir. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşdur.

Zirvə görüşündə iştirakına görə Təmas Qrupuna daxil olan dövlətlərə təşəkkürümü bildirirəm.

Mən, eyni zamanda, Zirvə görüşünə qatılan BMT Baş Assambleyasının sədrinə, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoruna və Afrika İttifaqının Komissiyasının sədrinə öz minnətdarlığımı ifadə etmək istərdim.

BMT Baş katibi cənab Antonio Quterreşə və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelə videomüraciətinə görə təşəkkürümü bildirirəm.

2019-cu il oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi və Bakı Yekun Sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapdı. Eyni zamanda, bu sənədlərdə 65 illiyi bu günlərdə qeyd edilən Bandunq prinsiplərində yer alan dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. 120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm.

Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlamış və praktiki fəaliyyətə başlamışdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya vermişdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir.

COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

BMT Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal humanitar cavab planının elan edilməsini, BMT Baş Assambleyasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət müraciətimiz əsasında mart ayında ölkəmizə səfər edərək vəziyyətlə tanış olmuşdur. Azərbaycana göstərdiyi dəstəyə və Zirvə görüşümüzdə iştirakına görə doktor Tedros Adhanom Qebreyesusa təşəkkürümü bildirirəm. Bu, Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə görüşüdür. Sədri olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının mənim təşəbbüsüm ilə aprelin 10-da COVID-19-a qarşı Zirvə görüşü keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru həmin Zirvə görüşündə də iştirak etdi və dəyərli tövsiyələrini verdi.

Qoşulmama Hərəkatının "Ümumdünya Səhiyyə Təşkilatı və onun Baş direktoruna dəstək" adlı 9 aprel tarixli bəyanatını məmnuniyyətlə qeyd etmək istərdim.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru tərəfindən martın 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Azərbaycan dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırdı.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçirmişdir. Mənim Sərəncamımla ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır.

Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir.

Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılmışdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir.

Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmışdır. Virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibb avadanlığı və ləvazimatlar Azərbaycana gətirilmişdir. Testlərin aparılması üçün ölkədə 23 laboratoriya fəaliyyət göstərir. İndiyə kimi ölkə üzrə 160 mindən artıq test keçirilmişdir.

Daxili tələbatı ödəmək üçün qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanmışdır.

Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Son üç həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir daha həkimlərimizin peşəkarlığının şahidi olmuşuq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır.

Əhali arasında virusa yoluxma sürətinin aşağı düşməsini, xəstələrin sağalma dinamikasını nəzərə alaraq, xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. Xüsusi karantin rejimi mayın 31-nə qədər uzadılsa da, tətbiq edilən bir sıra məhdudiyyətlər aprelin 27-si və mayın 4-dən etibarən yumşaldılıb.

Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur.

Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və

qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq iki ay ərzində vəsait ödənilir.

İşsiz şəxslərin sosial müdafiəsi üçün ilin sonuna qədər 90 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur.

Banklar tərəfindən sahibkarlara yeni verilən kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir.

Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üçün vergi güzəştləri və vergi tətilləri ediləcəkdir.

Bütün bunlar atılan addımların yalnız bir hissəsidir. Ümumiyyətlə, dövlətin həyata keçirdiyi tədbirlərə vətəndaşlarımız tərəfindən çox yüksək qiymət verilir.

Hörmətli həmkarlar, pandemiya şəraitində ölkələrimiz arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacibdir. Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilmişdir. Onlarla ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynamışdır. Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

Eyni zamanda, tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş təcrübənin, məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

Zirvə görüşünün təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcəkdir. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim ediləcəkdir.

Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait bizimlə razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatı BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycanın sədrliyi dövründə birgə səylərimizlə Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunu, beynəlxalq aləmdə oynadığı rolunu artırmaq əzmindəyik. Ölkələr arasında dostluq, həmrəylik və qarşılıqlı dəstək xüsusi rol oynayır.

Razılığınız olarsa, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edə bilərik.

Hamımız üçün bu çətin dövrdə mən bir daha bütün dövlətləri dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə dəvət edirəm.

Diqqətinizə görə minnətdaram.

***

Prezident İlham Əliyev çıxış etmək üçün sözü ardıcıllıqla BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bandeyə, BMT-nin Baş katibi Antonio Quterreşə, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusa, Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamata, Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelinə verdi.

Natiqlər çıxış etdilər.

***

Sonra Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbun, Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, İndoneziya Respublikasının Prezidenti Coko Vidodo, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd uld Qazuani, Nikaraqua Respublikasının Prezidenti Daniel Orteqa, Nigeriya Federativ Respublikasının Prezidenti Muhammadu Buhari, Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi, Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas, Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Qotabaya Racapaksa, Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhan, Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosa, Toqo Respublikasının Prezidenti Faure Qnassinqbenin müraciətini oxuyan bu ölkənin Səhiyyə və İctimai Gigiyena naziri Mustafa Mljiyava, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro, Zimbabve Respublikasının Prezidenti Emmerson Mnanqaqva, Namibiya Respublikasının

Vitse-prezidenti Nanqolo Mbumba, Belarus Respublikasının Baş Naziri Sergey Rumas, Efiopiya Federativ Demokratik Respublikasının Baş Naziri Abiy Əhməd, Hindistan Respublikasının Baş Naziri Narendra Modi, Malayziyanın Baş Naziri Muhiddin Yassin, Nepal Federativ Demokratik Respublikasının Baş Naziri Şarma Oli, Vyetnam Sosialist Respublikasının Baş Naziri Nquyen Xuan Fuk, Bəhreyn Krallığının Baş Nazirinin müavini Şeyx Məhəmməd Bin Mübarək Əl Xəlifə, Banqladeş Xalq Respublikasının Xarici İşlər naziri Abdul Momen, Qambiya Respublikasının Xarici İşlər naziri Mamadou Tanqara, Qana Respublikasının Xarici İşlər və Regional İnteqrasiya naziri Şirli Ayorkor Botçvey, Küveyt Əmirliyinin Xarici İşlər naziri Əhməd Nasir Əl-Məhəmməd Əl-Sabah, Mavriki Respublikasının Xarici İşlər naziri Nankoomar Bodha, Mərakeş Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Nasser Bourita, Uqanda Respublikasının Xarici İşlər naziri Sam Kahamba Kutesa, İordaniya Haşimilər Krallığının Baş Nazirlik üzrə Dövlət naziri Sami Davud çıxış etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşünə yekun vurdu.

## Prezident İlham Əliyevin yekun çıxışı

– Mən bütün çıxışçılara təşəkkür edirəm. Gündəliyimizin növbəti müddəasına keçirik. Bu da Yekun Bəyannaməmizin qəbul edilməsidir. Bəyannamə artıq razılaşdırılıb. Bu səbəbdən Bəyannaməni bununla da qəbul olunmuş hesab edirik. Konstruktiv iştiraka və Bəyannamənin qəbulunda göstərdiyiniz münasibətə görə təşəkkür edirəm.

Hörmətli tədbir iştirakçıları, bizim dəvətimizi qəbul edərək Zirvə görüşündə iştirak etdiyinizə görə sizin hamınıza bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir.

Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır.

Əminəm ki, bu gün dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir.

Eyni zamanda, bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması məqsədilə pandemiyadan sonrakı dövr üçün iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız faydalı olardı.

Zirvə görüşü Qoşulmama Hərəkatının digər beynəlxalq təsisatlar və dünya birliyi ilə əməkdaşlığa hazır olduğunu göstərdi. Hesab edirəm ki, müzakirələrimiz həm də Təmas Qrupu formatının səmərəli bir mexanizm olduğunu nümayiş etdirdi. Gələcəkdə Təmas Qrupunun tematik alt işçi qrupları da təsis edilə bilər.

Bir daha əminliyimi bildirmək istərdim ki, biz birlikdə pandemiyaya qalib gələcəyik.

Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşünü bağlı elan edirəm. Təşəkkür edirəm.

***

Qeyd edək ki, Qoşulmama Hərəkatında 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq, Zirvə görüşü coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında keçirilib.

Xatırladaq ki, 2019-cu il oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanda keçirilib. Üzv dövlətlərin yekdil dəstəyi və razılığı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatının sədrliyini Azərbaycan Respublikası öz üzərinə götürüb. Çoxtərəfli diplomatiyanın təşviq edilməsi, Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin prioritetlərindən biri kimi müəyyən edilib.

Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə bu il aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü də keçirilib. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirib. Qeyd olunan tədbirlər qlobal səviyyədə beynəlxalq həmrəyliyin daha da möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli töhfədir.

Beləliklə, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfəsini verir.

# Ümumdünya Səhiyyə Təşkilatı COVID-19-a qarşı mübarizədə Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirib

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.

Məktubda Baş direktor COVID-19-a qarşı mübarizədə qabaqlayıcı tədbirlər həyata keçirdiyi üçün Azərbaycan Hökumətinin gördüyü işləri yüksək qiymətləndirib. Eyni zamanda, o, Azərbaycan Respublikası Prezidentinin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyini nümunəvi adlandırıb və bunun Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş ardıcıl tədbirlər zamanı aydın şəkildə özünü büruzə verdiyini xüsusilə qeyd edib.

ÜST-nin Baş direktoru 2020-ci il aprelin 10-da Prezident İlham Əliyevin sədrliyi ilə COVID-19-la bağlı Türk Şurasının videokonfrans formatında keçirilmiş fövqəladə Zirvə görüşünün əməkdaşlığı daha da gücləndirdiyini və hər iki təşkilat arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini bildirib.

Qoşulmama Hərəkatının videokonfrans formatında təşkil olunan Zirvə görüşünə toxunan T.Qebreyesus tədbirin çox uğurla keçirilməsinə görə Azərbaycan Respublikasının Prezidentini təbrik edib və bunu mükəmməl bir təşəbbüs adlandırıb. O, Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilmiş tədbirdə qəbul edilmiş yekun bəyannaməyə uyğun olaraq Hərəkata üzv dövlətlərin əsas ehtiyaclarını özündə ehtiva edən məlumat bazasının işlənib hazırlanması istiqamətində İşçi Qrupun yaradılmasının nəzərdə tutulduğunu bildirib və ÜST-nin İşçi Qrupun səylərini dəstəkləməyə hazır olduğunu qeyd edib.

Eyni zamanda, T.Qebreyesus COVID-19-un səbəb olduğu təhdidlərlə mübarizədə qlobal, regional və ölkə səviyyəsində ÜST-nin Azərbaycanla əməkdaşlığa hazır olduğunu bildirib.

Yekunda ÜST-nin Baş direktoru Azərbaycan Respublikasının Prezidentinə dərin hörmətini və ehtiramını çatdırıb.

# Prezident İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edib

## Prezident İlham Əliyev: “9 May bizim böyük qələbə günümüzdür”



Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 75 il keçir.

Bu münasibətlə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhramanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici əhəmiyyət kəsb edib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Böyük Vətən Müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Amma 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramını ləğv etmişdi və veteranlar mənəvi terrora məruz qalmışdılar. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları “xalqımızın qızıl fondu” adlandırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, 9 may - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Böyük Vətən Müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərən qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır və 75 il keçsə də onların qazandığı tarixi Qələbə öz əhəmiyyətini itirmir.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Ulu Öndər Heydər Əliyev: "Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam"**



Mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarı önünə gül qoydular, Ulu Öndərin xatirəsini ehtiramla andılar.

Sonra dövlətimizin başçısı və xanımı Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Prezident və birinci xanım görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzdülər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu böyük insan öz əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli döv-




lət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", – deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", – deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz əməllərində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas məzmunu isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə ağac əkib

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyət yaxşılaşdırılır**



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər.

Dövlət başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların



sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir. Ölkəmizdə bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.

Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir



göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıb. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülən işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıb.

Burada icra olunan layihənin birinci mərhələsində - 2018-2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilməklə geniş meşə-park salınıb. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, Həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac kol növlərinə aid, ümumilikdə, 82 min tingin





əkilməsi planlaşdırılır. Layihənin icrası Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şosesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaq.

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

**28 May – Respublika Günü**




Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Dövlət başçısı abidənin önünə gül dəstəsi qoydu.

Yüz iki il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.

# Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik**

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər Uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm.

Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 may 2020-ci il.

# Milli Məclisdə Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyi dəstəklənib

### Kamran Əliyev Baş prokuror vəzifəsinə namizəd kimi Milli Məclisdə çıxış edib

Mayın 1-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.




İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova gündəlik barədə məlumat verib.

Əvvəlcə iclasda "Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin edilməsinə razılıq verilməsi haqqında" məsələ müzakirə edilib.

İclasda iştirak edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Prezidenti İlham Əliyevin təqdimatına əsasən, Baş prokuror vəzifəsinə Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyevin namizədliyinin irəli sürüldüyünü bildirib. Namizədin bioqrafiyası haqqında məlumat verən Ədalət Vəliyev Kamran Əliyevin fəaliyyətinin dövlət tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.



Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qeyd edib ki, bu illər ərzində Milli Məclislə Baş Prokurorluq arasında sıx əməkdaşlıq olub. O deyib ki, Kamran Bayram oğlu Əliyevin namizədliyini Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclasında komitənin üzvləri dəstəkləyərək müsbət rəy veriblər. Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyinin irəli sürülməsi hüquq ictimaiyyəti tərəfindən də müsbət qarşılanır.

Sonra səsvermə yolu ilə Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyi dəstəklənib.

İclasda iştirak edən Kamran Əliyev çıxış edərək deyib:

Hörmətli xanım sədr! Hörmətli millət vəkilləri!

İlk olaraq yüksək etimad göstərərək mənim bu mühüm vəzifəyə təyin olunmağımla bağlı təqdimatla çıxış etdiyinə görə Azərbaycan Respublikasının siyasi rəhbərliyinə, şəxsən möhtərəm cənab Prezident İlham Əliyevə, eləcə də bu təqdimatı dəstəklədiyinizə görə sizlərə öz dərin təşəkkürümü bildirirəm.

Fürsətdən istifadə edərək ölkəmizin siyasi həyatı üçün olduqca önəmli hadisələrdən biri olmuş bu ilin fevral ayının 9-da keçirilmiş demokratik və şəffaf seçkilər nəticəsində Milli Məclisə deputat seçilməyiniz münasibəti ilə hər birinizi və xanım Sahibə Qafarova, Sizi Milli Məclisin sədri seçilməyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə Sizə uğurlar arzu edirəm!



Hörmətli millət vəkilləri!

Azərbaycan Respublikası müstəqillik illərində çətin və şərəfli inkişaf yolu keçmişdir. Müasir Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi dühası sayəsində ölkəmiz müstəqilliyinin ilk illərində qarşılaşdığı ağır böhrandan xilas olmuş, iqtisadi inkişaf, demokratik və hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuşdur.

Ümummilli Lider Azərbaycan dövlətçiliyinin ideoloji, siyasi əsaslarını təsis etmiş, onun tərəqqi strategiyasını müəyyənləşdirmişdir. Məhz bu inkişaf konsepsiyasının yüksək əzmkarlıqla davam etdirilməsi Vətənimizin dinamik və dayanıqlı yüksəlişinə rəvac vermiş, möhtərəm cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən mütərəqqi daxili və xarici siyasət nəticəsində ölkəmizin dayanıqlı inkişafı təmin edilmiş, cəmiyyətimizdə sabitlik, hüquq qaydası və qanunçuluq bərqərar olmuş, Azərbaycan qazandığı sosial-iqtisadi nailiyyətlərlə nəinki regionda, həm də dünya müstəvisində qabaqcıl mövqelərə yüksəlmişdir.

Xalqın maraqları və təhlükəsizliyinin qorunması dövlət siyasətində prioritet olması hazırda dünyada tüğyan edən koronovirus pandemiyası fonunda özünü daha aydın büruzə verir. Prezident cənab İlham Əliyevin siyasi qətiyyəti və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəfqət və diqqəti sayəsində həyata keçirilmiş qabaqlayıcı tədbirlər öz bəhrəsini vermiş, Azərbaycanda epidemiyanın yayılmasının qarşısı alınmaqla, həssas əhali qrupları, eləcə də sahibkarlıq subyektləri tam həcmdə dövlət qayğısı ilə əhatə olunmuşdur.

Bütün bunlarla yanaşı hazırda ölkəmizdə iqtisadi və sosial inkişafı hədəfləyən, yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatlar reallaşdırılır ki, bu tədbirlərin nailiyyətlərinin möhkəmləndirilməsi məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlarla birbaşa sıx bağlıdır. İslahat və yenilənmə prosesi məhkəmə-hüquq sisteminin ən mühüm tərkib hissələrindən biri olan Azərbaycan Respublikasının Prokurorluğunu da əhatə edir.

Əsas vəzifəsi ölkəmizdə qanunların icra və tətbiq olunmasına nəzarət olan Azərbaycan Prokurorluğu daim ali dövlət rəhbərliyinin diqqət və qayğısını öz üzərində hiss etmişdir. Belə ki, müstəqil Azərbaycan Prokurorluğunun inkişafının əsasları Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmaqla, ötən illər ərzində həyata keçirilən çoxşaxəli islahatlar nəticəsində prokurorluq peşəkar kadr potensialı ilə komplektləşdirilmiş müasir orqana, insan hüquq və azadlıqlarının etibarlı təminatçısına, qanunçuluğun və dövlətçiliyin qorunmasında öz üzərinə düşən vəzifələri layiqincə icra edən müvəffəq quruma çevrilmişdir.

Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və hazırda davam etdirilən islahatlar bu yeni dövrdə Azərbaycan Prokurorluğu qarşısında yeni və olduqca mühüm vəzifələr qoyur. Bu kontekstdə Prokurorluğun qarşısında duran ümdə vəzifələri:

1. dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlərə qarşı mübarizənin kəsərinin artırılması, dövlətçiliyin daxili və xarici təhdidlərdən müdafiəsi;
2. cinayətkarlığın bütün növlərinə qarşı mübarizə və qanunçuluğun qorunmasında digər hüquq-mühafizə orqanları, o cümlədən, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə səylərin gücləndirilməsi;
3. vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsində prokurorluğun iştirakının genişləndirilməsi;
4. həm dövlət, həm də özəl sektorda korrupsiyanın bütün təzahür formalarına, eləcə də vəzifəli şəxslər tərəfindən törədilən cinayətlərə qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi;
5. hazırda ölkəmizdə reallaşdırılan sosial-iqtisadi inkişafa hədəflənən islahatlar kontekstində vergi və gömrük siyasətinin optimallaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması və sahibkarlığın hüquqi vasitələrlə dəstəklənməsi;
6. kölgə iqtisadiyyatına qarşı təsirli mübarizənin aparılması kimi mühüm strateji tədbirlərdə yaxından iştirak etmək;
7. məhkəmələrdə dövlət ittihamının müdafiə edilməsi işinin keyfiyyətcə yeni mərhələyə qaldırılması, balanslaşdırılmış cəza siyasətinə riayət edilməklə cəzanın məqsədlərinə nail olunmasında əsaslı dönüş əldə edilməsi;
8. beynəlxalq tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi və qabaqcıl beynəlxalq təcrübənin cari fəaliyyətimizdə tətbiqi.

Hörmətli millət vəkilləri!

Bu yüksək kürsüdən müraciət edərək, Azərbaycan Respublikasının Prezidentini, Birinci vitse-prezidentini, Sizləri və bütövlükdə Azərbaycan xalqını əmin etmək istərdim ki, bundan sonra da Azərbaycan Prokurorluğu öz fəaliyyətini göstərilən etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlər görəcək, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirərək cinayətkarlığa qarşı ciddi və səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsini təmin edəcək, dövlətimizə və xalqımıza ləyaqətlə xidmət edəcəkdir.

Diqqətinizə görə hər birinizə təşəkkür edirəm!

# Prezident İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edib

## Prezident İlham Əliyev Baş prokuror Kamran Əliyevə tapşırıqlarını verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edib.



**Prezident İlham Əliyev dedi:**

– Siz bu gün Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilirsiniz. Ümid edirəm ki, bu yüksək etimadı doğruldacaqsınız. Siz prokurorluq orqanlarında 30 ildən çoxdur ki, işləyirsiniz. Hələ sovet dövründən bu işə başlamısınız və son 6 il ərzində Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsində çalışırsınız. Ümid edirəm, əldə olunmuş təcrübə sizə imkan verəcək ki, prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və islahatların dərinləşməsi istiqamətində nəticələr əldə edilsin.

Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq.

Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin



bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir.

Eyni zamanda, iqtisadi islahatlar aparılmadan ölkəmizin dayanıqlı inkişafı mümkün deyil. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz post-neft dövrünə hazırlaşmalıyıq və əslində postneft dövrü artıq göz qabağındadır. Çünki neft bazarlarında müşahidə olunan böhran demək olar ki, neftlə zəngin olan bütün ölkələrin gəlirlərinə çox mənfi təsir göstərmişdir. Ona görə bizim əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu istiqamətdə əldə edilmiş nəticələr məhz islahatlara söykənir, aparılan islahatların nəticəsidir. Məhz şəffaflıq, dürüstlük və islahatlar nəticəsində keçən il büdcə daxilolmalarının həcmi proqnozdan əlavə bir milyard manat artmışdır və bu vəsait böyük dərəcədə imkan vermişdir ki, bir çox sosial layihələr icra edilsin. Bu ilin birinci rübünün yekunları göstərir ki, pandemiyaya baxmayaraq iqtisadi artım var. Düzdür, çox kiçik rəqəmlərlə ölçülür - 1,1 faiz. Ancaq bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə keçirdiyim görüş əsnasında məlum oldu ki, bir çox ölkələrdə indi iqtisadi tənəzzül müşahidə olunur. Bizdə də bu, istisna edilmir, çünki pandemiya ölkə iqtisadiyyatına çox böyük mənfi təsir göstərmişdir. Ancaq hər halda birinci rübün yekunları göstərir ki, iqtisadiyyat 1,1 faiz, qeyri-neft iqtisadiyyatımız isə 3 faizdən çox artmışdır. Bütün bunların əsas səbəbi aparılan islahatlardır və bu, bizə imkan verir ki, sosial sahədə çox genişmiqyaslı proqramlar icra edilsin, o cümlədən keçən il 4,2 milyon insanın sosial vəziyyəti yaxşılaşmış, minimum əməkhaqları, minimum pensiyalar, müavinətlər əhəmiyyətli dərəcədə artmışdır. Koronavirusa görə bu il bu istiqamətdə əlavə addımların atılması təmin edilmişdir. Bu addımlar bir daha göstərdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prokurorluq orqanları üçün də bu əsas məqsəd, həmişə, bütün işlərdə əsas amil kimi dəyərləndirilməlidir.

Kadr islahatları aparılır və bu islahatlar imkan verib ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə

çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksək keyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər. Belə olan halda təbii ki, hüquq mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir. Burada sizin üzərinizə böyük vəzifə düşür və ümid edirəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. İlk növbədə, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi başlıca şərtdir. Əfsuslar olsun ki, biz istədiyimizə hələ də tam nail olmamışıq, o cümlədən hüquq mühafizə orqanları tərəfindən qəbul edilmiş qərarlar bəzi hallarda qanunlara ziddir, sosial ədaləti pozur, insanları haqlı olaraq narazı salır və beləliklə ümumi işimizə böyük ziyan vurur. Bunun səbəblərindən biri qeyri-peşəkarlıq ola bilər, ancaq bəzi hallarda bunun arxasında hansısa maraqlar, şəxsi tənənna dayanır. Bu gün bütün hüquq mühafizə orqanlarının əməkdaşları və rəhbərləri məni eşidirlər. Mənim sözlərim onlar üçün əsas göstəriş olmalıdır ki, Azərbaycanda hüquq mühafizə sistemində islahatlar dərinləşsin və qanunun aliliyi təmin edilsin.

Kadrların peşəkarlığı da daim diqqət mərkəzində olmalıdır və siz bu məsələ ilə ciddi məşğul olmalısınız. Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsipləri də həmişə üstün olmalıdır. Çünki bu gün müstəqil dövlətimizin uğurlu yaşaması və möhkəmlənməsi, ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı olmalıdırlar, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır.

Digər vacib vəzifələrdən biri korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədir. Hesab edirəm ki, prokurorluq orqanları bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Bu xoşagəlməz hallara qarşı Azərbaycanda çox ciddi mübarizə aparılır. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bütün dövlət məmurlarını xəbərdar etmişdim və hətta demişdim ki, əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin.

Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir.

Eyni zamanda, bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olmuş, kasıb adamlara göndərilən yardımı özünə götürmüşdür. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olmuşdur. Yəni, bütün aidiyyəti qurumlar bir qayda olaraq hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olmuşlar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kim fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda, cəza tədbirləri də tətbiq olunur və tətbiq ediləcəkdir.

Ona görə bu dörd rayonda hansı ki, icra başçıları həbs olunub, orada işlər geniş təhlil edilməlidir. Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əllərindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etmişlər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Ona görə prokurorluq orqanları bu işlərdə fəal olmalıdırlar. Bu gün bu ağır dövrdə verilən ərzağı oğurlamaq, fəhlələrə nəzərdə tutulmuş maaşı öz cibinə qoyaraq mənimsəmək həm cinayətdir, həm böyük vicdansızlıqdır. Bu vəsaiti ayırırıq ki, bu gün özünə iş tapa bilməyən insan heç olmasa minimum əməkhaqqı səviyyəsində işlə təmin edilsin. Bunlar ictimai işlərdir və biz bu yolla insanları işlə təmin edirik. Əgər birinci mərhələdə təqribən 30

min iş yeri yaradılmışdırsa, hazırda mən göstəriş vermişəm ki, onların sayı 90 minə çatdırılsın. Ancaq birinci mərhələdə bu vəsaitin paylanılması icra başçıları tərəfindən həyata keçirilirdi. Burada mövcud olan nəzarətsizlik və korrupsiya halları bir çox insanları dövlət tərəfindən verilən bu yardımdan faktiki olaraq məhrum etmişdir. Bu, vicdansızlıqdır, buna başqa ad vermək olmaz. Artıq bu gün biz nəzarəti gücləndirmişik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də tapşırıq verildi ki, onlar bu işlərə də nəzarəti gücləndirsinlər. Ancaq buna baxmayaraq, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən yenə də həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Ona görə bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onlara həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyirlər. Hər gün bizim birinci və günün axırında sonuncu əsas işimiz bu məsələ ilə məşğul olmaqdır. Nə qədər adam xəstələndi, nə qədər adam sağaldı, neçə nəfər xəstəxanalara yerləşdirildi, onların vəziyyəti necədir, ağır vəziyyətdə olan vətəndaşların durumu, onların sağalma şansları necədir - biz gecə-gündüz bununla məşğul oluruq. Dövlət, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayırlar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər.

İndi dünya liderlərinin bir çoxu qeyd edir ki, pandemiya müharibədir. Bəli, mən bu tezislə razıyam. Əgər indiki şəraitdə bunlar özlərini belə aparırlarsa, bundan daha ağır vəziyyət yaranarsa, onda bunlar nə edəcəklər? Bunun bir adı var – vicdansızlıq və xəyanət. Ona görə bundan sonra bu ünsürlərə qarşı mübarizə daha ciddi aparılmalıdır.

Biz dövlət sektorunda işləyən 900 min insanın əməkhaqqını tam ödəyirik. 600 min özəl sektor nümayəndəsinin, o cümlədən mikrosahibkarın, - hansı ki, onların çalışdıqları sahələr pandemiyaya görə daha çox zərər çəkib, - əməkhaqqının əhəmiyyətli hissəsini ödəyirik. Aztəminatlı təbəqəyə aid olan 600 min insanın, o cümlədən işsizlərin və qeyri-formal məşğul olanların vəsaitini ödəyirik. Biz hər bir vətəndaşa kömək etmək istəyirik, hər bir vətəndaşa! İcra başçılarının, digər mərkəzi və yerli icra orqanlarının rəhbərlərinin vəzifəsi budur. Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır. Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə, - hələ bu siqnallar araşdırılır, - vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu, cinayətdir, bu, bizim cəmiyyətimizin əsaslarını sarsıdan addımlardır, çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam ilk növbədə neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək.

Biz bunu dəfələrlə görmüşük. Sadaladığım bu rayonlarda səhiyyə, təhsil, mədəniyyət sahəsində kütləvi şəkildə vətəndaşlardan, valideynlərdən, hər məktəb direktorundan pul yığılır. Rayon mərkəzi xəstəxanasının baş həkimindən icra hakimiyyətinə pul verilir. O da öz növbəsində bütün şöbələrdən hər ay haqq yığır. Bütün bələdiyyələr icra hakimiyyətinə aylıq pul verir. Biz bu hallara qarşı amansız mübarizə aparacağıq. Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur. Eyni zamanda, mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalıdır və qanunun aliliyini təmin etməlidir.

Ümid edirəm, sizin iş təcrübəniz və peşəkarlığınız imkan verəcək ki, mənim bu göstərişlərimin icrası təmin edilsin. Prokurorluq orqanlarının işçiləri bundan sonra da Vətənə ləyaqətlə xidmət etsinlər və bütün hüquq mühafizə orqanları elə çalışsınlar ki, həm vətəndaşlar, ictimaiyyət onların işindən razı olsun, eyni zamanda, dövlətin maraqları və qanunun aliliyi təmin edilsin.

Mən bu gün Sizi təyin edirəm və ümid edirəm ki, Siz bu yüksək etimadı doğruldacaqsınız.

**Baş prokuror Kamran Əliyev dedi:**

– Çox sağ olun, möhtərəm cənab Prezident. İcazə verin, əvvəlcə Sizə mənə böyük etimad göstərdiyinizə, məni bu mühüm dövlət postuna layiq gördüyünüzə, bu vəzifəyə təyin etdiyinizə görə dərin təşəkkürümü bildirim.

Prokurorluq orqanları doğrudan da dövlət quruculuğunda, dövlət idarəçiliyində çox mühüm bir orqandır. Prokurorluq orqanlarının dövlət idarəçiliyində yerini ulu öndər Heydər Əliyev müəyyən etmişdir. Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, prokurorluq dövlətin əsas sütunlarından biridir. Bu, doğrudan da belədir. Prokurorluq orqanları ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə daim əhatə olunmuşdur. Onun rəhbərliyi ilə müstəqil Azərbaycanın prokurorluğu mühüm inkişaf yolu keçmişdir. Məhz onun müvafiq Sərəncamı ilə prokurorluq orqanlarının – müstəqil Azərbaycan Prokurorluğunun peşə bayramını – 1 oktyabr gününü biz hər il qeyd edirik.

Möhtərəm cənab Prezident, Siz 2003-cü ildə Azərbaycan xalqı tərəfindən Prezident seçildikdən sonra prokurorluq orqanları yenə də daim diqqət və qayğınızla əhatə edilmişdir. Prokurorluq orqanlarında bu gün doğrudan da kifayət qədər çox peşəkar kadrlar, Vətənə, dövlətə xidmət edən, dövlətə sədaqətli kadrlar var. Bu, Sizin rəhbərliyinizlə prokurorluq orqanlarında həyata keçirilmiş mühüm islahatların nəticəsidir.

Sizin rəhbərliyinizlə digər sahələrdə həyata keçirilən islahatların prokurorluq orqanlarında da aparılması çox zəruridir. Siz ötən il məhkəmə-hüquq islahatları barədə müvafiq Fərman imzalamısınız və bu istiqamətdə işlər davam edir. Bu baxımdan hesab edirəm ki, məhkəmə-hüquq sisteminin tərkib hissəsi olan prokurorluqda islahatların aparılması xüsusi önəm kəsb edir.

Siz tamamilə düzgün qeyd etdiniz ki, hazırda - postneft dövründə həyata keçirilən islahatlar birinci növbədə əhalinin rifahının, hər bir Azərbaycan vətəndaşının gündəlik həyatının yaxşılaşmasına xidmət edir.

Prokurorluq orqanlarının fəaliyyət dairəsi doğrudan da genişdir. Prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri də təbii ki, ağır cinayətlərə, dövlətə, dövlətçiliyə qarşı yönələn bütün daxili və xarici təhdidlərə qarşı amansız mübarizə aparmaqdır. Bu sahədə təbii ki, prokurorluq orqanları digər dövlət qurumları ilə – həm Dövlət Təhlükəsizliyi Xidməti, həm Daxili İşlər Nazirliyi və digər müvafiq dövlət qurumları ilə birbaşa sıx əlaqədə işləməlidirlər.

Möhtərəm cənab Prezident, Siz korrupsiyaya qarşı mübarizə ilə bağlı xüsusi olaraq qeyd etdiniz. Azərbaycan Prezidenti seçildikdən sonra korrupsiyaya qarşı mübarizə Sizin həyata keçirdiyiniz islahatların, siyasətin ən mühüm tərkib hissəsi olmuşdur. Məhz həmin dövrdən Azərbaycan Respublikası bu sahədə bütün beynəlxalq təşəbbüslərə, həm Avropa Şurasının, həm Birləşmiş Millətlər Təşkilatının bu sahədə bütün mövcud konvensiyalarına qoşulmuş və bu sahədə institusional tədbirlər həyata keçirilmiş, müvafiq qurumlar yaradılmışdır. Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi də bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı kimi yaradılmışdır. Sizin 2013-cü ildə prokurorluğun peşə bayramı günü ərəfəsində Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etməyiniz tam əminliklə deyirəm ki, prokurorluq orqanlarında xüsusi olaraq ruh yüksəkliyi yaratmışdır. Sizin həmin vaxt gənc prokurorluq əməkdaşları qarşısında çıxışınız hər bir prokurorluq əməkdaşının bu gün də xatirindədir və onlar bunu daim böyük fərəh, qürur hissi ilə qeyd edirlər.

Biz prokurorluq orqanlarında islahatları davam etdirməliyik. Kadr islahatları doğrudan da çox vacib məsələdir və biz bu sahədə fəaliyyətimizi davam etdirəcəyik. Əgər zərurət yaranarsa təbii ki, prokurorluğun, həmçinin struktur qurumlarının fəaliyyəti təhlil edilməlidir. Hesab edirəm ki, biz bu sahədə də mütərəqqi addımlar atmalıyıq.

Sizin tapşırığınız və göstərişinizlə prokurorluq orqanları beynəlxalq qurumlarla daim əməkdaşlıq etmişdir. Həm beynəlxalq qurumlar və eyni zamanda, digər ölkələrin prokurorluq və antikorrupsiya orqanları ilə mütəmadi əlaqələr saxlanılmışdır. Təbii ki, bu iş Sizin siyasi iradənizə uyğun həyata keçirilmişdir. Siz prokurorluq orqanlarının əməkdaşları qarşısında çıxışınız zamanı qeyd etdiyiniz kimi, biz fəaliyyətimizdə ən qabaqcıl təcrübəni yalnız öyrənməklə kifayətlənməməli, eyni zamanda, gündəlik fəaliyyətimizdə tətbiq etməliyik.

Cənab Prezident, Siz koronavirus pandemiyası ilə bağlı qeyd etdiniz ki, bu, bir müharibədir. Azərbaycan dövləti Sizin rəhbərliyinizlə, Mehriban xanımın gündəlik diqqət və qayğısı sayəsində digər qabaqcıl ölkələrlə müqayisədə demək olar ki, bu böyük problemi artıq arxada qoymaq üzrədir. Ümid edirik ki, bu istiqamətdə işlər belə də davam edəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, məni bu çox məsul dövlət vəzifəsinə layiq bildiyiniz üçün Sizə bir daha dərin təşəkkürümü bildirim. Sizi tam əmin etmək istəyirəm ki, prokurorluq orqanları bundan sonra da daim Heydər Əliyev prinsiplərinə, dövlətə, dövlətçiliyə, öz xalqına xidmət edəcəkdir. Bir daha təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə uğurlar arzulayıram.

**Kamran Əliyev:** Çox sağ olun.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

**Kamran Bayram oğlu Əliyev** Azərbaycan Respublikasının Baş prokuroru təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 01 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## R.S.Usubovun Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. **Rüstəm Sabir oğlu Usubov** Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## N.Ə.Əsgərovun Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. **Namiq Əli oğlu Əsgərov** Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı prokurorluq işçilərinə "Əməkdar hüquqşünas" fəxri adı verilsin:

**Usubov Rüstəm Sabir oğluna**
**Əsgərov Namiq Əli oğluna.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## E.M.Məmmədovun Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. **Elçin Məmmədbağır oğlu Məmmədov** Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## E.H.Camalovun Azərbaycan Respublikası Baş prokurorunun müavini təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. **Elmar Heybət oğlu Camalov** Azərbaycan Respublikası Baş prokurorunun müavini təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## N.H.Rəcəbovun Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. **Nazim Hafiz oğlu Rəcəbov** Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 may 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## H.V.Məmmədovun Azərbaycan Respublikası Baş prokurorunun müavini təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. **Heydər Vidadi oğlu Məmmədov** Azərbaycan Respublikası Baş prokurorunun müavini təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 iyun 2020-ci il.

# Azərbaycanın yeni Baş prokuroru Kamran Əliyev kollektivə təqdim olunub




Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev və Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov yeni təyin olunmuş Respublikanın Baş prokuroru Kamran Əliyevi prokurorluğun kollektivinə təqdim etmişdir.

Təqdimat zamanı çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarına xüsusi diqqət və qayğısı, Kamran Əliyevin prokurorluq orqanlarındakı peşə fəaliyyəti barədə danışmış, Zakir Qaralovun prokurorluq orqanlarına rəhbərlik etdiyi dövrdə görülmüş işləri yüksək qiymətləndirmişdir.

Çıxışda prokurorluq orqanlarının ölkənin hüquq sistemində mühüm yeri qeyd edilməklə dövlət başçısı tərəfindən prokurorluq orqanlarının qarşısına qoyulmuş vəzifələrin icrası ilə bağlı məsləhət və tövsiyələr kollektivin diqqətinə çatdırılmışdır.

Tədbirdə iştirak edən Fuad Ələsgərov bildirmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilən daxili və xarici siyasət sayəsində ölkəmiz günbəgün inkişaf edir və daha da qüdrətlənir. Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində respublikanın hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında xüsusi yeri və rolu olan prokurorluq orqanları yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşmışdır.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev göstərilən ali etimada görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirərək qeyd etmişdir ki, ölkə başçısının müdrik rəhbərliyi altında doğma kollektivlə çiyin-çiyinə yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyin, qanunçuluğun və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasını təmin etməklə ölkəmizdə sabitliyi pozmaq istəyən qüvvələrə qarşı barışmaz mövqe nümayiş etdirəcəkdir.

Kamran Əliyev əminliyini bildirmişdir ki, vətənpərvərlik və peşəkarlıq irsi prokurorluq əməkdaşları tərəfindən daim uca tutulacaq, xalqa və dövlətə sədaqətlə xidmətin əsas prinsiplərini təşkil edəcəkdir.

Tədbirdə iştirak edən Zakir Qaralov ümummilli lider Heydər Əliyevin dövlətçilik prinsiplərinin prokurorluq orqanlarında daim rəhbər tutulduğunu xüsusi qeyd edərək fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirmişdir.

Çalışdığı müddət ərzində prokurorluq orqanlarına daim verilən yüksək qiyməti, göstərilmiş etimadı doğrultmağa, bu peşəni şərəflə daşımağa çalışdığını vurğulayan Zakir Qaralov son illər ərzində ölkənin məhkəmə-hüquq sistemində aparılan ciddi islahatların hüquq sistemində prokurorluğun rolunu artırmaqla qarşısına yeni vəzifələr qoyduğunu qeyd etmiş və sonda Kamran Əliyevə xidməti fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulamışdır.

**Baş Prokurorluq**

# Azərbaycan Respublikasının Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib



Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni təyin olunmuş Azərbaycan Respublikasının Baş prokurorunu qəbul edərkən prokurorluq orqanlarında islahatların dərinləşdirilməsi ilə bağlı bir sıra mühüm və fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş fundamental xarakterli tapşırıqlar müəyyən edib. Həmin tapşırıqların prokurorluq orqanlarının rəhbər şəxslərinə çatdırılması və onlardan irəli gələn qarşıda duran vəzifələrin icrası məqsədilə mayın 12-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə ölkə ərazisində qüvvədə olan xüsusi karantin rejimi qaydalarına riayət edilməklə videokonfrans rejimində keçirilmiş müşavirəyə Prokurorluğun Mərkəzi aparatının, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı Şəhər prokurorluqlarının rəhbər heyəti, rayon (şəhər) və ərazi hərbi prokurorları və digər şəxslər qatılıblar.

Əməliyyat müşavirəsində çıxış edən Baş prokuror göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya bir daha dərin təşəkkürünü ifadə edib. Qeyd olunub ki, Azərbaycan Prezidentinin hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi ilə həyata keçirilən mütərəqqi daxili və xarici siyasət nəticəsində ölkəmizin dayanıqlı inkişafı təmin edilib, cəmiyyətimizdə sabitlik, hüquq qaydası və qanunçuluq bərqərar olub, Azərbaycan dinamik inkişaf edən dövlətə çevrilib.

Bildirilib ki, dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq hazırda ölkəmizdə yeni dövrün çağırışla-



rından irəli gələn tam və hərtərəfli islahatlar reallaşdırılır və dövlət idarəçiliyinin bütün sferalarında mütərəqqi kompleks tədbirlər həyata keçirilir. Bu islahatların əsas istiqamətlərindən birini təşkil edən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi Azərbaycan Prokurorluğunu da əhatə etməli, islahatların geniş vüsət aldığı hazırkı şəraitdə prokurorluq orqanları da öz fəaliyyətini yenidən nəzərdən keçirməli və dövrün tələblərinə uyğun şəkildə təşkil etməlidir.

Qarşıda mühüm vəzifələrin dayandığı xüsusi qeyd edilərək prokurorluq orqanlarında bir sıra struktur dəyişikliklərinin və kadr islahatlarının həyata keçirilməsinin zəruriliyi diqqətə çatdırılıb. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri üzrə görülən tədbirlərin kəsərliliyinin artırılması, prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüş yaradılması, iş yükünün əsassız olaraq artırılmasına, bürokratizmə və lüzumsuz sənəd dövriyyəsinə gətirib çıxaran təcrübə və müddəaların aradan qaldırılması, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından daha geniş istifadə etməklə cari fəaliyyətin səmərəliliyinə və operativliyinə nail olunması, müasir və mütərəqqi standartların tələblərinə əməl edilməklə şəffaflığın ən yüksək səviyyədə təmini diqqət mərkəzində saxlanılmaqla, həyata keçiriləcək islahatların son nəticədə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qalxmasına və qanunla icrası prokurorluğun üzərinə qoyulmuş vəzifələrin daha çevik yerinə yetirilməsinə xidmət edəcək əsas tələblər kimi müəyyənləşdirilib.

Tədbirdə çıxış edən müşavirə iştirakçıları prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini səsləndirib, faydalı müzakirələr və fikir mübadiləsi aparılıb.

Əməliyyat müşavirəsində qarşıda duran vəzifələrin icrası ilə bağlı müfəssəl Fəaliyyət Planı qəbul olunub və onun qısa müddətdə icraya yönəldilməsi aidiyyəti idarə rəhbərlərindən tələb edilib.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Prokurorluğunun kollektivi öz fəaliyyətini göstərilən etimada layiq səviyyədə qurmaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcək.

**Baş Prokurorluq**

# Baş prokurorun yeni birinci müavini və müavinləri kollektivə təqdim olunub



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 21 may 2020-ci il tarixli Sərəncamlarla Baş prokurorun birinci müavini Rüstəm Usubov və Baş prokurorun müavini Namiq Əsgərov tutduqları vəzifədən azad edilmişlər.

Dövlət başçısının imzaladığı digər sərəncamla Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə onlara "Əməkdar hüquqşünas" fəxri adı verilmişdir.

Dövlət başçısının imzaladığı sərəncamlarla Elçin Məmmədov Baş prokurorun birinci müavini, Elmar Camalov müavini, Nazim Rəcəbov isə Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifələrinə təyin edilmişlər.

Mayın 21-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi Aparatın rəhbər heyətinin iştirakı ilə yeni təyin olunmuş Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini Elmar Camalov, Baş prokurorun müavini - Baş




prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov kollektivə təqdim edilmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə prokurorluq orqanlarına göstərdiyi gündəlik diqqət və qayğıya görə təşəkkürünü bildirərək prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rüstəm Usubov və Namiq Əsgərova “Əməkdar hüquqşünas” fəxri adının verilməsinin dövlət başçısı tərəfindən Azərbaycan Prokurorluğuna verilən yüksək qiymətin göstəricisi olduğunu xüsusi vurğulamaqla yeni təyin olunmuş şəxslərə gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Tədbirdə iştirak edən Rüstəm Usubov və Namiq Əsgərov fəaliyyətlərinə verilən yüksək qiymətə görə dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür etmiş, xidmət illəri ərzində xalqa və dövlətə sədaqət prinsiplərini rəhbər tutduqlarını, vətənpərvərlik və peşəkarlıq irsinin daim uca tutulduğu prokurorluq orqanlarında xidmət etməkdən şərəf duymalarını ifadə etmişlər.

Göstərilən yüksək etimada görə Elçin Məmmədov, Elmar Camalov və Nazim Rəcəbov dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edərək fəaliyyətlərində şəffaflıq və dürüstlük prinsiplərinin daim uca tutacaqlarını diqqətə çatdırmışlar.




Dövlət başçısının imzaladığı sərəncamla Heydər Məmmədov yeni təsis edilən Baş prokurorun müavini vəzifəsinə təyin edilmişdir. Yeni təyin olunmuş Baş prokurorun müavini Heydər Məmmədov iyunun 12-də kollektivə təqdim edilmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev dövlət başçısı tərəfindən savadlı gənclərə daim dəstək göstərildiyini bildirərək, Heydər Məmmədovun nəzəri bilikli və yüksək peşəkar bacarıqlara malik olduğunu xüsusi vurgulamış və gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Heydər Məmmədov tədbirdə çıxış edərək göstərilən yüksək etimada görə dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür etmiş, fəaliyyətində şəffaflıq və dürüstlük prinsiplərini əsas tutaraq xalqa və dövlətə sədaqətlə xidmət edəcəyini bildirmişdir.

**Baş Prokurorluq**

# Prokurorluq orqanlarında struktur islahatları aparılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi məqsədilə bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sistemində də uğurla davam etdirilir.

Dövlət orqalarında idarəetmənin təkmilləşdirilməsi, işin səmərəliliyinin artırılması istiqamətində aparılan islahatlar bu sahədə dövlət siyasətinin həyata keçirilməsində çeviklik və dinamikliyin artmasına əlverişli imkanlar yaratmışdır.

Həmin islahatların davamı kimi, dövlət başçısının göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanılmış, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan islahatların reallaşdırılması istiqamətində mühüm işlər görülür.

Prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar formalaşdırılması məqsədilə Prezident cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmişdir.

Sərəncamla Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, idarəetmədə nəzarət mexanizminin optimallaşdırıması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilmiş, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı şəhər prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılmışdır.

Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis edilmiş, bundan başqa mərkəzi aparatın yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, eləcə də prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə kadr korpusunun sağlam mənəviyyata və yüksək peşəkarlığa malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

Dövlət başçısının imzaladığı sərəncamla Heydər Məmmədov Baş prokurorun müavini, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Nemət Əvəzova yeni yaradılmış Baş Prokurorluğun İstintaq idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilmiş, Natiq Abdullayev Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi, Elşən Abbasov Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi, Natiq Hüseynov Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi, Kamal Qılıcov Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsinin rəisi, Murad Dadaşov Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi, Anar Məmmədov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, Sərdar İmanov isə Xətai rayon prokuroru vəzifələrinə təyin edilmişlər.

Həmçinin, uzun illər Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri işləmiş Eldar Sultanov tutduğu vəzifədən azad edilərək Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi vəzifəsinə təyin edilmiş, Günay Səlimzadəyə isə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri vəzifəsinin icrası həvalə edilmişdir.

Baş prokurorun növbəti imzaladığı müvafiq əmrlərlə Elnur Musayevə yeni yaradılmış Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilmiş, Ramil Məcidov Baş Prokurorluğun Dövlət Təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi, Aynur Osmanova Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları idarəsinin rəisi, Ceyhun Kazımov yeni yaradılmış Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi, Erkin Əlixanov yeni yaradılmış Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi, Vüqar Əliyev isə yeni yaradılmış Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi vəzifələrinə təyin edilmişlər.

Baş prokurorun imzaladığı digər əmrlərlə Fərid Nağıyevə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilmiş, Zamir Mahmudov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəisi, Kamal Talıbov Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin rəisi-idarə rəisinin müavini, Mehman Hümmətov Baş Prokurorluğun İstintaq idarəsinin rəis müavini, İsfəndiyar Hacıyev Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini, Əmir Ocaqverdiyev isə Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini vəzifələrinə təyin edilmişlər.

Prokurorluq orqanlarında struktur islahatlarının həyata keçirilməsi və kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

**Baş Prokurorluq**

# Baş prokuror Kamran Əliyev Litva Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Eqidiyus Navikasu qəbul edib



İyunun 11-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Litva Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Eqidiyus Navikasla görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror ilk növbədə, hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, yeni informasiya texnologiyalarının tətbiqinə əsaslanan qabaqcıl təcrübənin tətbiq olunması, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan köklü kadr və struktur islahatlarının reallaşdırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir.

Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində aparılan tədbirlərdən danışan Baş prokuror Avropa İttifaqının Azərbaycan hökumətinin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdikləri tədbirləri alqışladığını və Litva Respublikasının hüquq mühafizə orqanları ilə mövcud səmərəli ikitərəfli hüquqi əməkdaşlıqdan məmnunluğunu ifadə etmişdir.

Görüşdə 2009-2011-ci illər ərzində Avropa İttifaqının “Twining” layihəsi çərçivəsində Litvanın Xüsusi İstintaq İdarəsi və Azərbaycan Prokurorluğu arasında “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə dəstək” layihəsini xatırladan Kamran Əliyev Tvininq layihəsi çərçivəsində əməkdaşlığın Avropa strukturlarına inteqrasiya istiqamətində mühüm nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynadığını xüsusi vurğulamışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Edigiyus Navikas ikitərəfli münasibətlərə toxunaraq, təmsil etdiyi ölkənin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini qeyd etmişdir. Səfir ölkələrimizin prokurorluq orqanları arasında faydalı əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunmuş, faydalı fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Baş prokuror Kamran Əliyev Amerika Birləşmiş Ştatlarının səfiri Örl Litzenbergeri qəbul edib



İyunun 18-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Örl Litzenbergerlə görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla ABŞ arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışmışdır.

Kamran Əliyev Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluqda aparılan genişmiqyaslı islahatlardan söhbət açaraq, beynəlxalq təhlükəsizlik və terrorizmə qarşı mübarizədə dövlətimizin göstərdiyi səyləri, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən institusional və cinayət təqibi tədbirlərini qeyd edərək, Baş Prokurorluğun insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi, həmçinin mütəşəkkil cinayətkarlığın digər ağır formaları ilə mübarizə sahəsində beynəlxalq qurumlarla, o cümlədən digər ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Örl Litzenberger ikitərəfli münasibətlərə toxunaraq ABŞ-ın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə







və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulamış, ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiqləmiş və hər zaman Azərbaycan dövlətini dəstəklədiyini bildirmişdir.

Səfir prokurorluq əməkdaşlarının peşə bacarıqlarının artırılmasında ABŞ-ın hər cür dəstək göstərməyə hazır olduğunu qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunmuş, faydalı fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Baş prokuror Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniqi qəbul edib



İyunun 24-də Baş prokuror Kamran Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqi qəbul edib.

Qonaqları salamlayan Baş prokuror ölkələrimiz arasında dərin tarixi köklərə malik münasibətlərin inkişafından söhbət açmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları barədə geniş məlumat vermişdir.

Kamran Əliyev dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışaraq cinayətkarlıqla mübarizədə, xüsusən də korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla, habelə Avropa ölkələrinin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın əhəmiyyətini vurğulamaqla prokurorluq əməkdaşlarının ümumi peşə hazırlığının artırılması və təcrübə mübadiləsinin aparılması məqsədi ilə tərəfdaş ölkələrin, o cümlədən Almaniyanın dövlət qurumları və təhsil müəssisələri ilə ikitərəfli əlaqələrin inkişafına böyük önəm verildiyini qeyd etmişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Volfqanq Maniq ölkəmizdə görülən işləri, aparılan məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirmiş, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yaranmış yeni idarələrin fəaliyyət istiqamətləri, habelə prokurorluq orqanlarına qəbul proseduru, gənc prokurorluq əməkdaşlarının peşə hazırlığı səviyyələrinin artırılması məsələləri ilə dərindən maraqlanaraq, xalqlarımız və ölkələrimizin






mənafeləri, ikitərəfli münasibətlərin inkişafı naminə, habelə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq orqanları ilə əməkdaşlıq istiqamətində münasibətlərin inkişaf edəcəyinə səylərini əsirgəməyəcəyini vurğulamışdır.

Görüşdə maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumatın verilməsi təmin edilməklə, bir sıra digər məsələlər müzakirə edilmiş, faydalı fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Baş prokuror Kamran Əliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sesseranı qəbul edib



İyunun 30-da Baş prokuror Kamran Əliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera ilə görüşmüşdür.

Qonaqları salamlayan Baş prokuror Beynəlxalq Qızıl Xaç Komitəsinin zəngin tarix və ənənələrə malik olması, Komitə ilə ölkəmiz arasında inkşaf edən qarşılıqlı əlaqələr barədə söhbət açmış, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluqda aparılan genişmiqyaslı islahatlar nəticəsində struktur dəyişikliyi ilə əlaqədar yaranmış yeni idarələrin fəaliyyət istiqamətləri barədə məlumat vermişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən xanım Elena Aymone Sessera ikitərəfli münasibətlərə toxunaraq Azərbaycanla münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulamış, ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişədən əziyyət çəkmiş Azərbaycan vətəndaşlarına humanitar yardım göstərilməsi, cəbhəboyu ərazilərdə yaşayan mülki şəxslərin təhlükəsizliyi, fiziki və psixoliji sağlamlıqları, itkin düşmüş şəxslərin taleyləri ilə əlaqədar Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı fəaliyyəti, həyata keçirdiyi layihələr, aparılan mühüm işlər, o cümlədən Covid-19 pandemiyası ilə əlaqədar keçirdikləri təlimlər barədə məlumat verərək, ikitərəfli münasibətlərin inkişafı naminə, habelə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq orqanları ilə əməkdaşlıq istiqamətində münasibətlərin daha da inkişaf edəcəyinə səylərini əsirgəməyəcəyini vurğulamışdır.

Görüşdə maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumatın verilməsi təmin edilməklə, bir sıra digər məsələlər müzakirə edilmiş, faydalı fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Azərbaycana fəda edilmiş şərəfli ömür

*"Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm."*

**Heydər Əliyev**
**Azərbaycan Xalqının Ümummilli Lideri**

*"Heydər Əliyevin siyasəti yaşayır, onun ideyaları, fəlsəfəsi, ideologiyası yaşayır, qurduğu, yaratdığı müasir Azərbayacan yaşayır və onun yolu ilə inkişaf edir.".*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**1. Zəngin və mənalı həyat**

Tanrı verən ömrü hər kəs bir cür, kimi özü üçün, kimi doğmaları və əzizləri üçün, kimi isə milləti, xalqı, vətəni və dövləti üçün yaşayır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, vətəninə və dövlətinə həsr etmişdir. Millətini canından artıq sevən ulu öndərə olan sonsuz xalq məhəbbətinin sirri də məhz elə budur. Viktor Mari Hüqo demişdir: "Əsl insanın vəzifəsinin yarısı vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir.". Tükənməz millət sevgisinin nəticəsidir ki, müstəsna xidmətləri ilə Azərbaycanın taleyində misilsiz rolu olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı, ölkəmizi sürətli inkişaf yoluna çıxarmaqla dünya birliyinə qovuşdurmuş dünya şöhrətli nəhəng siyasətçi-Heydər Əliyevin doğum günü hər il respublikamızda, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda böyük təntənə ilə qeyd olunur, əbədiyaşar liderimizin parlaq xatirəsi dərin ehtiramla yad edilir.

10 may 1923-cü il tarixdə dünyaya gələn dahi insan Heydər Əliyev hələ uşaq vaxtlarından fitri istedadı, bacarığı, təhsilə olan marağı, davranışı, yeniyetmə dövründən isə nəzəri bilikləri, aydın nitqi, cəsarəti ilə həmyaşıdlarından seçilməklə bərabər, həyata baxışı, milli-mənəvi dəyərlərə bağlılığı, vətənpərvərliyi və digər qeyri-adi müsbət cəhətləri ilə diqqət cəlb edirdi. Eyni zamanda o, istiqanlılığı, səmimiliyi, mehribanlığı, dürüstlüyü, dəqiqliyi və digər məziyyətləri ilə onu tanıyan hər bir kəsin rəğbətini qazanırdı. Bütün bu yüksək insani keyfiyyətlər Heydər Əliyevi elə gənc yaşlarından kamil insan, dəyərli vətəndaş, ziyalı, bir sözlə əsl şəxsiyyət kimi formalaşdırır və onun cəmiyyətdəki rolu getdikcə daha da artırdı. Cavan olmasına rəğmən, həyatın gərdişini dərindən dərk edən Heydər Əliyev 1944-cü ildə bir çox insanın arzusunda olduğu, fəqət hər insanın müvəffəq ola bilmədiyi, yalnız hərtərəfli püxtələşmiş şəxslərin əldə edə biləcəyi uğura imza atmaqla dövlət təhlükəsizliyi orqanlarına qulluğa qəbul olunur və dəyərli ömrünün 25 ilini həmin orqanda ləyaqətlə xidmət keçir. Zəngin elmi, geniş dünyagörüşü, yüksək mənəvi-əxlaqi keyfiyyətləri, peşə biliklərini mükəmməl qavraması, təşəbbüskarlığı, mübarizliyi, fenomenal yaddaşı, işə vicdanlı münasibəti, nümunəvi xidməti, prinsipiallığı və mahir idarəçilik qabiliyyəti Heydər Əliyevin uğurlarının davamlılığını şərtləndirir, müxtəlif mükafatlarla təltif olunan, eləcə də ardıcıl olaraq vəzifədə irəli çəkilən ulu öndər 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəlir və elə həmin ildə də ona general-mayor ali hərbi rütbəsi verilir. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə uzun onilliklərdən sonra ilk dəfə olaraq azərbaycanlının təyin edilməsi, bu orqanın tarixində yeni bir mərhələnin başlanğıcı idi. Heydər Əliyevin bu vəzifəyə gəlişi hər şeydən əvvəl Azərbaycan SSR DTK-nın uğuru idi, çünki artıq bu orqana səriştəli, təcrübəli və peşəkar əks-kəşfiyyatçı, təhlükəsizlik sisteminin daxili iş mexanizmini, əməliyyat həyətinin qarşısında duran vəzifələri dərindən bilən, ən başlıcası isə xalqının milli maraqlarının təminatçısı olan azərbaycanlı rəhbərlik eliyəcəydi. Sirr deyil ki, XX əsrin 20-30-cu illərində qeyri millətlərin anti-azərbaycan nümayəndələrinin və ermənilərin kök saldığı, xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş dövlət təhlükəsizlik orqanlarının millətimizin düşmənlərindən təmizlənməsi və milliləşdirilməsi kimi son dərəcə çətin və şərəfli missiyaya ilk dəfə hələ sovet rejiminin ən qüdrətli

vaxtlarında məhz Heydər Əliyev başlamışdır. Milli kökə və yaddaşa bağlı olan ümummilli lider 50-ci ildən başladığı azərbaycanlılaşdırma prosesini yeni səlahiyyətləri çərçivəsində daha da inkişaf etdirdi. Məhz onun səyi nəticəsində təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların sayı xeyli artdı. Bununla da, Heydər Əliyev milli əhval-ruhiyyəli və vətənpərvər ziyalı kadrları Dövlət Təhlükəsizlik Komitəsinə qulluğa qəbul etdirməklə, həm onları layiq olduqları işlə təmin edir, həm orqanı milliləşdirir, həm də əsassız təqiblərə və repressiyalara məruz qalmış xalqımızın qeyrətli övladlarını onlara qarşı gözlənilən təhdidlərdən qorumaqla növbəti təhlükələrin qarşısını alırdı. Həmçinin gələcək müstəqil Azərbaycanın milli kadr potensialının formalaşmasına zəmin yaradırdı. Beləliklə, Heydər Əliyevin DTX-da rəhbər vəzifələrdə çalışdığı müddətdə milli şüurun oyanması istiqamətində əməli addımlar atılmaqla milliləşmə prosesinin əsası qoyuldu. Eyni zamanda repressiyalara məruz qalan azərbaycanlıların reabilitasiyasına şərait yaradıldı, repressiya qurbanlarının ailə üzvlərinə olan ögey münasibət aradan qaldırıldı və onlar müvafiq işlərlə təmin olundu. Azərbaycanın milli ziyalıları və dissidentlər imperiyanın növbəti təzyiqlərindən yaxa qurtardı. Göründüyü kimi, təhlükəsizlik orqanlarında işlədiyi dövrdə də ulu öndərin vətən və xalq qarşısındakı xidmətləri müstəsna əhəmiyyət kəsb etmişdir. Qeyd etmək lazımdır ki, təhlükəsizlik orqanlarında işlədiyi müddətdə tale onu bir neçə sınağa, o cümlədən şəxsi həyatı ilə bağlı da çətin sınağa çəkmişdir. Bütün sınaqlardan yüksək məharətlə "üzü ağ" çıxan müdrik insan bu sınaqdan da "alnı açıq" çıxmışdır. Ailənin milli-mənəvi dəyərlər sistemində xüsusi əhəmiyyət kəsb etdiyini və dövlətdəki mühüm rolunu hər zaman vurğulayan, həmçinin onu cəmiyyətin özəyi, ülvi və müqəddəs hisslərin təcəssümü, xalqın mənəvi kamillik səviyyəsinin, milli genefondun saflığının qorunmasının əsas vasitələrindən biri kimi qiymətləndirən, eyni zamanda təhlükəsizlik orqanlarında ləyaqətlə qulluq keçməklə işinə çox bağlı olan Heydər Əliyev dilemma qarşısında qalmışdır. Məhəbbəti uğrunda əzmlə mübarizə aparmaqla sevgisinə qovuşmaq, qəlbinə yaxın bir insanla ailə həyatı qurmaq, ən əsası əhdinə sadiq olmaq üçün çalışdığı Dövlət Təhlükəsizlik Orqanlarının rəhbərliyinin mövqeyinə qarşı çıxmaqdan, buna görə hətta tutduğu vəzifəni itirməklə gələcək karyerasını təhlükəyə atmaqdan belə çəkinməyən cəsarətli insan öz haqlı inadından dönmədi və onun Zərifə xanım ilə müqəddəs ittifaqa – nikaha girməsinə heç kim və heç nə mane ola bilmədi. Bununla da o, mənəviyyat tariximizdə gələcək nəsillərə örnək ola biləcək məhəbbət dastanı yarada bildi. Buna görə də, Heydər Əliyevin möhkəm mənəvi təməl və ülvi niyyətlər, saf hisslər üzərində yaratdığı ailə modelinə bu gün Azərbaycanda yeni qurulan ailələr böyük rəğbətlə istinad edir. Yerigəlmişkən mərhum akademik Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, zəngin mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı misilsiz xidmətləri xüsusi vurğulanmalıdır. Zərifə xanımın tibbi, elmi və pedaqoji fəaliyyəti, saf və təvazökar insan kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir ziyalı, həkim və müəllim üçün mənəviyyat məktəbi, kamillik nümunəsidir.

## 2. Sarsılmaz istiqlal və firavan istiqbalın başlanğıcı

Ötən əsrin 60-cı illərinin əvvəllərində Azərbaycanın əksər göstəriciləri aşağı, həmçinin sənaye potensialı zəif olduğu üçün, ölkəmiz Sovet İttifaqında geridə qalmış kənd təsərrüfatı respublikası kimi tanınırdı. Azərbaycanı böhran vəziyyətdən çıxarmaq üçün xalqa əsl rəhbər ola biləcək şəxsiyyətə böyük ehtiyac duyulurdu. 14 iyul 1969-cu il tarixdə Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi və digər maneələrə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün mümkün tədbirləri həyata keçirməyə başladı. Xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, milli adət-ənənələrini yaşatmaq, habelə zəngin mədəniyyətini, incəsənətini, eləcə də ana dilini inkişaf etdirmək üçün ölçüyəsığmaz işlər görən böyük şəxsiyyət ictimai şüurdakı qorxunu, tərəddüdü aradan qaldırmağa, cəmiyyəti bütün sahələr üzrə inkişafa ruhlandırmağa, azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşınında boğulmasının qarşısını qətiyyətlə almağa müvəffəq oldu. Bununla da, Heydər Əliyev xalqımızın milli mənlik şüurunun alovlanmasına təkan verməklə, məqsədyönlü tədbirlər, hərtərəfli islahatlar həyata keçirərək respublikamızı qısa müddətdə sürətlə inkişaf etdirdi və bütün bunların nəticəsində Azərbaycan geridə qalmış kənd təsərrüfatı respublikasından aqrar-sənaye respublikasına çevrilərək, bir çox cəhətdən özünü təmin edən və ümumittifaq büdcəsinə töhfələr verən iki respublikadan biri olmaqla Sovet İttifaqında ön sıraya keçərək öz layiqli yerini tutdu. Azərbaycan inkişaf edib yüksəldikcə, onun rəhbərinin nüfuzu da artırdı.

Bu isə tarixi düşmənlərimiz olan erməniləri narahat edirdi. 1982-ci ildə ulu öndərimizin ittifaq rəhbərliyinin ən yüksək pillələrindən birinə–SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçilməsi isə ermənilərin daha ciddi narahatlığına səbəb oldu. Yeni vəzifənin də öhdəsindən xüsusi peşəkarlıqla gələn müdrik rəhbər Heydər Əliyevin uğurları ölkə rəhbərliyinin yüksək eşalonunda əyləşənlərin də ona qarşı qısqanclıq hisslərini gücləndirir və bu ermənipərəst Qorbaçovun hakimiyyətə gəlişindən sonra daha qabarıq nəzərə çarpırdı. Yaranmış fürsətdən istifadə edən ermənilər onun vəzifədən uzaqlaşdırılması planını işə salaraq, bu prosesə dünyada məşhur olan erməni lobbisini də cəlb edir. Vətəni Azərbaycanda da vaxtilə dəstək olduğu bəzi qüvvələrin ona qarşı çıxması isə Heydər Əliyevi mənən sarsıtmaqla, digər tərəfdən ruhdan salırdı. Sadalanan səbəblərdən o, 1987-ci ilin oktyabrında vəzifədən istefa verməyə məcbur oldu. Bundan sonra, vətənin və xalqın məşəqqətli günləri başladı. Əvvəlcə, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək ideyası meydana çıxdı ki, bu da xalqımızın soyqırımı ilə müşayiət olunan torpaqlarımızın işğal edilməsi ilə nəticələndi, bir müddət sonra isə "Qanlı yanvar" qırğını baş verdi. Sözsüz ki, o zaman Heydər Əliyev hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi. Məlumdur ki, o vaxta qədər Heydər Əliyevin yenidən fəal siyasətlə məşğul olmaq niyyəti yox idi. Buna baxmayaraq, ümummilli lider baş verənlərə biganə qala bilməzdi. Odur ki, "xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir"-deyən Ulu öndər şəxsi həyatı da daxil olmaqla, hər bir təhlükəni gözaltına alaraq, heç nədən və heç kəsdən çəkinmədən 1990-cı ilin sərt qış günlərinin birində oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, respublikada "20 Yanvar" faciəsini törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən son dərəcə cəsarətli və qətiyyətli bəyanatla çıxış etməklə, hər zaman Azərbaycan xalqının yanında olduğunu bir daha sübut etdi. Bu, yeni tarixi epoxanın başlanğıcında Heydər Əliyevin müstəqillik uğrundakı mübarizəsinin eyhamı olmaqla çox böyük əhəmiyyət kəsb edirdi. Təbii olaraq bundan sonra ona qarşı təzyiqlər və təxribatlar kompaniyası geniş vüsət aldı və həmin kompaniya daxilində hətta onu həbs etmək belə istədilər. Bütün bunlara baxmayaraq, yenə doğma vətəninə qayıdan Heydər Əliyevə Bakıda yaşamağa imkan verilmədiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana qayıtdı və orada xalq onu, o, isə xalqını qorudu. Qeyd olunmalıdır ki, həmin vaxt ermənilərin məkirli niyyəti, həmçinin Naxçıvanın da işğalına yönəlsə də,Heydər Əliyev buna imkan vermədi və eyni zamanda müstəqilliyin əldə edilməsi üçün həlledici addımlar atmağa başladı. Məhz onun təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı elan edildi və Azərbaycanın Ali Məclisinə bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi barədə vəsatət göndərildi. Bununla yanaşı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Göründüyü kimi, Azərbaycanın dövlət müstəqilliyinə gedən yol müdrik liderin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvandan başlamışdır. Hadisələrin məntiqi davamı olaraq, 1992-ci ilin noyabrında bilavasitə onun liderliyi ilə siyasi platforması Azərbaycanın parlaq gələcəyindən xəbər verən Yeni Azərbaycan Partiyası yaradıldı. Müxalifət partiyası kimi yaradılmış partiyanın siyasi arenaya gəlməsi Azərbaycanda bütün məsələlərin demokratik və sivil qaydada həll edilməsi üçün xüsusi əhəmiyyətə malik olan çox mühüm bir hadisə idi. Hazırda nəinki Azərbaycanda, eləcə də cənubi Qafqazda ən böyük partiya olan Yeni Azərbaycan Partiyası öz düzgün fəaliyyəti, bilavasitə xalqa və milli maraqlara xidməti sayəsində qısa zaman kəsiyində, 1993-cü ildə iqtidar partiyasına çevrildi.

SSRİ-nin süqutu ilə əlaqədar yaranmış tarixi şəraiti düzgün qiymətləndirməklə, vəziyyətdən bəhrələnən xalqımız ötən əsrin sonlarında ikinci dəfə öz müstəqilliyinə qovuşsa da, AXC-Müsavat iqtidarı təmsilçilərinin ambisiyaları və səriştəsizlikləri çox qısa müddətdə müstəqilliyimizi uçurumun kənarına gətirib çıxartdı. Müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə aparan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət ikinci dəfə qazanılan müstəqilliyin də tarixə qovuşması təhlükəsi həddinə çatır. Həmin dövrdə bir tərəfdən ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında yaranmış uçurum, digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı əsassız iddialarının reallaşdırılması ölkəmiz üçün ciddi çətinliklər yaradırdı. Nicatın yalnız onda olduğuna əmin olan Azərbaycan xalqı növbəti dəfə doğru seçim edərək öz sınanmış rəhbərinə üz tutaraq Heydər Əliyevin hakimiyyətə

gəlməsini israrla tələb etdi. Azərbaycanını və xalqını canından çox sevən ulu öndər bu anda başqa seçim edə bilməzdi. Ona görə də o, heç bir təhlükəyə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 9 iyun 1993-cü il tarixdə Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bu böyük qayıdışından sonra ölkəni dərin böhrandan, əslində dövlətçiliyi süquta uğramaqdan və müstəqilliyi itirmək təhlükəsindən xilas etmək üçün qısa müddət ərzində Respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirilir, vətəndaş müharibəsinin qarşısı alınır, separatçı meyillərə son qoyulur, ictimai-siyasi sabitlik bərqərar edilir ki, bütün bunlar hərtərəfli islahatların başlanmasına zəmin yaradır. İndi sağlam düşüncəli hər bir Azərbaycan vətəndaşı çox yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin zamanda Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, nəinki bugünki qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu şübhə altına düşə bilərdi.

### 3. Güclü iqtisadiyyat qüdrətli dövləti şərtləndirir

Fəxrlə deyə bilərik ki, müasir şəraitdə dövlət müstəqilliyimiz üçün vacib olan iqtisadi potensialımızın əsası Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində qoyulmuşdur. Dahi rəhbərin müəyyən etdiyi bütün sahələrdə islahatlar aparmaq yolu ilə ölkə iqtisadiyyatını inkişaf etdirmək və mövcud iqtisadi potensialdan istifadənin səmərəsini artırmaqla onu xalqın bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək kimi bir-birini tamamlayan iki istiqamət ölkənin müasir inkişaf gerçəkliyinin obyektiv nəzəri-praktiki təməli olmaqla, vətənimizin gələcək tərəqqisinə böyük təkan verdi. İslahatların yüksək peşəkarlıqla aparılması sözsüz ki, Heydər Əliyev dühasının bəhrəsi idi. Heydər Əliyev yeni iqtisadi sistemə keçidin inkişaf üçün vacibliyi prinsipini irəli sürməklə yanaşı, eyni zamanda keçid prosesində əhalinin sosial maraqlarının təminatını, xüsusən aztəminatlı insanların sosial müdafiəsini, iqtisadi potensialın ilk növbədə xalqın rifahına yönəldilməsini dövlət qarşısında strateji vəzifələrdən biri kimi müəyyən edirdi. Heydər Əliyevin strategiyasında bazar iqtisadiyyatına keçid şəraitində aparılan islahatların əhalinin rifahına mənfi təsirinin son dərəcə azaldılması və köklü iqtisadi islahatlar şəraitində etibarlı sosial müdafiə sisteminin qurulması prioritet istiqamətlərdən idi. Müstəqil şəraitdə, heç kimə ümid bəsləmədən iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt hesab edən Heydər Əliyev deyirdi: "Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizə yiyələnək və bu sərvətlərdən istifadə edərək xalqımızın daha yaxşı yaşamasına nail olaq". Azərbaycanın son inkişaf tarixi bariz şəkildə göstərir ki, Heydər Əliyev məntiqindəki "müstəqillik-iqtisadiyyat" dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə hər zaman aktualdır.

Mövcud imkanlardan o cümlədən təbii sərvətlərdən və iqtisadi potensialdan səmərəli istifadə etmək üçün hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışmağın zəruri olduğunu bildirən Heydər Əliyev, bunu iqtisadiyyatın inkişafı, nəticədə ölkəmizin qüdrətlənməsinin və vətəndaşlarımızın rifahının yüksəldilməsinin əsası kimi qiymətləndirirdi. Dünya təcrübəsi də təsdiq edir ki, islahatların müvəffəqiyyəti düşünülmüş, əsaslandırılmış strategiya və taktikadan başqa, bir çox sosial-siyasi və ideoloji amillərdən də asılıdır. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olunması iqtisadi inkişafın davamlılığına və yeni hədəflərə rəvac verməklə yanaşı, tərəfdaşlar qazanılmasına da zəmin yaratdı. Məlum olduğu kimi, ulu öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulduğu, atəşkəs rejimini təzəcə əldə etdiyi üçün, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabr ayında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə “Əsrin müqaviləsi” kimi möhtəşəm bir müqavilənin bağlanılmasına nail oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tibilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan “Şahdəniz” layihəsinin reallaşması da bu böyük şəxsiyyətin misilsiz

xidmətlərinin nəticəsi idi. Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir biri ilə, o cümlədən bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi "İpək Yolu" layihəsinin də ərsəyə gəlməsində Heydər Əliyevin təşəbbüsü ilə görülən işlər müstəsna əhəmiyyət kəsb etmişdir. Əsas məqsədi Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan bu böyük layihənin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin müstəsna əhəmiyyətini dərk edən Heydər Əliyev, bütün qüvvəsini əvvəlcə həmin xətt layihəsinin, sonra isə digər mühüm layihələrin reallaşdırılmasına yönəltmişdir. Tarix onun növbəti uzaqgörənliyini təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim "İpək Yolu"nun bərpası Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn müdrik siyasəti olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə xidmət edirdi.

Ulu öndərin sürətli iqtisadi inkişaf konsepsiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş, həmçinin iqtisadiyyatımızın daha da güclənməsinə xidmət edən digər əhəmiyyətli işlər görülmüş, sürətli tərəqqinin davamlılığı təmin olunmuşdur. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilmişdir. Bundan başqa, 20 sentyabr 2014-cü il tarixdə Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində mühüm rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulmuş, 2018-ci ilin may ayının 29-da Cənub Qaz Dəhlizinin, iyun ayının 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimləri keçirilmişdir. Qeyd olunmalıdır ki, Azərbaycandan Avropa bazarlarına təbii qazı ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilmiş TAP layihəsinin icrası istiqamətində zəruri işlərin görülməsi isə sürətlə davam etdirilmişdir. Bundan əlavə, 20 sentyabr 1994-cü il tarixdə Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci ilin sentyabr ayının 14-də ölkəmiz üçün daha əlverişli yeni şərtlərlə 2050-ci ilə qədər uzadılmış, bu isə Azərbaycanda bundan sonra da uzun illər neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına rəvac vermişdir. Vurğulanmalıdır ki, aqil lider cənab İlham Əliyevin yürütdüyü son dərəcə təmkinli, səbirli, balanslaşdırılmış siyasət 12 avqust 2018-ci il tarixdə Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlət başçılarının iştirakı ilə tarixi Aktau Konvensiyasının imzalanması nəticələnmiş, bununla da 1996-cı ildən davam edən Xəzərin hüquqi statusu ilə bağlı 22 illik danışıqlar milli maraqlarımızı qane edən sonluqla bitmiş və Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik həll edilmişdir. 2018-ci ilin oktyabr ayının 19-da Azərbaycan–Türkiyə qardaşlığının təzahürü olaraq birgə səylərlə reallaşdırılan, hər iki ölkənin iqtisadi inkişafına, bütövlükdə regionun tərəqqisinə böyük töhfə olan «STAR» neft emalı zavodunun açılışı da neft strategiyasının uğurlarından olmuşdur. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də müstəsna əhəmiyyətli işlər görülmüşdür. Belə ki, təməli 2007-ci ildə qoyulmuş Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuş, 2018-ci il sentyabrın 18-də yeni Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün işlər başa çatdırılmışdır. Sözsüz ki, bu uğurları iqtisadi islahatların siyasi islahatlarla paralel şəkildə və yüksək peşəkarlıqla aparılması şərtləndirmişdir.

### 4. Rəşadətli Silahlı Qüvvələr müstəqilliyin zəmanətidir.

Ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birini də Azərbaycanın təhlükəsiz gələcəyinə təminat, müstəqilliyinə zəmanət verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəmizdə bu sahədə yaranmış tənəzzül, ulu öndərin birinci dəfə hakimiyyətə gəlişindən sonra aradan qaldırıldı. Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, bu zavodlarda o dövrün ən müasir texnologiyalarının tətbiq olunması Azərbaycan Respublikasının müdafiə sənayesi istehsalında keyfiyyətli məhsulların həcmini dəfələrlə artırırdı ki, bu da müstəqilliyə doğru gedən yolda va-

cib amillərdən idi. Bununla yanaşı, milli hərbi kadrların hazırlanması prosesi də vüsət aldı. Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə ixtisaslı milli mütəxəssislərin hazırlanması istiqamətində Heydər Əliyevin gördüyü böyük işlər bu müdrik şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu idi. Ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin formalaşdırılmasının və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan ulu öndər, bu sahəni də daim diqqət mərkəzində saxlayırdı. Qeyd olunan məsələnin vacibliyini nəzərə alan ümummilli lider Heydər Əliyev hələ Sovetlər dönəmində, SSRİ-nin iflas təhlükəsi heç kimin ağılına gəlmədiyi bir vaxtda milli kadrların, xüsusilə peşəkar hərbçilərin hazırlanması istiqamətində misilsiz işlər görürdü. Belə ki, o, azərbaycanlı gənclərin hərtərəfli formalaşması üçün onların ali təhsil, o cümlədən xaricdə təhsil almalarına xüsusi önəm verməklə yüzlərlə şəxsin müxtəlif dövlətlərin ali təhsil müəsissələrində, həmçinin ali hərbi məktəblərində təhsil almaları istiqamətində əməli tədbirlər həyata keçirirdi. Bununla da, ümummilli liderin şəxsi müdaxiləsi və qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı və bu sahədə də milliləşdirmə prosesi sürətləndi. Digər istiqamət isə ölkə daxilində milli təhsil müəsissələrinin təkmilləşdirilməsi və yeni təhsil ocaqlarının yaradılması idi. Müttəfiq respublikalar arasında ilk dəfə və yalnız Bakıda hərbi məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin olsa da, ulu öndər buna nail oldu və məhz onun əzmi sayəsində 19 iyul 1971-ci il tarixdə Silahlı Qüvvələrin peşəkar milli hərbçi heyəti ilə komplektləşdirilməsində müstəsna əhəmiyyəti olan Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Sözügedən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə böyük təkan verdi.

Böyük şəxsiyyət Heydər Əliyev növbəti dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirildi. Silahlı Qüvvələrin beynəlxalq əlaqələrinin genişləndirilməsini də hər zaman diqqətində saxlayan Ali Baş Komandan Heydər Əliyev, onu müasirləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini, Şimali Atlantika Alyansının isə beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq, ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması barədə qətiyyətli qərar verdi və 4 may 1994-cü ildə Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Bundan sonra, digər ölkələrin qanunvericiliyindən və təcrübəsindən bəhrələnilməklə, eləcə də hərb tariximizə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı, həyata keçirilən mühüm tədbirlər sayəsində çağırış və səfərbərlik işi də xeyli təkmilləşdirildi, həmçinin hərbi hissələrdə intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu. Bununla da, görülən işlər qısa zamanda öz bəhrəsini verdi və Azərbaycanın qüdrətli ordusu formalaşmağa başladı.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu sahəsində həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilmiş, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırılmış, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı son hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, ordumuz 52-ci yeri tutmuşdur. Bu isə Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha təsdiq etmişdir. Hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi, əsgərlərin məişət işlərindən azad edilməsi, yüksək tələblərə cavab verən əsgər yataqxanalarının istifadəyə verilməsi, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, həmçinin onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli peşəyə həsr edən hərbi qulluqçular eyni zamanda hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Bütün bunların nəticəsində, Silahlı Qüvvələrdə nizam-intizam daha da möhkəmlənmiş və son dövrlər hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin, o cümlədən hərbi

xidmət əleyhinə olan cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalmış, fərarilik, həmçinin hərbi hissəni və ya xidmət yerini döyüş şəraitində özbaşına tərk etmə cinayətlərinin kökü isə demək olar ki, kəsilmişdir.

Böyük iftixar hissi ilə vurğulamalıyıq ki, ordumuz öz gücü və qüdrətini 2016-cı ilin "aprel" və 2018-ci ilin "may" döyüşlərində bir daha sübut etdi. Hər iki döyüş əməliyyatlarında Azərbaycan hərbçilərinin göstərdiyi peşəkarlıq və qəhrəmanlıq ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an qadir olduğunu və qələbə əzmini əyani nümayiş etdirdi. Bütün bu uğurlar Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasətinin və qətiyyətinin, dövlətimizin qüdrətinin, ordumuzun gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsidir. Ulu öndər deyirdi: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir.".

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri vətən uğrunda, xalq yolunda öz qanını və canını əsirgəməyən, bu yolda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümü olmaqla bərabər, həmçinin hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradaraq qələbə əzmini artırır. Aprel döyüşlərində yaralanan və yüksək texnologiyalı protezlərlə təmin edilmiş hərbi qulluqçularla 03 aprel 2019-cu il tarixdə, keçirilən görüşdə Mehriban xanım Əliyeva onlara "qardaşlarım" deyərək müraciət etməklə söyləmişdir: "...Belə xalqla, belə əsgərlərlə biz Qarabağı mütləq qaytaracağıq...". Qeyd olunanlar qəti əminliklə onu deməyə əsas verir ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tezliklə işğal altında olan torpaqlarımız düşmənlərdən təmizlənəcək və doğma Azərbaycanımızın ərazi bütövlüyü bərpa olunacaqdır.

### 5. Prokurorluq hüquqi dövlətin əsas təminatçılarındandır

Ulu öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə növbəti dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməyə başlanıldı. Müstəqil Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi, o cümlədən ölkəmizin ali qanunu olan Konstitusiyanın qəbul edilməsi, orada hakimiyyətlərin bölünməsi prinsipinin təsbit olunması, qanunvericilik bazasının müasir tələblərə və beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, yeni idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət orqanlarının, o cümlədən prokurorluğun dövrün tələbatına uyğun formalaşdırılması ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı nəhəng işlərin sayəsində mümkün olmuşdur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etməyə başlamasından sonra onun təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və Prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların hüquqi bazasının təməlini təşkil edən müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq məhkəmə hakimiyyəti sistemində prokurorluğa layiqli yer verildi, eləcə də onun statusu, təşkili, fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında müəyyən olundu. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu isə qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etdi. Bundan sonra, beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında" Azərbaycan Respublikası Qanunlarının və digər hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi zamanın tələbləri və beynəlxalq standartlarla uzlaşdı. Xüsusi vurğulanmalıdır ki, ulu öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin qəbul edilməsi və onun uğurla icraya yönəldilməsi Azərbaycan Prokurorluğunda aparılan islahatların ən böyük nailiyyətlərindən olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi əhəmiyyətli məsələnin hüquqi əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər rəhbər tutularaq, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata

keçirilməsinin nəticəsində prokurorluğun kadr tərkibinin yüksək mənəvi keyfiyyətlərə və dərin biliyə malik, geniş dünyagörüşü olan, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq, bir sözlə püxtələşmiş gənc hüquqşünaslardan formalaşdırılmasına və mütəmadi olaraq yenilənməsinə müyəssər olunmuşdur. 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktı ilə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi isə dövlətdə və cəmiyyətdə prokurorluğun rolunu daha da artırmışdır. Ümummilli liderin prokurorluq işçilərinin rifahına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə sonsuz sevinc hissləri ilə qarşılanmaqla, prokurorluq işçilərində özünəgüvən hissini bir qədər də möhkəmləndirmişdir. Göründüyü kimi, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevrilmişdir.

Dərin minnətdarlıq hissi ilə xüsusi vurğulanmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan bütün hüquq mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və dövlət qayğısı göstərilməsi ənənəsi bugün də, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı» da bu qayğının bariz nümunəsi olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində inkişafın, təkmilləşmənin və hərtərəfli müasirləşdirmənin təməlini qoyan bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılmasına, fəaliyyətinin daha səmərəli təşkilinə, digər hüquq mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsinə, eləcə də, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılmasına hərtərəfli rəvac verdi ki, bu da əməkdaşlarda böyük ruh yüksəkliyinə səbəb olmaqla, prokurorluğun növbəti uğurlarına zəmin yaratdı.

Hərbi Prokurorluq orqanlarının işinin daha səmərəli təşkil olunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr ediməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Hərbi Prokurorluğa Silahlı Qüvvələrdə törədilən və hazırlanan cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyətə malik əlavə səlahiyyətlərin verilməsi və buna uyğun olaraq mövcud strukturda müvafiq dəyişikliklər edilməklə yeni qurumların yaradılması Hərbi Prokurorluğun fəaliyyətinə verilən növbəti yüksək dəyərin təcəssümü idi.

Hərbi Prokurorluğun kollektivi də ulu öndər Heydər Əliyevin millətimizin və dövlətimizin maraqlarına xidmət edən müdrik siyasətinin möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin effektivliyini daim artırmaqla, cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirir.

### 6. Mükəmməl siyasətin uğurlu davamı

Qürurumuzu artıran bir haldır ki, bugün də Azərbaycana ümummilli liderimizin zəngin dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş və Heydər Əliyev siyasətinə sadiqliyini öz müstəsna xidmətləri ilə əyani şəkildə sübuta yetirmiş İlham Əliyev kimi müdrik lider, qətiyyətli şəxsiyyət və mahir siyasətçi rəhbərlik edir. Müasir Azərbaycanın xilaskarı ulu öndər Heydər Əliyevin Azərbaycanın sürətli inkişafı strategiyasını zamanın tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çoxşaxəli islahatlar

aparılmış, nəhəng layihələr reallaşdırılmış, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülmüş, regionların tarazlı inkişafı təmin olunmuş, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılmışdır. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilmişdir. Əhalinin maddi və sosial rifah halının daha da yaxşılaşdırılması, həyatımızın bütün sferalarında demokratik dəyərlərin tam bərqərar olması və hərtərəfli təkmilləşdirilməsi istiqamətində inkişafın davamlılığı təmin olunmuşdur.

Sirr deyil ki, cənab İlham Əliyevin prezidentlik dövrü, o cümlədən ötən il bütün sahələrdə köklü islahatların aparılması, ölkə üçün mühüm strateji əhəmiyyət kəsb edən müxtəlif inkişaf proqramlarının hazırlanaraq müvəffəqiyyətlə icra edilməsi, dövlət idarəçilik strukturlarının təkmilləşdirilməsi, eləcə də yeni kadr təyinatlarının həyata keçirilməsi, bir sözlə hərtərəfli tərəqqi prosesinin vüsət alması ilə səciyyələnmişdir. Ölkənin ali icra orqanı olan Prezident Administrasiyası da daxil olmaqla bir neçə dövlət qurumlarında cəmiyyətdə yüksək qiymətləndirilən mütərəqqi struktur və kadr islahatları aparılmış, o cümlədən ilboyu müxtəlif dövlət orqanlarının strukturlarının müasir tələblərə uyğunlaşdırılması, müvafiq qurumların yaradılması, bəzilərinin birləşdirilməsi və ya ləğvi ilə nəticələnən əhəmiyyətli işlər görülmüş və yeni təyinatlar olmuşdur. Bu islahatların məntiqi davamı parlamentin buraxılması və bu ilin fevral ayında keçirilən seçkilər olmuşdur. Xalqın iradəsini ifadə edən növbəti parlament seçkilərində də, Yeni Azərbaycan Partiyasının inamlı qələbə qazanması, parlamentdə üzvlərinin çoxluq təşkil etməsi ölkədə aparılan siyasətin xalq tərəfindən bəyənilməsinin və dəstəklənməsinin aydın təcəssümüdür. Azərbaycan tarixində ilk dəfə olaraq müxalifət nümayəndəsinin Milli Məclis Sədrinin müavini vəzifəsinə seçilməsi, komitələrə müxalifət nümayəndələrinin sədr və ya müavin qismində olmaqla rəhbərlik etməsi siyasi sistemin bir qədər də təkmilləşdirilməsi və siyasi münasibətlərin daha sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımların təzahürüdür.

Hər kəsə məlumdur ki, ölkəmizin hərtərəfli inkişafında və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında hərtərəfli biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan nəcib insanın-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Mehriban xanımın vətəninə və millətinə bağlılığı, sadəliyi, səmimiliyi, cəmiyyətdə mənəvi aşınma yaradan, eləcə də saf və ali dəyərləri cılızlaşdıran mənfi meyllərə qarşı barışmaz mövqe tutması, insanlığın təntənəsinə xidmət edən təşəbbüsləri və saysız-hesabsız xeyirxah əməlləri ona sonsuz xalq məhəbbətini qazandırmışdır. Mehriban xanımın bəşər mədəniyyətinin inkişafı istiqamətində gördüyü böyük işlər, sivilizasiyalararası dialoq prosesinə verdiyi töhfələr və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər isə ona Azərbaycan xalqının sevgisi ilə bərabər, bir sıra xarici ölkə vətəndaşlarının da rəğbətini qazandırmışdır.

Respublikamızda hökm sürən ictimai-siyasi sabitlik, beynəlxalq arenadakı nüfuzumuz və etibarlı tərəfdaşlığımız xarici dövlətləri bizimlə əməkdaşlığa sövq edir ki, bu da iqtisadiyyatımıza böyük məbləğlərdə sərmayələrin qoyulması, bir çox beynəlxalq tədbirlərin, o cümlədən mötəbər yığıncaqların və idman yarışlarının ölkəmizdə keçirilməsi, eləcə də turizmin inkişafı ilə nəticələnir.Təkcə ötən il vətənimiz 7-ci Bakı Qlobal Forumu, Cənub Qaz dəhlizinin məşvərət şurası, OPEC ölkələrinin görüşü, Türkdilli Dövlətlərin əməkdaşlıq şurasının VII Zirvə Görüşü, Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü, Formula 1 Azərbaycan Qran Prisi və UEFA kubokunun final oyunu kimi mötəbər tədbirlərə ev sahibliyi etmişdir. Qürurverici və sevindirici haldır ki, Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində sədrlik edəcəkdir.

Xüsusi vurğulanmalıdır ki, 15 fevral 2020-ci il tarixdə Münxen Təhlükəsizlik konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə möhtərəm Prezident cənab İlham Əliyevin zəngin elmi biliklərinin, bəlağətinin, mükəmməl və məzmunlu nitqinin qarşısında Nikol Paşinyanın aciz qalması və dövlət başçımızın polemikadakı inamlı qələbəsi Azərbaycan diplomatiyasının

növbəti uğuru olmaqla, sözügedən məsələnin həllində ölkəmiz üçün mühüm əhəmiyyət kəsb etmişdir. Cənab Prezident İlham Əliyev səlis cümlələrlə və tarixi faktlara əsaslanan məntiqli fikirlərlə zəngin çıxışı ilə əsl həqiqətin nədən ibarət olmasına-bu münaqişədə Azərbaycanın haqlı tərəf olduğuna və torpaqlarımızın işğal edildiyinə dünya ictimaiyyətini inandırmağa müvəffəq oldu və bununla da Paşinyanın savadsızlığını və yalanlarını növbəti dəfə ifşa etməklə, onu "mat" vəziyyətinə saldı.

Göründüyü kimi, möhtərəm Prezident İlham Əliyevin yüksək erudisiyası, uzaqgörən siyasəti, möhkəm iradəsi, sarsılmaz qətiyyəti, mükəmməl rəhbərliyi, yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti nəticəsində durmadan qüdrətlənən Azərbaycan bugün dünyada böyük nüfuz qazanaraq ən qüdrətli dövlətlər sırasında özünəməxsus yerini müəyyən etməklə əsl söz sahibinə çevrilmişdir. Təsadüfi deyil ki, Azərbaycan Davos Ümumdünya İqtisadi Forumuna əsasən islahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə dünyada birinci onluqda qərarlaşmış, Dünya Bankı tərəfindən yayılan "Doing Business 2020" hesabatında isə 20 ən islahatçı dövlət siyahısına daxil edilməklə, dünyanın bir çox ölkələrini geridə qoymuşdur.

Dövlətimizin qüdrətindən və əldə olunan nailiyyətlərdən bəhs edərkən, bütün dünyanı lərzəyə salan Koronavirus (COVİD-19) pandemiyasına qarşı ölkəmizdə aparılan uğurlu mübarizəni xüsusi vurğulamaq lazımdır.

Hər kəsə məlumdur ki, Koronavirus infeksiyasının qlobal təhlükəyə çevrilməyə başladığı ilk vaxtdan etibarən onun yayılmasının və fəsadlarının qarşısının alınması, ölkəmizin bu bəladan daha az zərər və minimal itki ilə çıxması üçün dövlət başçısı çox tədbirli davranmaqla zamanında müdrik qərarlar verdi, həmçinin qətiyyətli addımlar atmaqla aidiyyatı dövlət orqanlarını və digər qurumları səfərbər edərək onlara göstərişlər, eyni zamanda dəyərli tövsiyələr verməklə bütün preventiv tədbirlərin görülməsini təmin etdi. Cənab Prezident liderinə güvənən və ona arxalanan xalqın ümidlərini həmişəki kimi doğrultdu. Hər kəs bir daha bu qənaətə gəldi ki, cənab Prezidentin liderlik nümunəsi digər dövlət başçılarına örnəkdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə martın 28-də ən müasir standartlara cavab verən "Yeni klinika"nın, aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı və istifadəyə verilməsi, dezinfeksiya vasitələrinin istehsalının təşkili və s. qısa zaman ərzində görülən böyük işlərin tərkib hissəsi idi.

Cənab Prezident İlham Əliyevə və Mehriban xanıma sonsuz inam bəsləyən xalq həmişəki kimi yenə də onların çağırışına yekdilliklə dəstək olaraq xüsusi karantin rejimi qaydalarına şərtsiz əməl etdi. Mehriban xanımın "evdə qal" çağırışını böyükdən kiçiyə hamı rəğbətlə qarşıladı, çünki, sağlam düşüncəli hər kəs yaxşı dərk edirdi ki, onların hər bir çağırışı həmişə olduğu kimi, bu dəfə də xalqın hərtərəfli təhlükəsizliyinə və firavan həyatının davamlılığına hesablanmışdır. Cənab Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz rəhbərinin ətrafında daha da sıx birləşdirərək vətəndaşlarda pandemiyaya qarşı mübarizə əzmi və böyük ruh yüksəkliyi yaratdı.

Təcrübə göstərdi ki, dünyanı bürüyən koronavirus infeksiyası xüsusilə yaşlı insanları daha tez yoluxdurur və onların sağlamlıqlarını ciddi təhlükə altına qoyur. Bunu nəzərə alan müdrik rəhbər ilk olaraq yaşı 65-dən yuxarı olan insanlara xüsusi həsasslıqla yanaşaraq aidiyyatı dövlət qurumları tərəfindən onların sağlamlığının qorunması, zəruri istehlak məhsulları ilə təchiz olunması, onlara evlərində sosial xidmətlər və digər köməklik göstərilməsi üçün lazımi tədbirlərin görülməsini təmin etdi. Azərbaycan Prezidentinin dünyanı bürüyərək insanların həyatını təhdid edən koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri sırasında yaşı 65-dən yuxarı olan vətəndaşlarımızın sağlamlığının təminatını prioritet məsələ kimi öndə saxlaması həm də böyüklərimizə olan diqqət və hörmətin bariz nümunəsidir

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu insanpərvərlik ənənələrini davam etdirərək ölkəyə rəhbərlik etdiyi ilk günlərdən insanlara qarşı mərhəmətli və humanist mövqe tutan Prezident İlham Əliyev yaşı 65-dən yuxarı olan məhkumları da diqqətdən kənarda qoymadı. Dövlət başçısının dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ona ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə almaqla və humanizm prinsiplərinə əsaslanaraq 06 aprel 2020-ci il tarixdə imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam humanist siyasətin növbəti bariz nümunəsidir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 17 ildə 34-cü əvf

aktı olan sözügedən sərəncamla çətin günlərdə çoxsaylı ailələri sevindirməsi, yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yəni yaşı 65-dən yuxarı olan 176 məhkumu əfv etməklə 165 kişi və 11 qadını cəzanın çəkilməmiş hissəsindən azad etməsi insan amilinə verilən yüksək dəyərin göstəricisidir. Xalq bir daha əmin oldu ki, onun hər bir nümayəndəsi kimliyindən və hansı zümrəyə aid olmasından asılı olmayaraq dövlət qayğısı ilə əhatə olunur. Dövlət başçısının məhkumluq həyatı yaşayan bəzi yaşlı insanları əfv etməsi həm də koronavirusla mübarizəyə töhfə oldu.

Xeyirxah məqsədlərə köklənmiş nəcib xarakteri ilə ürəkləri fəth etmiş Mehriban xanım Əliyevanın koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də, leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək çağırışı, onun hər zaman xüsusi qayğıya ehtiyacı olan insanların yanında olduğunun növbəti təzahürü idi.

Aztəminatlı təbəqənin nümayəndələrinə, xüsusi qayğıya ehtiyacı olanlara, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlara diqqət və dəstək göstərilərək, 600 min nəfərə dövlət tərəfindən iki ay ərzində hər ay 190 manat yardım verilməsi Azərbaycanın sosial dövlət olduğunu və dövlət siyasətinin mərkəzində vətəndaşın dayandığının növbəti bariz nümunəsidir.

Vurğulanmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın növbəti örnək addımlarından, bir illik əməkhaqlarını Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürmələrindən ibrət götürən ölkə ictimaiyyəti, o cümlədən dövlət orqanları və qurumları, özəl təşkilatlar, sahibkarlar, sadə insanlar, bir sözlə maddi imkanı yol verən hər kəs, eləcə də prokurorluq işçiləri nəcib təşəbbüsə qoşularaq adıçəklən Fonda könüllü ianələr etməklə bu məsələdə də həmrəylik nümayiş etdirdilər. Bu xalq-hakimiyyət birliyinin daha bir əyani sübutudur.

Beləliklə də, vaxtında qəbul edilən doğru qərarlar və görülən ciddi tədbirlər nəticəsində ümumbəşəri bəla olan koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısı qətiyyətlə alınır və dövlətimiz bu sınaqdan uğurla çıxır. Bununla da, bəşəriyyətin qəfil yaxalandığı pandemiya ilə effektiv mübarizədə Azərbaycan özünün hamının təqdir etdiyi standartını yaratmağa müvəffəq oldu. Dövlətimizin bütün dünyaya örnək olan koronavirusla mübarizə təcrübəsi həm vətəndaşlar, həm də beynəlxalq aləm tərəfindən yüksək qiymətləndirilir. Pandemiya ilə uğurlu mübarizə ilə əlaqədar vətəndaşların cənab Prezidentə ünvanladıqları çoxsaylı minnətdarlıq müraciətləri, digər dövlət başçılarının söylədikləri müsbət fikirlər, Birləşmiş Millətlər Təşkilatının mövqeyi və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesusun Cenevrədə keçirilmiş növbəti mətbuat konfransında dövlət başçımıza təşəkkürünü bildirməsi bunu bir daha təsdiq edir.

Xüsusi vurğulanmalıdır ki, dünyanın Çin, ABŞ, İtaliya, İspaniya və digər qüdrətli dövlətləri aciz olduğu, xeyli itkilər verdiyi və ciddi zərərə məruz qaldığı halda, ölkəmizin pandemiyadan az zərər və minimal itki ilə çıxması aqil rəhbərin mükəmməl siyasətinin, müdrik tövsiyələrinin, onun rəhbərliyi ilə aidiyyatı dövlət orqanları tərəfindən görülən əhəmiyyətli tədbirlərin, həyata keçirilən səmərəli fəaliyyətin və xalq-hakimiyyət vəhdətinin nəticəsidir.

Bu gün ölkədə görülən nəhəng işlərə görə cənab Prezidentə ünvanlanan minnətdarlıq məktublarının ardı-arasının kəsilməməsi, Mehriban xanımın saysız-hesabsız xeyirxah təşəbbüslərinə görə insanların məmnunluq hissləri ilə dolu təşşəkkürlərini ifadə edən müraciətlərinin səngiməməsi ölkədə həyata keçirilən uğurlu siyasətin qədirbilən xalq tərəfindən dəyərləndirilməsinin və dəstəklənilməsinin təcəssümüdür.

Göründüyü kimi, hələ sağlığında canlı əfsanəyə çevrilmiş nəhəng dövlət xadimi və dünya şöhrətli siyasətçi Heydər Əliyevin qurduğu müasir müstəqil Azərbaycan əmin əllərdədir və ulu öndərin mütərəqqi ideyalarını hər zaman rəhbər tutan cənab Prezident İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasət sayəsində dayanıqlı inkişaf edərək daha da qüdrətlənir.

Bütün bunlar qəti əminlik yaradır ki, nə qədər Azərbaycan milləti və dövləti var dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyev həmişə xatırlanacaq, onun parlaq siması qədirbilən insanların qəlbində yaşayacaq, əziz və unudulmaz xatirəsi hər zaman xüsusi ehtiramla anılacaqdır.

**Xanlar Vəliyev,**
*Azərbaycan Respublikasının Hərbi prokuroru,*
*ədliyyə general-leytenantı,*
*əməkdar hüquqşünas,*
*hüquq üzrə fəlsəfə doktoru.*

# Fövqəlbəşərlik mücəssəməsi

Məlum olduğu kimi, hər bir millətin müəyyən əlverişli tarixi məqamda milli-etnik soykökünə qayıdışında, zaman-zaman formalaşmış milli-mənəvi dəyərlər və təfəkkür-tərzi sisteminə söykənən özünəməxsusluğunu müstəqil şəkildə bəyan etməsində, vahid məqsədlər uğrunda birləşərək xalq kimi formalaşmasında müdrik liderlərin rolu mühüm əhəmiyyət kəsb etmişdir. Xalqımızla bağlı bu müqəddəs missiyanı ümummilli lider Heydər Əliyev yerinə yetirmişdir. Dəyərli ömrünü bütövlükdə Azərbaycana həsr edən ulu öndər Heydər Əliyev həyatı boyu, o cümlədən Azərbaycana rəhbərlik etdiyi dövrlərdə milli ideologiyanın formalaşması və onun inkişafı naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus milli-mənəvi dəyərlər sisteminin, adət-ənənələrin qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, azərbaycançılığı milli ideologiyaya çevirməklə, millətin həmrəyliyinə və mənəvi tamlığına müvəffəq olmuşdur. Bu isə millətin monolitliyində və tərəqqisində aparıcı amil olduğundan, xalqın öz rəhbərinin ətrafında sıx birləşməsinə, bununla da, milli birliyin daha da möhkəmlənməsinə və gələcək uğurlara rəvac vermişdir.

14 iyul 1969-cu ildən Azərbaycana rəhbərlik etməyə başlayan böyük şəxsiyyət Heydər Əliyev siyasi hakimiyyətə gəldiyi ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmaq və Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başladı. Xalqda milli ruhu yüksəltməklə onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin adət-ənənələrini, mədəniyyətini, incəsənətini, bədii irsini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün müstəsna əhəmiyyətli işlər görüldü. Millətin birliyində, həmrəyliyində mühüm rola malik, müqəddəs dəyərlərin qorunmasında müstəsna əhəmiyyəti olan dinə hər zaman xüsusi ehtiramla yanaşan vətənpərvər rəhbər Heydər Əliyev, onun siyasi alətə çevrilməsinin, insanların saf inanclarının cəmiyyətdə gedən proseslərin təsiri ilə adiləşib dəyərini itirməsinin qarşısını qətiyyətlə aldı. Yeri gəlmişkən qeyd olunmalıdır ki, ulu öndər ölkədə islam dininin mütərəqqi dəyərlərinin təşviqinə, formalaşmasına və inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin də təşəkkül tapmasına tolerant mühitin yaradılmasını təmin etmiş, dini konfessiyalar arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin yaranmasına müvəffəq ola bilmişdir. Milli mənəvi dəyərlərə bütün varlığı ilə bağlı olan böyük insan xalqın düşüncələrini, adət-ənənələrini, azadlıq ideyalarını özündə yaşadan Azərbaycan folklorunun, o cümlədən aşıq musiqisinin dirçəldilməsini də diqqətdən kənarda qoymadı. Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin 150 illik yubileyinin 1972-ci ildə onun doğulduğu Göyçə mahalında, Bakıda və hətta Moskvada ən yüksək səviyyədə keçirilməsi bunun bariz nümunəsi olmuşdur. Vurğulanmalıdır ki, bu tədbirlərin keçirilməsində məqsəd aşıq sənətinə və el sənətkarına yüksək dəyər verilməsi ilə bərabər, Azərbaycanın tarixi sərhədləri, ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları barədə həqiqətləri ictimaiyyətə, yeni nəslə və bütün dünyaya çatdırmaq idi. Azərbaycan xalqının zəngin tarixini özündə əks etdirən, milli-mənəvi dəyərləri təbliğ edən "Kitabi-Dədə Qorqud"un öyrənilməsini ötən əsrin 20-50-ci illərində sovet ideologiyası qadağan etməklə uzun illər bu abidənin unutdurulmasına çalışsa da, qətiyyətli rəhbər Heydər Əliyev bu qadağanın da aradan qaldırılmasına və dastanın dərindən tədqiqinə normal şəraitin yaradılmasına nail olmuş, nəticədə "Kitabi-Dədə Qorqud"la bağlı çoxsaylı tarixi və ədəbi araşdırmalar aparılmış, bu mövzuda bədii film çəkilmişdir. O dövrdə Bakıda türkçülüyü tədqiq edən sanballı "Türkologiya" jurnalının nəşrə başlaması da böyük zəhmətin, əzmin, fədakarlığın, türk dönməzliyinin nəticəsi idi. Bu dəyərli jurnalın nəşrinə Kreml bir neçə dəfə etiraz etsə də, imperiya rəsmiləri dahi şəxsiyyət Heydər Əliyevin müdrikliyinin qarşısında aciz qalaraq türk dünyasının birliyinə xidmət edən bu nəşrin dayandırılmasına müvəffəq ola bilməmişdilər.

Ulu öndər Heydər Əliyev xalqda milli dövlətçilik təfəkkürünün formalaşması üçün hər bir vətəndaşın yüksək təhsil almasını, elmin yeni nailliyyətlərini əxz etməsini son dərəcə vacib məsələ hesab etdiyi üçün, bu sahədə də bütün zəruri tədbirlərin görülməsini təmin etdi. Onun rəhbərliyi ilə respublikada milli maarifçilik hərəkatına start verildi, təhsilin inkişafı, eyni zamanda milliləşdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanıldı. Dahi strateqin ötən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gəncin respublikamızın hüdudlarından kənarda ali, həmçinin ali hərbi təhsil almasına, onların ixtisaslı kadr kimi yetişməsinə hər cür dəstək göstərməsi onun vətənpərvərliyi, xeyirxahlığı ilə bərabər müdrikliyinin, uzaqgörənliyinin əyani təcəs-

sümü idi. Ulu öndər həmçinin ölkə daxilində milli hərbi kadrların hazırlanmasını və bu məqsədlə hərbi təhsil müəsissələrinin təkmilləşdirilməsi və yeni təhsil ocaqlarının yaradılmasını zəruri hesab edirdi. Müttəfiq respublikalar arasında ilk dəfə və yalnız Bakıda hərbi məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin olsa da, müdrik lider buna nail oldu və məhz onun əzmi sayəsində 19 iyul 1971-ci il tarixdə Silahlı Qüvvələrin peşəkar milli hərbçi heyəti ilə komplektləşdirilməsində müstəsna əhəmiyyəti olan Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Sözügedən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə böyük təkan verdi. Ölkədə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan adıçəkilən məktəbin açılması SSRİ rəhbərliyini ciddi şəkildə narahat etdiyindən, həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbin açılmasına lüzum olmadığını əsaslandırmağa çalışsalar da, aqil liderin mahir diplomatiyası və qətiyyəti bu cəhdlərin qarşısını almağa müyəssər oldu. Azərbaycanlıların hərbi peşələrə yiyələnməsini təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədi ilə təsis edilmiş, yaradıldığı gündən minlərlə hərbçi hazırlamış, SSRİ dövründə ittifaqın hər yerində qeyri-rəsmi olaraq "Heydər Əliyev məktəbi" adlandırılan bu təhsil ocağının ölkəmiz müstəqillik qazandıqdan sonra, milli ordu quruculuğu sahəsində əvəzsiz əhəmiyyəti ulu öndərin siyasi uzaqgörənliyinin növbəti bariz təsdiqidir. Bütün sahələr üzrə peşəkar milli kadrlar hazırlamağı da prioritet istiqamət hesab edən aqil rəhbər Heydər Əliyev ilk növbədə hakimiyyət orqanlarına əsasən sadə insanların içərisindən seçdiyi azərbaycanlıları yerləşdirməklə xalqın birləşməsi, respublikanın tərəqqi yoluna çıxarılması və gələcəkdə müstəqilliyin əldə olunması istiqamətində zəruri tədbirlərin görülməsini təmin edirdi.

Göründüyü kimi, Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi, suveren bir ölkə kimi qarşılaşa biləcəyi problemlərin həllinə nail olması üçün real əsaslar hələ ulu öndərin Sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılmışdır. Bugünki müstəqilliyimizin əldə olunması məhz həmin dövrdə ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial, iqtisadi, siyasi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanması istiqamətində gördüyü nəhəng işlər nəticəsində mümkün olmuşdur. Azərbaycanın müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan suveren ölkə kimi mövcudluğu məhz həmin dövrdə uzaqgörən siyasətçi Heydər Əliyev tərəfindən təməli qoyulmuş bünövrə üzərində qurulmuş və uğurla davam etdirilmişdir.

Hər kəsə məlumdur ki, 18 oktyabr 1991-ci ildə dövlətimiz müstəqillik əldə etsə də, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdanadək ölkə çətin durumda olmuş, 1993-cü ilin əvvəllərində isə hətta müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşmişdir. Tarixi ərazilərimizin işğal olunduğu, iqtisadi tənəzzülün sürətləndiyi, ciddi hakimiyyət böhranının yaşandığı, anarxiyanın tüğyan etdiyi, ölkənin vətəndaş müharibəsi astanasında və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldığı bir zamanda, xalq Azərbaycanı bu vəziyyətdən çıxara biləcək yeganə insana, hərtərəfli potensiallı və cəsarətli müdrik şəxsiyyətə sığınaraq ona müraciət etdi. Xalqın təkidli xahişini cavabsız qoymayan böyük şəxsiyyət Heydər Əliyev ölkədə baş verənlərə rəğmən, heç nədən və heç kimdən çəkinmədən 15 iyun 1993-cü il tarixdə yenidən siyasi hakimiyyətə qayıtdı və milləti böyük bəlalardan, dövlətiçiliyi iflasdan qurtardı. Müstəqilliyimizi hifz edərək dövlətçiliyi möhkəmləndirməklə ölkəmizi dirçəliş və inkişafa doğru yönəltdi, milli varlıq və idrakın, özünüdərkin ali təzahür forması olan müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirdi. Tarix göstərdi ki, yalnız polad iradəyə, mükəmməl idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşə malik qətiyyətli lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək kimi ağır tarixi tapşırığın öhdəsindən gələ bilərdi. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünya şöhrətli siyasətçi Heydər Əliyev, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental iqtisadi islahatlar sayəsində sürətlə qüdrətlənən Azərbaycanda paralel olaraq digər sahələrdə, o cümlədən hüquq sahəsində də əsaslı islahatların aparılmasına zəmin yarandı. Bu sahədə aparılan islahatlarda müdrik liderin 9 avqust 1994-cü il tarixdə imzaladığı «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» Fərman xüsusi əhəmiyyət kəsb edirdi. Ölkəmizdə 1993–cü ilin iyun ayından ölüm cəzasının icrasına moratorium qoyulması, daha sonra onun tətbiqinin məhdudlaşdırılması, 10 fevral 1998–ci il tarixdən Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv edilməsi-fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanan bu tarixi addım humanizm, insanpərvərlik, ədalət və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə

misilsiz töhfəsi oldu. Dövlət başçısının 3 fevral 1998–ci il tarixli müraciətində deyilirdi: "Mən cinayət–hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi–demokratik dövlət quruculuğu yolunda olmasını bir daha təsdiqləyirdi.

Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ümummilli lider Heydər Əliyevin hüquqi dövlət quruculuğunda ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi üçün təşəbbüs göstərməsi və bu işə hərtərəfli dəstək verməsi olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında "Heydər Əliyev Konstitusiyası" adlandırılır. 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi də ulu öndər Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsi idi.Müdrik liderin təşəbbüsü və şəxsi nəzarəti ilə insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm hüquqi aktlar qəbul edildi, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşuldu, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə silsilə tədbirlər həyata keçirildi. Görülən böyük işlər sırasında dahi şəxsiyyət Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasının fəaliyyətini xüsusi vurğulamaq lazımdır.Komissiyanın hazırladığı yeni ictimai münasibətlərə uyğun Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Cəzaların İcrası, Əmək və digər məcəllələrin qəbulu isə respublikamızda bu sahədə atılan addımların qətiyyətini daha da artırdı.

Azərbaycanı bütün bəlalardan və çətinliklərdən məharətlə qorumaqla, ölkəsini olduqca çətin vəziyyətdən qısa zaman ərzində xüsusilə peşəkarlıqla çıxarmış ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həmçinin dövlət qurumlarının, o cümlədən prokurorluğun yenidən qurulması və müasir dövlət təsisatına çevirilməsi istiqamətində əhəmiyyətli işlər görülərək, onun demokratik orqan kimi tamamilə yenidən formalaşdırılmaqla dövlətçiliyimizin əsas sütunlarından birinə çevrilməsinə və dövlət qurumları sırasında öz layiqli yerini tutmasına nail olundu. Dahi rəhbərin qanunvericilik təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmış, prokurorluq orqanlarının daha da demokratikləşməsini, onların qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə "1 oktyabr-Prokurorluq işçilərinin peşə bayramı günü"nün təsis edilməsi isə tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olmuşdur. Ulu öndər Heydər Əliyevin prokurorluğun, özünün dediyi kimi, çətin və şərəfli işini, həmçinin dövlətçiliyə olan sədaqətini dəyərləndirməklə, onun fəaliyyətinə yüksək qiymət verməsi hər bir prokurorluq işçisini qürurlandırmaqla bərabər, onların üzərinə daha böyük məsuliyyət qoymuşdur.

Bugün müdrik lider cənab İlham Əliyevin mütəmadi olaraq verdiyi mütərəqqi tövsiyələri və dəyərli göstərişləri əsasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarında yeni müstəvidə və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyəti daha da təkmilləşdirilmiş, milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun hərtərəfli müasirləşdirilmişdir ki, bu da işin səmərəliliyini artırmışdır. Hərbi Prokurorluğun kollektivi də ulu öndər Heydər Əliyevin müdrik siyasətinin dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində yaxından iştirak edərək cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də xalqın qanunla qorunan mənafelərinə zərər yetirə və dövlətin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı qətiyyətli mübarizə apararaq xidməti vəzifələrini ləyaqətlə icra edirlər.

Sevindirici və qürurverici haldır ki, bugün də Azərbaycana ümummilli liderimizin zəngin dövlət idarəçiliyi təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş və ulu öndər Heydər Əliyev siyasətinə sadiqliyini öz

müstəsna xidmətləri ilə əyani şəkildə sübuta yetirən cənab Prezident İlham Əliyev kimi müdrik lider, qətiyyətli şəxsiyyət və hərtərəfli biliklərə malik siyasətçi rəhbərlik edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin yüksək elmi təfəkkürünün, müdrikliyinin, uzaqgörənliyinin, yenilməz iradəsinin və gərgin fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti nəticəsində dövlətimiz ildən ilə daha da qüdrətlənir xalqın rifahı hərtərəfli yaxşılaşdırılır. Belə ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə saysız-hesabsız nəhəng işlər görülmüş, bütün sahələrdə mütərəqqi islahatlar aparılmış, o cümlədən müxtəlif dövlət qurumlarında struktur və kadr islahatları həyata keçirilmişdir. Bütün bunların nəticəsində ümumi daxili məhsul, sənaye istehsalı, qeyri-neft sektorunda sənaye istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır. Eyni zamanda əhalinin pul gəlirləri, minimum əməkhaqqı, minimum pensiya və bəzi müavinətlər artmış, həmçinin manatın məzənnəsinin sabitliyi təmin olunmuşdur. Nəticədə təbii olaraq əhalinin sayı da artaraq on milyonu keçmişdir. Sadalananlar dövlətimizin daha da qüdrətlənməsini və xalqın rifahının hərtərəfli yaxşılaşmasını şərtləndirmişdir.

Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar, eləcə də Respublikamızın davamlı inkişaf yolunda inamla irəlilədiyi beynəlxalq təşkilatların hesabatlarında və nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında da xüsusi vurğulanır. Təsadüfi deyil ki, Azərbaycan Davos Ümumdünya İqtisadi Forumuna əsasən islahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə dünyada birinci onluqda qərarlaşmış, Dünya Bankı tərəfindən yayılan "Doing Business 2020" hesabatında isə 20 ən islahatçı dövlət siyahısına daxil edilməklə, dünyanın bir çox ölkələrini geridə qoymuşdur.

Hər kəsə məlumdur ki, bu gün ulu öndərin ali ideallarının gerçəkləşməsinə, dövlətimizin daha da qüdrətlənməsinə ölkəmizin əldə etdiyi ardıcıl uğurlara yüksək mənəvi-əxlaqi ali insani keyfiyyətləri parlaq şəxsiyyətində cəmləşdirmiş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və çoxşaxəli fəaliyyəti töhfələr verməkdədir. Mehriban xanımın istər ölkə daxilində, istərsə də ölkə xaricində gördüyü böyük işlər, reallaşdırdığı əhəmiyyətli layihələr hamı tərəfindən rəğbət və sevinclə qarşılanmış, insanlığın və ədalətin təntənəsinə xidmət edən çoxsaylı təşəbbüsləri və xeyirxah əməlləri isə ona hər kəsin sonsuz sevgisini qazandırmışdır. Təsadüfi deyil ki, Mehriban xanım Əliyevanın gördüyü işlər dünyanın ən nüfuzlu mətbu orqanlarının səhifələrində də davamlı olaraq geniş yer alır.

Millətinə xidməti həyat amalına çevirmiş cənab İlham Əliyev xalq qarşısında verdiyi vədləri son 17 ildə əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmişdir. Dövlət başçısının mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirərək cəmiyyətin sosial tələbatına uyğun çevik qərarlar qəbul etməsi, vətəndaşları narahat edən məsələləri qısa zamanda həll etməsi, hər zaman xalqın içində olması, mütəmadi olaraq vətəndaşlarla bilavasitə görüşməsi, onların qayğıları ilə maraqlanması, müraciətlərinə xüsusi həssaslıqla yanaşması, ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, üzləşdikləri bütün çətinliklərin aradan qaldırılması üçün zəruri tədbirlər görülməsini təmin etməsi dövlətin və rəhbərinin vətəndaşa verdiyi yüksək dəyərin, aparılan siyasətin mərkəzində insan amilinin dayandığının təcəssümüdür.

Bəşəriyyəti bürüməklə insanların həyat və sağlamlığını təhdid altına alan, dünyanın demək olar ki, hər yerində, o cümlədən inkişaf etmiş ölkələrdə hər gün yüzlərlə insanı cənginə keçirən və ya qurbanına çevirən Koronavirus (COVİD-19) pandemiyasına qarşı ölkəmizdə aparılan uğurlu mübarizə də ölkədə həyata keçirilən mükəmməl siyasətin nəticəsidir. Pandemiya sınağından məharətlə çıxmağımız dövlət başçımızın nə qədər müdrik, xalqımızın necə əzəmətli olduğunu bir daha təsdiqləyir.

Bütün bunlar onu deməyə əsas verir ki, dahi şəxsiyyət Heydər Əliyev dühasının nəticəsi olan qurduğu müasir Azərbayacanda onun ali ideyaları yaşayır və müdrik siyasəti uğurla davam etdirilir.

Göründüyü kimi, ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində hər şeydən əvvəl millətinin mənafeyini düşünmüş, həyatın sərt sınaqlarına məharətlə sinə gərərək, hər bir çətin şəraitdən ən düzgün çıxış yolu tapmaqla xalqını və dövlətini xilas etmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin qüdrətlənməsi, xalqın rifah halının yaxşılaşdırılması və demokratiyanın inkişafı üçün mümkün olan hər şeyi edərək ölkəmizi sürətli inkişaf yoluna çıxarmışdır. Ona görə də, ömür boyu qəlbində vətən sevgisi, milli ruh gəzdirən dünya şöhrətli siyasi xadim ulu öndər Heydər Əliyevin adı hər zaman böyük ehtiramla çəkiləcək və əziz xatirəsi həmişə yad ediləcəkdir.

**Firad Əliyev,**

*Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, ədliyyə müşaviri, hüquq üzrə magistr.*

# Narkomanlığa qarşı mübarizə hər kəsin borcudur

Sirr deyil ki, 18 oktyabr 1991-ci il tarixdə dövlətimiz müstəqillik əldə etsə də, ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdanadək ölkə olduqca çətin durumda idi və bütün sahələr üzrə köklü islahatlara ehtiyac duyulurdu. Xalqın israrlı tələbi ilə 15 iyun 1993-cü il tarixdə yenidən siyasi hakimiyyətə qayıtmaqla millətini böyük bəlalardan, dövləti parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən məharətlə qoruyan böyük şəxsiyyət Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə hərtərəfli islahatlar başladı. Ulu öndərin müdrik siyasətinin mərkəzində insan amili dayandığından, vətəndaşların hüquqlarının təmin edilməsi, rifahının yaxşılaşdırılması və sağlamlıqlarının qorunması prioritet istiqamət idi. Ona görə də, hər üç istiqamət üzrə uğurlar əldə edilməsinə əngəl yaradan faktorlardan biri olan narkomanlığa qarşı mübarizənin vacibliyi ön plana çəkildi. Ümummilli lider Heydər Əliyevin imzaladığı narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni gücləndirən "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı il tarixli Fərman bu böyük problemin həlli istiqamətində həyata keçirilən tədbirlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına rəvac verdi. Bundan sonra, sözügedən fərman əsasında 2000-ci ilə qədər olan dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlandı, ardınca əsas məqsədi bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradıldı və narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edildi. 18 iyun 1999-cu il tarixdə isə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanun qəbul olundu. Vurğulanmalıdır ki, dünyanı cənginə alan bu problemlə mübarizədə ulu öndər Heydər Əliyevin 15 iyul 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Milli Proqram (2000-2006-cı illər)" və onun tələblərindən irəli gələn məsələlərin həlli, eləcə də aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış xüsusi Dövlət Komissiyasının fəaliyyəti müstəsna əhəmiyyət kəsb etmişdir.

Göründüyü kimi, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dövlət quruculuğu, siyasi, iqtisadi və sosial sahələrdə aparılan islahatlar və vüsət alan inkişaf narkomanlığa qarşı mübarizə problemlərinin həlli üçün cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizənin aparılmasını da zəruri etmişdir. Bununla əlaqədar, dövlət orqanları ilə yanaşı ictimai təşkilatların və cəmiyyət üzvlərinin bu işdə yüksək fəallığı müsbət nəticələrin əldə olunmasına stimul vermişdir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomaniya bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Bu problemin vurduğu zərərin həcmi çox böyük olmaqla həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də onun müxtəlif cinayətlər törətməsinə, həmçinin cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar. Bundan başqa, dünyada transmilli narkoqruplaşmaların fəaliyyətinin genişlənməsinin ciddi təhlükə yaratması, narkotiklərin daşınma marşrutunun, tutulan şəxslərin vətəndaşlığının, narkoqaçaqmalçılıq hallarının bir neçə dövlətin ərazisini əhatə etməsi və digər hallar bu cinayətlərə qarşı beynəlxalq mübarizənin zəruriliyini şərtləndirmişdir. Sirr deyil ki, Avropa və Asiya qitələrinin qovşağında yerləşən Azərbaycanın coğrafi-strateji mövqeyi onun ərazisindən narkotiklərin tranzit daşınması üçün əlverişli olduğundan, təbii olaraq bu marşrutdan istifadə olunmasına mütəmadi cəhdlər göstərilir. Fəqət onların cəhdlərinin qarşısı qətiyyətlə alınır və alınacaqdır. Ümumbəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan yayılması ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrildiyindən, dövlətimiz bütün qüvvə və imkanlarını səfərbər edərək bu bəlanın kökünün kəsilməsi istiqamətində aparılan beynəlxalq mübarizəyə qoşulmuş, bu sahədə həyata keçirilən işlər çərçivəsində zəruri qanunvericilik bazası yaradılmış və institusional islahatlar həyata keçirilmişdir. Bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilməklə bərabər, həmçinin qlobal bəla ilə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak da intensiv

xarakter almışdır. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuşdur. Ölkəmizdə beynəlxalq standartlara uyğun milli normativ hüquqi baza yaradılmış və qanunvericilik sistemi təkmilləşdirilmiş və bu istiqamətdə xeyli işlər görülmüşdür. Təsadüfi deyil ki, ölkəmiz 1998-ci ildə BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyalarına qoşulmuşdur. Azərbaycan BMT-nin narkotik vasitələr və psixotrop maddələrlə mübarizə ilə əlaqədar konvensiyalara qoşulduqdan sonra da bu sahədə çoxsaylı qanunvericilik aktları qəbul olunmuşdur. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən, 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə Günü" kimi qeyd olunduğu üçün hər il həmin gün ayrı-ayrı dövlətlərin bu sahədə müsbət nəticələrə nail olması, ümumbəşəri problemlə mübarizə üsulları və narkomanlığın müalicə metodlarının təkmilləşdirilməsi barədə beynəlxalq fikir mübadiləsi aparılır. Azərbaycan tərəfinin bir sıra dövlətlər və beynəlxalq qurumlarla birgə fəaliyyəti və sıx əməkdaşlığı da uğurla həyata keçirilir. Bu dəhşətli bəlaya qarşı dövlətlərin birgə mübarizəsində Azərbaycanın mühüm rol oynamasının göstəricilərindən biri də məhz sözügedən mövzuda beynəlxalq konfranslara ev sahibliyi etməklə hər bir dövlətin malik olduğu imkanların təqdimatına, təcrübənin bölüşdürülməsinə və birləşdirməsinə yol açmasıdır. Bakıda baş tutan tədbirlər iştirakçı dövlətlərin hüquq-mühafizə orqanları, regional və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə doğru atılan mühüm addımlar olmaqla, beynəlxalq problemə çevrilmiş narkotiklərin qanunsuz yayılmasının qarşısının alınmasında maraqlı tərəflərin qətiyyətini daha da artırır. 2004-cü ilin yanvar ayında Bakıda keçirilmiş "Böyük İpək Yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusundakı beynəlxalq konfransın iştirakçılarına müraciətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev vurğulamışdır: "...Coğrafi mövqeyindən, ictimai-siyasi quruluşundan, inkişaf səviyyəsindən, iqtisadi vəziyyətindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Bu, bir daha göstərir ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin səmərəliliyi üçün birgə səylərlə ciddi, kəskin, barışmaz və ardıcıl tədbirlərin həyata keçirilməsi olduqca zəruridir...". Ölkə başçısı cənab İlham Əliyev İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin hüquq-mühafizə orqanları rəhbərlərinin 2009-cu il aprel ayının 21-də Bakıda keçirilən konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunda beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha xüsusi vurğulayaraq demişdir: "... Terrorizm, separatizm, silahların və narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılması kimi cinayətlər transmilli xarakter daşıdığından dövlətlərin birgə dinc yanaşı yaşamasına ciddi təhlükə yaradır. Ona görə də xalqlarımızın ümumi rifahına nail olmaq, təhlükəsizliyi təmin etmək məqsədi ilə sosial-iqtisadi, siyasi tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi də vacibdir...".

Qeyd olunmalıdır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə müvəffəqiyyətlə davam etdirən dövlət başçısı cənab İlham Əliyevin yüksək elmi təfəkkürünün, müdrikliyinin, uzaqgörənliyinin, yenilməz iradəsinin və gərgin fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti nəticəsində ildən ilə daha da qüdrətlənən dövlətimiz narkomanlığa, eləcə də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı bugün də uğurlu mübarizə aparır. Bu mübarizədə möhtərəm cənab Prezidentin 2007-ci il 28 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə 2007–2012-ci illər üçün Dövlət Proqramı"nın, 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı"nın uğurla həyata keçirilməsinin əvəzsiz rolu olmuşdur. Xüsusi vurğulanmalıdır ki, ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı tədbirlərin icrası məqsədilə hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın müvəffəqiyyətlə icra olunması bu sahədə uğurlu nəticələrin əldə edilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir.

Qeyd edilməlidir ki, 2005-ci ildə qəbul olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, həmçinin "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə", eləcə də "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların" siyahılarının təsdiq edilməsi haqqında qanunlar sözügedən məsələlərlə əlaqədar dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini daha dəqiq müəyyənləşdirməklə, bununla əlaqədar mövcud ictimai münasibətlərin hüquqi tənzimlənmə mexanizminin səmərəliliyini artırdı və beləliklə əvvəlki dövrlərdə təcrübədə yaranmış problemlər birdəfəlik öz həllini tapdı.

Hər kəsə məlumdur ki, insan amili dövlət siyasətinin əsasını təşkil edir. Cənab Prezident İlham Əliyev həyata keçirilən siyasətin mərkəzində vətəndaşın dayandığını hər zaman xüsusi vurğulayır. Azərbaycanın gələcəyi olan gənclərimizə isə diqqət və qayğı daha qabarıq sezilir. Ardıcıl şəkildə qəbul olunan Dövlət proqramları gəncliyin inkişafına, onların potensial imkanlarının genişləndirilməsinə öz müsbət təsirini göstərmişdir. Gənclərin hərtərəfli püxtələşməsi məqsədilə onlarda idmana olan marağın artırılmasında, mədəni-kütləvi tədbirlərin sayının artırılmasında, bununla əlaqədar müxtəlif komplekslərin, o cümlədən olimpiya idman komplekslərinin inşa olunmasında məqsəd sağlamlığın təmin edilməsi ilə yanaşı, insanların belə ağır fəsadlar törədən vərdişlərdən uzaqlaşdırılmasına nail olmaqdır.

Bu sahədə qətiyyətli mübarizənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə gənc nəslin sağlamlığının qorunması və onların hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin də olduqca əhəmiyyətli olması xüsusi vurğulanmalıdır.

Narkotik asılılıq dünyada müxtəlif əhali qrupları arasında geniş yayıldığına görə sırf tibbi problemdən sosial problemə çevrilmişdir. Problemin həllinə xidmət edən mühüm addımlardan biri hər zaman qeyd edildiyi kimi, preventiv tədbirlərin görülməsi, o cümlədən maarifləndirmə işinin lazımi səviyyədə qurulmasıdır. Əsas məqsəd yeniyetmələrimizin və gənclərimizin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaqdır. Zənnimcə narkomaniyanın profilaktikası ailə və məktəbdən başlanmalıdır. Təbii ki, əsas məqamlardan biri valideynlərin düzgün həyat tərzi keçirməklə övlada örnək olmasıdır. Valideynlərin uşaqlarının narkomaniyadan qorunmasında bu profilaktikanın müstəsna rolu vardır. Bununla bərabər, valideynlə övlad arasında qarşılıqlı inamın olması da vacib şərtdir. Təcrübədə yeniyetmələrin və gənclərin pis vərdişlərə və təhlükəli işlərə daha çox meylli olmalarını nəzərə alaraq, hesab edirəm ki, narkomaniyanın qarşısını almağın digər əlverişli yolu təhsil müəssisələrində, xüsusən də, məktəblərdə onun profilaktikasının aparılmasıdır. Belə ki, elm ocaqlarında azyaşlılar, yeniyetmələr və gənclər arasında narkomaniyanın profilaktikası mütləq və aydın başa düşüləcək tərzdə həyata keçirilməli, görülən tədbirlər onlar tərəfindən çox ciddi qəbul olunmalı və birmənalı olaraq onlarda narkotiklərdən uzaq durma mövqeyinin formalaşdırılması ilə nəticələnməlidir. Narkomaniyaya qarşı profilaktika sistematik olmalı və kütləvi xarakter daşımalıdır. Uğurlu profilaktika mühazirələr söylənilməsi, müsahibə aparılması sair yollarla mümkündür.

Sevindirici haldır ki, bugün hər bir dövlət orqanı və qurumu, həmçinin müvafiq təşkilatlar üzərinə düşən vəzifələri tələb edilən səviyyədə yerinə yetirməklə qarşıya qoyulan məqsədlərə tam nail olmağa töhfələr verməyə çalışırlar ki, bu da təbii olaraq öz müsbət nəticələrini göstərməkdədir.

Hərbi Prokurorluq orqanlarının fəaliyyəti də aidiyyatı dövlət qurumları ilə birlikdə səmərəli işgüzar əlaqələr yaratmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığının təmin edilməsinə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, cinayətkarlığa, eləcə də digər qanunazidd əməllərə, o cümlədən sözügedən ümumbəşəri problemə qarşı mübarizəyə yönəlmişdir.

Hesab edirəm ki, bu bəla ilə mübarizədə vətəndaşlar da əllərindən gələni əsirgəməməli, xüsusən də ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməlidir. Sağlam düşüncəli insanlar dərk edirlər ki, narkomaniya cinayət, ailələrin dağılması, çarəsiz xəstəlik, ölüm və sair bu kimi digər ağır nəticələrə gedən yolun başlanğıcı olmaqla təkcə hər hansı bir fərd üçün deyil, eyni zamanda bütün cəmiyyət üçün böyük təhlükədir.

Odur ki, insanların sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin harmoniyasını pozan, sosial-iqtisadi tərəqqini ləngidən, bir sözlə həyatı iflic edən narkomanlığa münasibətdə hər birimiz barışmaz mövqe tutmalı və ümumbəşəri bəlaya qarşı qətiyətli mübarizə aparmalıyıq.

**Firad Əliyev,**
*Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, ədliyyə müşaviri, hüquq üzrə magistr.*

# Dövlət ittihamının müdafiəsi sahəsində keyfiyyətin artırılması perspektivləri: məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi fonunda milli qanunvericilik və beynəlxalq təcrübə prizmasından

Müxtəlif ölkələrdə prokurorların cinayət hüquq sistemində statusu fərqli olmasına baxmayaraq, bütün dövlətlərin hüquq ənənələrində dövlət ittihamçısının cinayət mühakiməsinin həyata keçirilməsində əhəmiyyətli rolu, habelə böyük gücü və öhdəlikləri mövcuddur. Dürüst, müstəqil və tərəfsiz (qərəzsiz) dövlət ittihamını müdafiə edən prokurorun iştirakı olmadan bu sahədə qanunun aliliyi və insan hüquqlarının müdafiəsini təsəvvür etmək mümkün deyildir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.23-cü maddəsinə əsasən prokuror öz səlahiyyətləri daxilində həmin Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir.

Dövlət ittihamçısı hakimiyyət nümayəndəsi olmaqla, cəmiyyətin maraqları naminə dövlətin adından insan hüquqlarının qorunması və effektiv cinayət təqibinin həyata keçirilməsini təmin etmək şərti ilə məhkəmədə ittihamı müdafiə edən şəxsdir. Yəni dövlət ittihamçısı cinayət prosesi iştirakçılarının hüquqlarının qorunmasının təminatçısı olmaqla yanaşı, həm də cinayət törətməkdə təqsiri olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün məhkəmədə cinayət təqibini həyata keçirən şəxs rolunu oynayır.

Prokurorlar açıq məhkəmə iclaslarında ittihamı müdafiə edərək dövləti təmsil etməklə hədsiz məsuliyyət daşıyırlar və ictimaiyyətin onlardan böyük gözləntiləri vardır. Belə ki, hakimlər dövlət ittihamçısından yüksək səviyyədə hüquqi bilik, sübutetmə və etik davranış, istintaq orqanları ibtidai istintaqını tamamladıqları cinayət işləri üzrə məhkəmə istintaqında ittihamın keyfiyyətli müdafiə edilərək ittiham hökmünün çıxarılmasını, zərər çəkmiş şəxslər onlara vurulmuş maddi və mənəvi ziyanın ödənilməsi, sosial ədalətin bərpası ilə bağlı tələblərinə həssas yanaşılmasını, müdafiə tərəfi, o cümlədən təqsirləndirilən şəxslər sübutların tam, hərtərəfli və obyektiv qiymətləndirilməsi, əməlin düzgün tövsif edilməsi və barəsində təklif edilən cəzanın ədalətli olmasını gözləyirlər. Bunun üçün dövlət ittihamçıları daim öz üzərlərində çalışmalı, həm hüquqi, həm praktiki cəhətdən bacarıqlarını inkişaf etdirməli, etik davranış qaydalarına riayət etməli, istintaqa nəzarət edən prokurorluğun struktur qurumları ilə əlaqəli şəkildə işləməyi bacarmalıdırlar. Heç kim ittihamçıdan öz hüquqi biliyi və təcrübəsindən kənar bacarıqlar nümayiş etdirməsini tələb etmir. Cinayət-Prosessual Məcəlləsi müxtəlif peşə sahələrində xüsusi bilik və bacarıqlara malik olan ekspert və mütəxəssislərin, eləcə də cinayət prosesində iştirak edən digər şəxslərin hüquq və vəzifələrini artıq müəyyən etmişdir. İttihamçının icraatında olan cinayət işlərinin sayının çoxluğu və həmin cinayətlərin subyekt, subyektiv cəhət, obyekt və obyektiv cəhətlərinin bir-birindən kəskin şəkildə fərqlənməsi ilk növbədə prokurorlardan həmin işlərin düzgün idarəedilməsi və uçotunun aparılmasını tələb edir. Eyni zamanda, həmin cinayət işlərinin əvvəldən diqqətlə öyrənilməsi, hazırlıq iclasından qabaq birgə müzakirə olunması, hər bir məhkəmə iclasına qabaqcadan hazırlaşaraq, iclaslarda müvafiq qeydlərin aparılması da dövlət ittihamının keyfiyyətli müdafiəsinin təminat şərtlərindəndir.

Birləşmiş Millətlər Təşkilatının «Cinayətlərin qarşısının alınması və məhkumların islah olunması haqqında» 1980-ci ildə keçirilmiş 6-cı Konqresində prokuror fəaliyyəti ilə bağlı beynəlxalq standartların müəyyən olunması zəruriliyi vurğulanmışdır. Konqres Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinin tələblərinin düzgün tətbiq edilməsi məqsədi ilə ədalətli seçilmiş və xüsusi biliyə malik hakim və prokuror bazasının formalaşdırılması zərurətini qeyd etmişdir:

*«Üzv Dövlətlər tərəfindən cinayət prosesinin bütün mərhələlərində məsul qurumlar, ixtisaslaşmış, özü və üçüncü şəxslərin maraqlarından asılı olmadan vəzifələrinin icrasını həyata keçirən əməkdaşlarla təmin edilməlidir».*

Birləşmiş Millətlər Təşkilatının 7-ci Konqresində isə prokurorların qərəssizliyinin əhəmiyyəti, eləcə də onların heç bir ayrı-seçkiliyə məruz qalmadan seçilməsi və ya vəzifəyə təyin edilməsinin vacibliyi

bəyan edilmişdir. Həmçinin, Konqresdə prokurorların seçilməsi, statusu, cinayət prosesində rolu, vəzifə və hüquqları, ixtisaslarının artırılması, davranış qaydaları, cinayət təqibinin həyata keçirilməsində effektiv fəaliyyətləri üçün vasitələrin müəyyən edilməsi qərara alınmışdır.

*«Prokurorluq bütün prokurorların məhkəmələrin müstəqilliyinə hörmətlə yanaşmaları və dəstəkləmələri məqsədi ilə müvafiq tədbirlər görməlidir»*[1]

Birləşmiş Millətlər Təşkilatının «Cinayətlərin qarşısının alınması və məhkumların islah olunması haqqında» 8-ci Konqresində «Prokurorların rolu haqqında» Qaydalar («Havana Qaydaları») qəbul olunmuşdur. Məqsədi isə belə müəyyən olunmuşdur:

*«Bu Qaydalar ... prokurorların cinayət prosesində effektiv, qərəzsiz və ədalətli fəaliyyətinin təmin edilməsi üçün Üzv Dövlətlərə kömək etmək məqsədi ilə yazılmışdır və prokurorlarla yanaşı, hakimlər, digər hüquqşünaslar, icra və qanunvericilik orqanları və ictimaiyyətə təqdim olunmalıdır.»*

## Dövlət ittihamçısının peşə səviyyəsi

Müasir texnologiyaların inkişafı, insanların dünya görüşü və tələbatları artdıqca, cinayətlərin təbiəti və törədilmə üsulları, habelə cəzaların növü və tətbiq edilmə qaydaları da daim dəyişməkdədir. Bundan başqa, artıq hamıya məlumdur ki, yalnız repressiv vasitələrlə cinayətkarlıqla mübarizə aparmaq mümkün deyildir. Bunun üçün preventiv tədbirlərin tətbiqi, məhkumların islah olunmasına yönələn cəzaların təyin edilməsi zəruri amillərdən birinə çevrilmişdir. Bununla əlaqədar olaraq, dövlət ittihamçısının bilik və təcrübəsi həm qanunvericilk sisteminə, o cümlədən sahəvi hüquq normalarına edilən dəyişikliklərə, həm də cəza siyasətində humanizm və preventiv yanaşma tərzinə cavab verməlidir.

Odur ki, daim dəyişən qanunvericilik aktları, Konstitusiya Məhkəməsi və Ali Məhkəmənin Plenum qərarları, eləcə də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının prokurorluq orqanlarının tədris məşğələlərində öyrənilməsi və işlərində tətbiqi təmin edilməli, beynəlxalq təşkilatların prokurorların rolu və statusu ilə bağlı tərtib etdikləri metodik vəsaitlər, xarici ölkələrin müsbət təcrübəsi öyrənilməli, ölkədaxili və beynəlxalq seminar və konfranslarda iştirakları təşkil edilməlidir.

Prokurorlar dövlət ittihamını müdafiə edərkən vaxtında qərar qəbul etmək qabiliyyətlərini, yüksək bilik və bacarıqlarını nümayiş etdirməlidirlər. Dövlət ittihamçısının nəzəri biliyi o səviyyədə olmalıdır ki, məhkəmə iclası gedişində tərəflərin verdikləri bütün vəsatətlərə qanunvericiliyə uyğun və vaxtında öz münasibətini bildirə bilsin.

## Dövlət ittihamçılarının müstəqilliyi

İlk növbədə dövlət ittihamçısının öz funksiyalarını heç bir qeyri-qanuni müdaxilə, hədə-qorxu, təzyiq və ya hər hansı əsassız intizam, mülki və ya digər məsuliyyətə məruz qalmadan həyata keçirməsi üçün bütün lazım olan şərait təmin olunmalıdır. Dövlət ittihamçısına bütün göstərişlər yazılı şəkildə edilməlidir. Dövlət ittihamçısı müstəqil və ədalətli qərar qəbul etməsi üçün bütün imkanlara, o cümlədən ittihamdan imtina etmək səlahiyyətinə malik olmalıdır. Lakin bu müstəqillik tamamilə «muxtariyyət» anlamına gəlməməli, prokurorun effektiv və şəffaf fəaliyyəti üçün əsas şərtlərdən biri olan- hesbatlılıq prinsipi ilə birgə həyata keçirilməlidir. Yəni dövlət ittihamçısının öz fəaliyyətini müstəqil həyata keçirməsi ilə yanaşı, gördüyü işlərə dair hesabat verməsi, onun fəaliyyətinin vaxtaşırı monitorinqinin aparılması da vacib amillərdən biridir. Unutmamalıyıq ki, dövlət ittihamçısının müstəqilliyi yalnız qanunun aliliyi, etik davranış və vicdanlı xidmət şəraitində həyata keçirildiyi halda qərəzsiz, şəffaf və etibarlı prokurorluq sisteminin təminatçısı kimi çıxış edə bilər. Buna görə də, ancaq qeyd edilən tələblərə cavab verən müstəqillik dövlət ittihamı müdafiəsinin fundamental komponenti rolunu oynaya bilər. Əks halda bu müstəqillik vəzifə səlahiyyətlərindən sui-istifadə, süründürməçilik və s. mənfi nəticələrə səbəb ola bilər.

Bəzi ölkələrdə prokurlar hakimlərlə eyni statusda olmaqla, hər birinin fərdi müstəqilliyi mövcuddur. Belə ölkələrdən biri kimi İtaliyanı misal göstərmək olar.

Bəzi Roman-German hüquq sistemi ölkələrində (məsələn, Fransa, İtaliya, Tunis) prokurorluq məhkəmə hakimiyyətinə aiddir. Həmin ölkələrdə prokurorlar məhkəmə hakimiyyətini həyata keçirməsələr də, onların hüquqi statusu hakimlərin müstəqilliyini qoruyan hüquq normalarından yararlanmağa imkan verir.

1 «Cinayətlərin qarşısının alınması və məhkumların islah olunması haqqında» Birləşmiş Millətlər Təşkilatının 7-ci Konqresi, Milan.

Hansı ölkələrdə ki, prokurorlar öz fəaliyyətlərində tam müstəqildirlər, onlar özlərində daha böyük məsuliyyət hiss edirlər.[2]

Ölkəmizdə prokurorluq işçilərinin müstəqilliyi qanun normaları ilə təsbit edilmişdir və bu, onların iştirak etdikləri ədalət mühakiməsinin məqsədlərinə çatmasında əsas prinsiplərdən biridir. "Prokurorluq haqqında" Qanunun 36-cı maddəsinə əsasən, prokurorluq işçisi xidməti fəaliyyətində müstəqildir.

Cinayət Prosessual Məcəlləsinin 84.1-ci maddəsinə əsasən cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur.

Eyni zamanda CPM-nin 314.2-ci maddəsində qeyd edilmişdir ki, məhkəmə baxışı zamanı dövlət ittihamçısı qanunun tələblərini və məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslanan öz daxili inamını rəhbər tutur. Məhkəməyədək icraat zamanı təqsirləndirilən şəxsə elan edilmiş ittiham məhkəmə baxışı zamanı təsdiq edilmədikdə, o, həmin ittihamdan imtina etməyə haqlıdır.

Beləliklə, qeyd olunan qanun normalarından göründüyü kimi dövlət ittihamçısının xidməti və prosessual fəaliyyətində müstəqilliyi qanunvericiliklə tam təsbit edilmişdir.

**Avropa Şurasının prokurorların statusu ilə bağlı meyarları**

Avropa Şurasının «Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında» REC(2000)19 nömrəli Tövsiyyələrində göstərmişdir ki, Dövlətlər prokurorların öz xidməti vəzifələrini və öhdəliklərini tələb olunan hüquqi və texniki təminatın, xüsusən də büdcə vəsaitinin mövcud olduğu şəraitdə həyata keçirmələri üçün effektiv tədbirlər görməlidir. Bu şərait prokurorluğun nümayəndələrinin yaxından iştirakı ilə müəyyən edilməlidir.

Prokurorlar da, hakimlər kimi statusları və təşkilati (maddi-texniki) təminatı və resursları, o cümlədən şəxsi heyət, iş yeri, nəqliyyat vasitələri və ya sadəcə adekvat büdcə vəsaitləri olduğu halda özlərinin vəzifələrini və xidməti öhdəliklərini layiqincə yerinə yetirə bilərlər. Prokurorluğun nümayəndələri ilə bu tələblər haqqında məsləhətləşmək, əsas tələbatın nədən ibarət olduğunu müəyyən etməyin əsas yoludur.[3]

**Hesabatlılıq prinsipi**

Qeyd olunduğu kimi dövlət ittihamçısının müstəqilliyi onun hesabatlılıq prinsipinə xələl gətirməməlidir. Bu baxımdan, həm cinayət işinin hazırlıq iclasınadək öyrənilməsi, həm cəza istənilməsi, həm də protest verilib-verilməməsi məsələlərinin dövlət ittihamçısı tərəfindən əsaslandırılmaqla, işlədiyi struktur qurumun rəhbərliyi ilə müzakirə olunması qəbul edilmiş qərarın daha ədalətli olmasına xidmət edəcəkdir. Həmin müzakirələr eyni zamanda, dövlət ittihamçısının qanunun tələbləri və daxili inamına əsaslanan gəldiyi nəticələrə və qərarlarına mənfi təsir göstərməməlidir. Belə ki, icraatında olan cinayət işi üzrə dövlət ittihamını müdafiə edən prokuror cinayət prosesinin iştirakçıları, o cümlədən təqsirləndirilən və zərər çəkmiş şəxslə birbaşa təmasda olmaqla, onların şəxsiyyəti və səciyyələndirən digər halları, işin maddi və prosessual normaları ilə bağlı daha geniş məlumata malik olur. Həmçinin dövlət ittihamçısının qərar qəbul etmək səlahiyyətinə yuxarı prokuror tərəfindən hər hansı bir müdaxilə və ya əvəzindən qərar qəbul edilməsi, onun məsuliyyət hissi və cinayət prosesində rolunun əhəmiyyətinin azaldılmasına, qərar qəbul etmək qabiliyyətinin zəiflədilməsinə gətirib çıxara bilər.

**Dövlət ittihamçılarının dislokasiyası**

Dövlət ittihamçısı «paslanmaması» üçün uzun müddət eyni məhkəmədə, o cümlədən eyni hakimin baxdığı cinayət işləri üzrə ittihamı müdafiə etməməli, mümkün qədər eyni vaxtda bir neçə hakimlə cinayət işlərinin baxılmasında iştirak etməlidir. Bundan başqa, bir və ya iki ildən bir ittihamçıların dislokasiyasının dəyişdirilməsi də dövlət ittihamçısının dinamikliyinin və işin keyfiyyətinin artmasına səbəb olan amillərdən biridir. Dislokasiya dəyişdirilərkən prokurorun yalnız eyni instansiyada deyil, müxtəlif instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsini həyata keçirmələri, onların təcrübələrinin və işə yanaşma tərzinin inkişafına səbəb olur. Qeyd edilən dəyişikliklər həyata keçirilərkən, dövlət ittihamçısının bilik, bacarıq və təcrübəsi, habelə hakimlərin iş yükü nəzərə alınmalıdır. Həmçinin, aparılan dəyişikliklər bir cinayət işinin bir neçə dövlət ittihamçısı tərəfindən müdafiə edilməsi, məhkəmələrdə işin pozulması hallarına,

2 Avropa Şurasının «Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında» REC(2000)19 nömrəli Tövsiyələri, səh.23

3 Yenə orada, səh.4

habelə dövlət ittihamçısının həmin məhkəmədə fəaliyyətinin müvəqqəti xarakter daşıması, qısa müddətli işə təyin edilmə təəssüratının yaranmasına səbəb olmamalıdır.

**Dövlət ittihamçısının davranışı**

Dövlət ittihamçısı Prokurorluğun Etik Davranış Kodeksinin tələblərinə dönmədən əməl etməlidir. Etik davranış kodeksi formal xarakter daşımamalı, dövlət ittihamçısı onun qoyduğu qaydalara riayət etməklə, xidmət etdiyi dövrdə öz davranışını kodeksin tələblərinə uyğun tənzimləməlidir.

Zərər çəkmiş və şahidlərlə ünsiyyətdə olarkən dövlət ittihamçısından həssas yanaşma və anlayış, habelə öz vəzifələri və məsuliyyətini dərk etmək qabiliyyəti tələb edilir. Törədilmiş cinayət, təyin edilən cəza, şəxsin azadlıqdan məhrum edilməsi, habelə ibtidai istintaq və məhkəmə istintaqı zamanı həyata keçirilən cinayət təqibi bir çox insanın həyatına böyük təsir göstərir. Buna görə də, belə problemlərlə üzləşmiş vətəndaşlarla işləyən dövlət ittihamçısı onlarla bağlı hər bir məsələyə həssas yanaşmalı, şikayətlərinin səbəb və məqsədini təhlil edərək onların qanunvericiliyin tələblərinə uyğun həlli üçün bütün vasitələrdən istifadə etməlidir.

Müasir media ənənəvi qəzet, radio və televiziya buraxılışları ilə kifayətlənməyərək, bloqerlər, veb-səhifələr, sosial şəbəkələr və digər artan texnoloji üstünlüklər vasitəsilə nəinki peşəkar jurnalist, hətta özünü həvəskar jurnalist adlandıran şəxs və ya sadə vətəndaş tərəfindən istənilən səs yazısı və ya video görüntünü əldə edib bir saniyə ərzində bütün dünyaya yayımlamaq imkanı yaradır. Buna görə də, açıq məhkəmə iclaslarında iştirak edən dövlət ittihamçısı hər zaman bu çağırışlara hazır olmalı, iştirak etdiyi hər bir məhkəmə iclasına hazırlıqlı gəlməli, həm məhkəmə zalı, həm də ordan kənarda öz çıxış və davranışına daim nəzarət etməlidir.

Mütəmadi monitorinqlərin keçirilməsi dövlət ittihamçısının etik davranış kodeksinin tələblərinə əməl etməsi vəziyyətinin yoxlanılmasının ən optimal yoludur.

**Dövlət ittihamçısının intizam məsuliyyəti**

Yuxarıda qeyd olunduğu kimi dövlət ittihamçısının müstəqilliyi vəzifə səlahiyyətlərindən sui-istifadə və süründürməçiliyə gətirib çıxarmamalıdır. Bunun üçün bir sıra preventiv tədbirlərlə yanaşı intizam məsuliyyətinin mövcudluğu da bu kimi halların qarşısının alınmasında əsas vasitələrdən biridir. Lakin intizam məsuliyyəti tətbiq edilərkən əsaslandırılmalı, hansı pozuntulara yol verildiyi dəqiq göstərilməli, məsuliyyətə cəlb etmə səbəbləri şəffaf və aydın olmalıdır.

Müxtəlif ölkələrin hüquq sistemlərində xidməti intizam pozuntusuna yol vermiş prokurorlar barəsində fərqli intizam tənbeh növləri tətbiq edilir. «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə əsasən intizam məsuliyyətinin aşağıdakı növləri vardır.

26.1.1. irad tutma;
26.1.2. töhmət;
26.1.3. şiddətli töhmət;
26.1.4. aşağı vəzifəyə keçirmə;
26.1.5. rütbənin aşağı salınması;
26.1.6. vəzifədən azad etmə;
26.1.7. prokurorluq orqanlarından xaric etmə;
26.1.8. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada rütbədən məhrum edilməklə prokurorluq orqanlarından xaric etmə.

Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və Beynəlxalq Prokurorlar Assosasiyasının birgə hazırladıqları «Prokurorların Statusu və Rolu haqqında» Qaydalarda müsbət təcrübə kimi Niderlandın prokurorluq orqanlarında bütün fəaliyyət sahələrini əhatə edən intizam tənbeh tədbirlərinin növləri göstərilmişdir. Həmin tənbeh tədbirləri «Məhkəmə sisteminin təşkili haqqında» Qanunun 34b maddəsində göstərilmişdir:

- Xəbərdarlıq məktubu;
- Məzuniyyət günlərinin azaldılması;
- İstirahət günlərində xüsusi tapşırıqlar;
- Cərimə (maksimum 22 Avro);
- Əmək haqqının hissəvi kəsilməsi;
- Əmək haqqının azaldılması;
- İllik əmək haqqı artımından imtina;
- Xidməti iş yerinin dəyişdirilməsi;
- Əmək haqqı ödənilməklə və ya ödənilməməklə vəzifədən azad etmə;
- Orqandan xaric etmə;[4]

**Cinayət işlərinin idarə edilməsi**

Hər bir dövlət ittihamçısı öz icraatında olan cinayət işlərinin idarəedilməsini, yəni uçotunun

4 The Status and Role of Prosecutors, United Nations Office on Drugs and Crime and International Association of Prosecutors Guide, səh 34

aparılması, məhkəmə iclaslarına dair qeydlərin edilməsi, məruzələrin olunması, aylıq hesabatlarının hazırlanması, protestlərin, məhkəmənin hazırlıq iclasından və baxışdan qaytarılmış cinayət işlərinin, xüsüsi qərarların sayı, verdiyi protestlərin təmin faizinin uçotu, nəzarət icraatlarının vaxtında tərtib edilərək dəftərxanaya təhvil verilməsini bacarmalı, cinayət-prosessual qanunvericiliyin alət və vasitələrindən istifadə edərək işlərin əsassız uzadılması, süründürməçilik hallarının qarşısının alınması üçün lazımi tədbirlər görməlidir.

Dövlət ittihamının müdafiəsinin həyata keçirildiyi cinayət işləri və ya sadələşdirilmiş icraat materiallarının elektron uçotunun aparılması bu fəaliyyət sahəsində hesabatlılıq, şəffaflıq və effektiv xidmətin təminatıdır. Bu baxımdan Baş Prokurorluqda yaradılmış «Elektron Dövlət İttihamı» proqramının mühüm əhəmiyyəti vardır. Təbii ki, dövlət ittihamının müdafiəsi sahəsində keyfiyyət göstəricilərinin inkişafı məqsədi ilə proqramda vaxtaşırı təkmilləşdirmə işlərinin aparılması labüddür.

İşlərin elektron registrinin aparılmasının bir çox, o cümlədən aşağıda göstərilən üstünlükləri vardır:

- Statistik məlumatların əlçatanlığı dövlət ittihamının müdafiəsi sahəsində mövcud vəziyyəti göstərməklə, bu sahədə effektivliyi artırmağa, gələcək yol xəritəsinin müəyyən edilməsinə yardım edir;
- Şəffaflığın artırılmasına kömək edir;
- İşlərin say etibarı ilə dövlət ittihamçıları arasında proporsional bölünməsinə xidmət edir;
- İşlərə baxılma müddətinə nəzarət etmək imkanı yaratmaqla, süründürməçilik hallarının qarşısı alınır;
- Analitik təhlilin aparılmasına geniş imkanlar yaradır;
- Bəraətlər, protestlər, CPM-nin 303, 318-ci maddələrinə əsasən işlərin geri qaytarılması, çıxarılmış xüsusi qərarlar, cəza siyasəti, müxtəlif növ cinayətlər və s. üzrə qısa zaman kəsiyində ümumiləşdirmələrin aparılmasına xidmət edir;
- Prokurorların icraatlarında olan işlərlə oxşar növ cinayətlər üzrə yanaşmanın müəyyən edilməsi, vahid təcrübənin formalaşdırılmasına yardım edir;
- Arxivə təhvil verilmiş cinayət işləri ilə tanış olmaq imkanını sürətləndirir.

### Statistik məlumatların əhəmiyyəti

Statistika – latın sözü olan «status» sözündən əmələ gəlmişdir. Sözün hərfi tərcüməsi hadisələrin vəziyyəti deməkdir. «Stato», yəni «dövlət» bu sözün kökündən əmələ gəlmişdir. Statistika predmetinin əsas xüsusiyyəti, baş verən hadisələrin (kütləvi) kəmiyyət tərəfini müəyyən etmək və onların qanunauyğunluqlarını analitik təhlil etməkdir. Məhkəməyə daxil olmuş, yekun məhkəmə qərarı çıxarılmış, dövlət ittihamçısının vəsatəti ilə prokurora qaytarılmış işlər və digər göstəricilərin günlər, aylar və illər üzrə sayı dövlət ittihamının məhkəmələrdə müdafiə vəziyyəti, bu fəaliyyətin effektivliyi, ibtidai istintaqda mövcud vəziyyət, qarşıya çıxan nöqsan və çatışmazlıqlar, habelə onların aradan qaldırılması yolları ilə bağlı geniş imkanlar yaradır. Bu, eyni zamanda prokurorların iş yükünə uyğun olaraq, məhkəmələr üzrə düzgün bölgüsünə də kömək edir.

Statistik məlumatlardan istifadə edərək dövlət ittihamçılarının və ya ümumilikdə onların şöbələrinin cinayət təqibinin həyata keçirilməsində nailiyyətləri təhlil edilərkən diqqətli olmaq lazımdır. Ədalətli məhkəmə istintaqı aparılmış cinayət işləri üzrə «udmaq» və ya «uduzmaq» meyarları dövlət ittihamçısının fəaliyyətinin qiymətləndirmə vasitəsi olmamalıdır.

### Dövlət ittihamçısının fəaliyyətinin qiymətləndirmə meyarları

Cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir. Hər bir tərəf məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malikdir. İttiham tərəfi cinayət hadisəsinin baş verməsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin əlamətlərinin mövcudluğunu, bu əməlin törədilməsinə təqsirləndirilən şəxsin aidiyyətini, cinayəti törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunmasının mümkünlüyünü sübut edir və əgər şəxsin təqsirliliyi sübuta yetirilərsə, onun əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir.

Buna görə də, dövlət ittihamçısının vəzifəsi təkcə şəxsin təqsirini sübuta yetirmək yox, həm də təqsir sübuta yetirilmədiyi halda ədalətin bərqərar olmasına nail olmaqdan ibarətdir. Məhz bu baxımdan deyə bilərik ki, dövlət ittihamçısı məhkəmədə heç vaxt uduzmayan tərəfdir. Çünki əgər təqsirləndirilən şəxsin törətdiyi əməl sübuta yetirilirsə, o, cinayət məsuliyyətinə məhkum olunmaqla, zərərçəkmişlərin hüquqlarının müdafiə olunmasına, sosial ədalətin bərpa olunmasına nail oluruq. Yox, əgər təqsirləndirilən

şəxsin həqiqətən təqsiri sübuta yetmirsə və bəraət alırsa, onda ittihamçı günahsız bir insanın məhkum olunmasının qarşısını alır.

Bu baxımdan, dövlət ittihamçılarının fəaliyyəti qiymətləndirilərkən hər bir cinayət işinə öz xarakterik xüsusiyyətlərinə uyğun yanaşılmalı, dövlət ittihamçılarının məhkəmə istintaqı zamanı tələb olunan vəsatətləri verib-verməmələri, verilən vəsatətlərə qanunvericiliyin tələblərinə və işin hallarına uyğun münasibət bildirib-bildirməmələri, məhkəmənin yekun qərarına öz təkliflərini qanunvericiliyin tələbləri, o cümlədən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunacaq cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirini nəzərə alıb-almaması təhlil edilməlidir. Bunun üçün hər bir dövlət ittihamçısı məhkəmə iclaslarına dair öz qeydlərini aparmaqla, nəzarət icraatlarına tikilməsini təmin etməlidirlər. Bu qeydlərin aparılması, həmçinin dövlət ittihamçılarının icraatında olan işlərə dair məhkəmə iclaslarının sayı, mahiyyəti və görülmüş işlərlə əlaqədar həm özlərinin, həm də rəhbərlərinin izləmək imkanını asanlaşdırır.

Avropa Şurasının «Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında» REC(2000)19 nömrəli Tövsiyyələrində prokurorluq orqanlarının fəaliyyətində diqqət yetirilməli «beş əsas sahə» müəyyən edilmişdir:

a. Prokurorluğun fəaliyyət prinsipləri və etik davranış qaydaları;
b. Təqsirləndirilən, zərər çəkmiş və şahidlərin konstitusiya və qanunvericiliyin tələblərinə uyğun müdafiəsi;
c. «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiya, xüsusən də 5 və 6-cı maddələri ilə müəyyən olunmuş insan hüquq və azadlıqları;
d. Ədalət mühakiməsi sahəsində əmək, idarəetmə və insan resurslarının təşkili üzrə prinsiplər və təcrübə;
e. Effektiv fəaliyyətə xidmət edən mexanizmlər və materiallar.[5]

**Cinayət işlərinin məhkəmənin hazırlıq iclasınadək öyrənilməsinin əhəmiyyəti**

Hüquq ədəbiyyatında cinayət işinin ilkin öyrənilməsi ilə əlaqədar «prima facie» terminindən geniş istifadə olunur ki, bu da latın sözü olub primus ("ilk, birinci") və facies ("sifət, üz") sözlərindən əmələ gəlmişdir və «ilkin baxış» və ya «ilkin qarşılaşma» anlamını verir. Müasir hüquq elmində «prima facie» (həm cinayət, həm də mülki hüquqda) ilkin yoxlama əsasında işin müdafiə edilməsinə sübutların kifayət etməsi mənasını daşıyır.

Dövlət ittihamçısının fəaliyyəti dövründə ən vacib vəzifələrindən biri cinayət işinin məhkəmənin hazırlıq iclasınadək tam və hərtərəfli öyrənilməsi, cinayət törətmiş şəxsin şəxsiyyətini xarakterizə edən hallar, verilmiş ittihamın işin faktiki hallarına uyğun olub-olmamasının, sübutların kifayət edib-etməməsinin müəyyən olunması, habelə Cinayət-Prosessual Məcəlləsinin 303-cü maddəsində göstərilən digər pozuntu hallarına yol verilib-verilməməsinin aşkar edilməsindən və müvafiq arayışın tərtib edilərək nəzarət icraatına tikilməsindən ibarətdir.

Cinayət işlərinin hazırlıq iclasınadək öyrənilməsi və sübutların verilmiş ittihama kifayət edib-etməməsinin düzgün qiymətləndirilməsi üçün dövlət ittihamçısının hüquqi savadı, məntiqi, istintaq təcrübəsi, istintaqa nəzarət edən prokurorluğun struktur qurumları ilə sıx əlaqəsi, qabaqcadan sübutlarla, o cümlədən maddi sübutlarla tanış olmaq, onların yoxlanılması və qiymətləndirilməsi üçün maddi-texniki təminatı, müxtəlif orqanlara sorğular verilməsi və s. imkan və bacarıqları olmalı və daim onların inkişafı istiqamətində çalışmalıdır.

Hazırlıq iclasına qədər, əvvəlcədən müəyyən edilməsi mümkün olmadığı hallarda isə məhkəmə baxışı zamanı təqdim edilən bütün sübutların mümkünlüyü yoxlanılmalı, yalnız onların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda sübut kimi qəbul edilməlidir. Xüsusən insanların konstitusiya hüquq və azadlıqlarının, yaxud cinayət-prosessual qanunvericiliyin tələblərinin pozulması, zorakılıq, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi və s. yollarla əldə edilmiş məlumatlar, sənədlər və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilməməlidir.

Cinayət-Prosessual Məcəlləsinin 125-ci maddəsində sübutların mümkünlüyünün hədləri müəyyən edilmişdir. Dövlət ittihamçısı məhkəmədə həmin qaydaların pozulması yolu ilə «sübut» əldə edən, habelə həmin «sübut»larla təqsirləndirilən şəxsə it-

5 Council of Europe, Recommendation Rec(2000)19, para. 7.

tiham irəli sürülməsində məsul olan şəxslər barəsində qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülməsi məqsədi ilə hər bir halda məhkəmə tərəfindən xüsusi qərarların çıxarılmasını xahiş etməlidir.

Cinayət işində kifayət qədər sübutlar olmadığı halda cinayət prosessual qanunvericiliyi cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq CPM-nin 289 və 290.3.2-ci maddələrinin və ya 296.2-ci maddəsinin tələblərinə uyğun olmaması əsası ilə işin baxılmasına xitam verilərək, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmasına imkan verir.

Belə ki, CPM-nin 289.3.2-ci maddəsinə əsasən ittiham aktında təqsirləndirilən şəxsin təqsirliliyini təsdiq edən sübutlar göstərilməlidir. Həmin Məcəllənin 289.5-ci maddəsinə əsasən isə ittiham aktı cinayət işi üzrə toplanmış materialları, hətta cinayət işinin vərəqlərinə istinadı əks etdirməlidir. Yəni ittiham aktında göstərilən sübutlar və nəticə hissəsində verilən ittiham cinayət işinə əlavə edilmiş sübutlarla eynilik təşkil etməlidir. Dövlət ittihamçısı tərəfindən uyğunsuzluq aşkar edildiyi təqdirdə məhkəmənin hazırlıq iclasında həmin pozuntu halları qeyd edilməklə, işə xitam verilərək, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə vəsatət verməli, pozuntuya yol vermiş məsul şəxslər barəsində xüsusi qərar çıxarılmasını məhkəmədən xahiş etməlidir.

Cinayət işinin məhkəmənin hazırlıq iclasınadək öyrənilməsinin aşağıdakı müsbət tərəfləri vardır:

- Sübutların məhkəmə baxışınadək öyrənilməsi və yoxlanılması;
- Yalnız qanunvericiliyin tələblərinə uyğun ibtidai istintaqı aparılmış cinayət işlərinin məhkəməyə göndərilməsi;
- Bəraət hökmlərinə qədər pozunutunun aradan qaldırılması;
- Mülki, yaxud inzibati qaydada araşdırılmalı olan mübahisələrin cinayət təqibi yolu ilə araşdırılmasının qarşısının alınması;
- Əsassız məhkumluğun yaranmaması;
- Cəzaçəkmə müəssisələrində məhkumların sayının lüzumsuz yerə çoxalması və penitensiar müəssələrin yüklənməsinin qarşısının alınması və s.

## Dövlət ittihamçısı tərəfindən ittihamdan və ya protest verilməsindən imtina

Cənab Prezident İlham Əliyevin «Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında» 3 aprel 2019-cu il tarixli Fərmanında məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlərin görülməsi tövsiyə edilmişdir.

Dövlət ittihamçısı ədalətli məhkəmə istintaqı zamanı ittihamın sübuta yetmədiyi, təqsirləndirilən şəxs və ya şəxslərin təqsirsiz olduğu müəyyən edildiyi, yaxud cinayət təqibini istisna edən digər hallarda ittihamın müdafiəsini davam etdirməməli, cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq ittihamdan özü imtina etməlidir.

İttihamdan imtina həmin əməlin cəzasız qalması anlamını vermir. İnzibati Xətalar Məcəlləsinin həm prokurora verdiyi nəzarət funksiyası, həm inzibati xətaların dairəsinin genişləndirilməsi, həm də üç ay müddətinədək inzibati həbs və digər alternativ cəzaların müəyyən edilməsi cinayət təqibindən kənar əmələ hüquqi qiymət verilməsinə böyük imkanlar yaratmışdır.

"Repressiyada qənaətcillik" prinsipinə əsasən, inzibati xəta kimi araşdırılmalı məlumatlara cinayət haqqında məlumatların araşdırılması standartlarının tətbiqi yolverilməzdir. Bu, özlüyündə qanunsuzluq, konkret şəxslərin bu və ya digər hüquqlarının pozulması ilə müşayiət olunmaqla yanaşı, dövlətin cinayətkarlığa qarşı səfərbər etdiyi resursların (maliyyə, infrastruktur, işçilərin əməyi və s.) səmərəsiz istifadə edilməsi, cinayətkarlığa qarşı mübarizənin strategiyasının müəyyənləşdirilməsində yanlışlığa səbəb olan statistikanın formalaşmasıdır.[6]

Birləşmiş Millətlər Təşkilatının Korrupsiya Əleyhinə Konvensiyasının 11-ci maddəsinin implementasiya və qiymətləndirilmə qaydalarında göstərilmişdir ki, prokuror cinayət təqibini yalnız mötəbərliyi və mümkünlüyü mövcud olan sübutlar əsasında toplanmış cinayət işləri üzrə həyata keçirməlidir və belə sübutlar olmadığı halda cinayət təqibini davam etdirməməlidir. Prokuror məhkəmədə əmin olmalıdır

6 Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Cinayət təqibinin məhkəməyədək mərhələsində dələduzluq haqqında məlumatlar üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı qanun normalarının, elmi-nəzəri və metodoloji bilgilərin nəzərə alınması vəziyyəti barədə İcmal, səh. 10

ki, verilmiş ittiham möhkəm, lakin ədalətlidir və sübutlardan kənara çıxmamışdır.[7]

Dövlət ittihamçıları qanunvericiliyin tələbləri pozulmaqla əldə edilmiş sübutlar əsasında ittihamı müdafiə etməməli, məhkəmə istintaqı zamanı həmin dəlillərin sübut siyahısından çıxarılmasını məhkəmədən xahiş etməlidirlər.

Zərərçəkmiş şəxsin məhkəmə istintaqı zamanı müdafiə tərəfi ilə barışaraq, prokurora əks tərəfə keçməsi dövlət ittihamının müdafiəsi zamanı böyük çətinliklər yaradan hallardan biridir. Belə ki, ibtidai istintaq dövründə təqsirləndirilən şəxsdən şikayətçi olan zərərçəkmiş şəxsin sonradan məhkəmə istintaqı zamanı ifadəsini dəyişməsi, tanıdığı şahid bazasına təsir göstərməsi bir sıra hallarda dövlət ittihamının müdafiəsi zamanı prokurorun ittiham tərəfində tək qalmasına və bəraət hökmlərinin çıxarılmasına səbəb olur. Lakin ittihamın yalnız təqsirləndirilən və zərərçəkmiş şəxsin ifadələri əsasında verildiyi hallarda belə bəraət hökmlərindən protestlərin verilməsi və cinayət təqibinin davam etdirilməsi heç bir səmərə vermir, əsassız protestlərin sayının artması və təmin faizinin aşağı düşməsinə səbəb olur. Hesab olunur ki, dövlət və ictimai maraqlara toxunmadığı hallarda dövlət ittihamçısı tərəfindən zərərçəkmiş şəxslə təqsirləndirilən şəxsin barışdığı cinayət işləri üzrə çıxarılmış bəraət və ya yüngül cəza təyin edilmiş hökmlərdən protest verilməsi məqsədəmüvafiq deyildir. Belə ki, Cinayət-Prosessual Məcəlləsi cinayətin xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq, dövlət ittihamçısının müdafiə etdiyi ictimai-xüsusi və ictimai ittiham qaydasında həyata keçirilən növlərini fərqləndirməsinə baxmayaraq, cinayətin törədilməsini zərərçəkmiş şəxsin təqdim etdiyi dəlillərdən başqa heç bir sübut təsdiq etmirsə və məhkəmə istintaqı zamanı o, təqsirləndirilən şəxslə barışaraq öz ifadəsi və digər sübutlarını təkzib edirsə, əgər həmin cinayət dövlətin və ya cəmiyyətin maraqlarına ciddi zərər vurması halı yoxdursa, dövlət ittihamçısı həmin iş üzrə bəraət və ya yüngül cəzadan protest verməməlidir.

Ümumiyyətlə dövlət ittihamçısı protest verərkən həm yuxarı prokurorlarla, həm də fikir ayrılığı olduğu hallarda ibtidai istintaqa nəzarət edən prokurorluğun struktur qurumları ilə müzakirələr apardıqdan sonra protestin verilib-verilməməsi ilə bağlı yekun qənatə gəlməlidir. Düzdür prokuror cinayət təqibini həyata keçirərkən cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur. Lakin konkret iş üzrə daxili inamı yaradan zəminlər və müxtəlif yanaşmalar çoxluq təşkil edir. Buna görə də, prokuror yalnız müzakirələrdən sonra qanunun tələblərini və öz daxili inamını rəhbər tutaraq protest verib-verməməsi ilə bağlı qərar qəbul etməlidir.

## Ədalətli cəza siyasətinin dövlət ittihamının müdafiəsində rolu

Dövlət ittihamçısının vəzifəsi yalnız məhkəmədə cinayət işlərini mübahisələndirmək və təqsirləndirilən şəxsin təqsirinin olub-olmamasını sübut etməklə bitmir. Prokuror həmçinin şəxsin təqsiri sübut olunduğu halda ona ədalətli cəza təyin edilməsində də mühüm rol oynayır. Dövlət ittihamının keyfiyyətinin artırılmasında cəza siyasətinin düzgün tətbiqinin mühüm əhəmiyyəti vardır.

Prokuror tərəfindən məhkəmənin yekun qərarına dair təklif zamanı ədalətli və vahid təcrübədən çıxış edən cəzaların istənilməsi dövlət ittihamının müdafiəsi sahəsində əsas amillərdən biridir.

Prokurorlar təqsirləndirilən şəxs barəsində qanunvericilik, habelə törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi imkan verdiyi hallarda azadlıqdan məhrum etməyə alternativ cəzalar təklif etməlidirlər.[8]

Məhz cənab Prezident İlham Əliyevin «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» 10 fevral 2017-ci il tarixli Sərəncamının da əsas məqsədi ədalətli cəza siyasətinin həyata keçirilməsi, qanunvericilik və işin halları imkan verdiyi hallarda alternativ cəzalara üstünlük verilməsi məqsədi daşıyır.

Dövlət ittihamçısı məhkəmənin yekun qərarına, o cümlədən təqsirləndirilən şəxsə təyin ediləcək cəzaya dair öz təkliflərini verərkən, əmin olmalıdır ki, törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin

7 United Nations Office on Drugs and Crime, "United Nations Convention against Corruption: article 11 implementation guide and evaluative framework", para. 159.

8 Handbook of Basic Principles and Promising Practices on Alternatives to Imprisonment (Azadlıqdan Məhrum Etməyə Alternativ Cəza Növlərinin Əsas Prinsipləri və Perspektiv Təcrübəyə dair Təlimat).

olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınmış və vahid cəza siyasətindən çıxış edərək, oxşar cinayətlərə uyğun cəza istənilmişdir.

Dövlət ittihamçısı məhkəməyə təyin ediləcək cəzaya dair öz təklifini verərkən, həmçinin ədalət mühakiməsinin maraqlarını, zərər çəkmiş şəxslərin istəklərini, cinayətin ictimai təhlükəlilik dərəcəsini, sosial ədalətin bərpası və cəmiyyətin müdafiəsini, təqsirləndirilən şəxsin cinayətin törədilməsində rolunu, əvvəllər məhkum olub-olmaması, cinayətin törədilmə şəraiti və bir çox başqa amilləri də nəzərə almalıdır. Dövlət ittihamçısı «sadə çıxış yolu kimi», ağır cəza növünün yuxarı həddini istəməməli, yuxarıda sadalanan faktorları nəzərə almaqla, ədalət mühakiməsinin maraqlarına uyğun cəza siyasəti yürütməlidir.

### Süründürməçiliyin qarşısının alınması

Dövlət ittihamçıları məhkəmə baxışı zamanı ədalətli və obyektiv olmalı, xüsusən də əmin olmalıdırlar ki, cinayət mühakiməsinin ədalətli həlli üçün məhkəmə bütün tələb olunan faktlar və hüquqi arqumentlərlə təmin olunmuşdur.

Prokuror eyni zamanda, səlahiyyətləri çərçivəsində məhkəmə baxışının lüzumsuz yerə uzanmasına imkan verməməli, süründürməçilik hallarının qarşısının alınması məqsədi ilə ittihamın təsdiqi üçün tədqiq edilmiş sübutlar kifayət etdikdə və ya məhkəmə baxışına təqdim edilmiş bütün sübutlar məhkəmə iclasında tədqiq edildikdən sonra ittiham tərəfindən təqdim olunmuş sübutların tədqiqinin baxılmış sübutlarla məhdudlaşdırılması və məhkəmə istintaqının tamamlanması barədə vəsatət verməlidir. Bu səlahiyyətlər prokurora Cinayət-Prosessual Məcəlləsinin 337 və 338-ci maddələrinə əsasən verilmişdir və dövlət ittihamçısı həmin səlahiyyətlərindən istifadə etməklə vətəndaşların haqlı narazılığına səbəb olan uzanan və yorucu məhkəmə proseslərinin qarşısını almaqda haqlıdır. Eyni zamanda, dövlət ittihamçısı yalnız müstəsna hallarda məhkəmə baxışının təxirə salınmasını xahiş etməli, belə halların qarşısının alınması üçün hər bir məhkəmə iclasından sonra növbəti məhkəmə iclasına qədər tələb olunan bütün hazırlıq işlərini vaxtında bitirməlidir.

### Dövlət ittihamçıları ilə hakimlər arasında əlaqə

Ədalət Mühakiməsinin Müstəqilliyi və Bütün Dünyada Sülh Beynəlxalq Asossiasiyasının Məhkəmənin Müstəqilliyinin Minimum Standartları Məcəlləsində[9] göstərilmişdir:

1. Hakimlər şəxsi və substantiv (həqiqi) müstəqilliklərindən zövq almalıdırlar;
2. Həqiqi müstəqillik o deməkdir ki, hakim ədalət mühakiməsini həyata keçirərkən yalnız qanuna və öz vicdanına tabedir.

Hakimlər məhkəmədə tərəflərin bərabərliyi prinsipi və çəkişmə prinsipinə əməl olunmasını təmin etməli, həm ittiham, həm də müdafiə tərəfinə eyni şərtlərlə öz mövqelərini müdafiə etmək imkanı yaratmalıdırlar.

Tərəflərin bərabərliyi prinsipi İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində öz əksini tapmışdır. Tərəflərin bərabərliyi prinsipi müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli məhkəmə baxışı konsepsiyasının bir hissəsidir.[10]

Tərəflərin bərabərliyi prinsipinə əsasən […] hər bir tərəf öz dəlillərini təqdim etmək üçün elə imkana malik olmalıdırlar ki, bu, onları qarşı tərəf qarşısında əlverişsiz şəraitdə qoymasın. […] Bu konteksdən yanaşdıqda, ədalət mühakiməsinə həm diqqət, həm də həssas yanaşmanın əhəmiyyəti artır […].[11]

Hakim tərəfindən cinayət işinin başlanması və yaxud bu məsələnin həlli üçün məhkəmənin israrlı olması ədalət mühakiməsinin əsas prinsiplərindən olan hakimlərin işlərə qərəzsiz baxması və məhkəmə icraatının tərəflərin çəkişməsi əsasında həyata keçirilməsi prinsiplərinə xələl gətirir. Məhkəmə tərəfindən ittiham funksiyalarının həyata keçirilməsi yolverilməzdir.[12]

Dövlət ittihamçıları və hakimlər hakimiyyətin eyni qoluna, yəni məhkəmə hakimiyyətinə aid olmaqla, bəzi ölkələrdə status və bir çox funksiyaları oxşardır. Lakin prokurorları hakimlərlə eyniləşdirmək olmaz və onların arasında mövcud olan gündəlik sıx əlaqə qarşılıqlı hörmət, obyektivlik və prosessual

9 New Delhi Code of Minimum Standards of Judicial Independence, New-Delhi Standards 1982
10 European Court of Human Rights, Delcourt Case, judgement of 17 January 1970, § 28
11 European Court of Human Rights, Bulut v. Austria, judgement of 22 February 1996, § 47
12 Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 265.5-ci maddəsinin və «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun 82.3-cü maddəsinin şərh edilməsinə dair» 15 fevral 2008-ci il tarixli qərarı

tələblərə uyğun həyata keçirilməlidir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi prokurorun statusu, hüquq və vəzifələri, cinayət prosesində rolunu tam müəyyən etmişdir və hakimlərin müstəqilliyi və qərəzsizliyinə şübhə salacaq heç bir norma mövcud deyildir. Dövlət ittihamçıları və hakimlər qanunvericiliyin tələblərinə əməl etməklə məhkəmə prosesi zamanı elə davranmalıdırlar ki, kimin cinayət təqibini həyata keçirdiyi və məhkəməyə çağırılan şəxslərin kimin qarşısına çıxdığı aydın olsun.

Dövlət ittihamçıları məhkəmə hökmlərindən protest vermək və cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq digər hüquqlara malik olmaqla yanaşı, hakimlərin müstəqilliyinə və qərəzsizliyinə hörmətlə yanaşmalıdırlar.

Prokuror ilə hakimin gündəlik ünsiyyətdə olması və yaxşı münasibətləri onların müstəqilliyinə və qərəzsizliyinə təsir göstərməməlidir. Buna görə də, dövlət ittihamçısı qabaqcadan hakimlərlə münasibətini buna uyğun tənzimləməli, hakimlə cinayət-prosessual qanunvericiliyin tələblərindən kənar ünsiyyəti minimuma endirməlidir. Cinayət təqibini həyata keçirən və qanunvericilik normalarının düzgün tətbiq edilməsini təmin edən dövlət ittihamçısı həm məhkəmənin müstəqilliyinə və qərarlarına hörmətlə yanaşmalı, həm də tələb olunduğu hallarda məhkəmənin qərarından protest vermək səlahiyyətini qoruyub saxlamalıdır. Lakin protestlərin verilməsi hakimin fəaliyyətinə süni təsir göstərmək məqsədi daşımamalı, yalnız maddi və prosessual qanunvericik normaları tələb etdiyi halda bu protestlər verilməlidir.

Hakimlər də öz növbəsində başqa bir struktur qurumun nümayəndəsi və prosessual şəxs olan dövlət ittihamçılarına hörmətlə yanaşmalı və onların cinayət təqibini həyata keçirmələri ilə bağlı funksiyalarını öz üzərlərinə götürməməlidirlər. Bundan başqa, hakimlər dövlət ittihamçılarının fəaliyyətinə intizam nəzarətini həyata keçirməkdən çəkinməlidirlər. Əks halda bu dövlət ittihamçısının müstəqilliyinə xələl gətirə bilər. Hakim məhkəmə prosesində pozuntuya yol vermiş dövlət ittihamçısı barəsində yalnız cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun tədbir görməlidir.

Dövlət ittihamçıları ilə hakimlər arasında münasibətlərə təsir edən əsas amillərdən biri də vahid təcrübənin formalaşdırılmasıdır. Vahid cəza siyasəti, dövlət ittihamının müdafiəsi metodikası və məhkəmə təcrübəsi mövcud olduqdan sonra həm prokurorla məhkəmələr arasında fikir ayrılığı, həm də protestlərin sayı azalacaqdır.

**Beynəlxalq əməkdaşlıq**

Dövlət ittihamının müdafiəsi ilə bağlı ayrı-ayrı ölkələrdə formalaşmış müsbət təcrübənin öyrənilməsi və öz fəaliyyətimizdə tətbiq edilməsi üçün beynəlxalq əməkdaşlığın mühüm rolu vardır. Dövlət ittihamının müdafiəsi sahəsində keyfiyyətin artırılması məqsədi ilə prokurorların beynəlxalq konfrans və seminarlarda, eləcə də treyninqlərdə iştirakı, vahid internet şəbəkələri vasitəsi ilə mütəmadi fikir mübadiləsinin aparılması vacibdir. Bu baxımdan, üzvü olduğumuz Beynəlxalq Prokurorlar Asossasiyası və digər beynəlxalq qurumlarla dövlət ittihamının müdafiəsi sahəsində əlaqələrin genişləndirilməsi keyfiyyət göstəricilərinin artmasına səmərəli töhfəsini verə bilər.

**Anar Nəsibov,**
*Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini, baş ədliyyə müşaviri.*

**İstifadə olunan ədəbiyyat:**

1. «Cinayətlərin qarşısının alınması və məhkumların islah olunması haqqında» Birləşmiş Millətlər Təşkilatının 7-ci Konqresinin protokolu, Milan;
2. Avropa Şurasının «Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında» REC(2000)19 nömrəli Tövsiyyələri;
3. The Status and Role of Prosecutors, United Nations Office on Drugs and Crime and International Association of Prosecutors Guide;
4. Council of Europe, Recommendation Rec(2000)19;
5. Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Cinayət təqibinin məhkəməyədək mərhələsində dələduzluq haqqında məlumatlar üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı qanun normalarının, elmi-nəzəri və metodoloji bilgilərin nəzərə alınması vəziyyəti barədə İcmal;
6. United Nations Office on Drugs and Crime, "United Nations Convention against Corruption: article 11 implementation guide and evaluative framework";
7. Handbook of Basic Principles and Promising Practices on Alternatives to Imprisonment;
8. New Delhi Code of Minimum Standards of Judicial Independence, New-Delhi Standards 1982;
9. European Court of Human Rights, Delcourt Case, judgement of 17 January 1970;
10. European Court of Human Rights, Bulut v. Austria, judgement of 22 February 1996;
11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 265.5-ci maddəsinin və «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun 82.3-cü maddəsinin şərh edilməsinə dair» 15 fevral 2008-ci il tarixli qərarı.

# Özünə və yaxın qohumlarına qarşı ifadə verməmək hüququ

Tarixi inkişaf nəticəsində bəşəriyyət beynəlxalq aləm tərəfindən qəbul olunmuş insan hüquq və azadlıqlarının müasir demokratik cəmiyyət üçün vacib olan həçmini müəyyən edərək beynəlxalq hüquqi sənədlərdə təsbit etmişdir. Beynəlxalq aləm tərəfindən qəbul edilmiş mühüm insan hüquqları və azadlıqları icərisində vacib yerlərdən birinidə heç kəsin özünə qarşı ifadə verməyə məcbur edilə bilməməsinin müəyyən edilməsi tutur. Belə ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 16 dekabr 1966-cı il tarixli qətnaməsi ilə qəbul olunaraq 23 mart 1976-cı ildən qüvvəyə minmiş «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt 14-cü maddənin 3-cü hissəsində hər kəsin ona verilən cinayət ittihamına baxılarkən tam bərabərlik əsasında malik olduğu minimum təminatlar icərisində özünə qarşı ifadə verməyə və ya özünü təqsirli bilməyə məcbur edilə bilməməsi hüququnuda nəzərdə tutmuşdur. (1; 57).

Lakin, beynəlxalq aktlardan xeyli əvvəl heç kəsin özünə qarşı ifadə verməyə məcbur edilə bilməməsi hüququ ayrı-ayrı ölkələrin əsas qanununda öz əksini tapmışdır. Hələ 25 sentyabr 1789-cu il tarixdə Amerika Birləşmiş Ştatlarının birinci Konqresi ölkə Konstitusiyasına təklif etdiyi ilk on düzəlişin (bu düzəlişlər «Hüquqlar haqqında bill» adlandırılmışdır) beşincisində heç kəsin cinayət işində özünə qarşı ifadə verməyə məcbur edilə bilməməsi nəzərdə tutulmuşdur. «Hüquqlar haqqında billə» daxil olan düzəlişlər 15 dekabr 1791-ci il tarixdə onların ratifikasiyası başa catdıqdan sonra qüvvəyə minmişlər. (2; 391).

3 noyabr 1946-cı il tarixdə promulqasiya olunaraq 3 may 1947-ci il tarixdən qüvvəyə minmiş Yaponiya Konstitusiyasının 38-ci maddəsinə əsasən heç kəs özünə qarşı şahidlik etməyə məcbur edilə bilməz. Bununla yanaşı, Yaponiya Konstitusiyası həmin maddədə müəyyən etmişdir ki, məcburiyyət altında edilmiş etiraf sübut kimi qəbul edilə bilməz və heç kəs ona qarşı yeganə sübut öz etirafı olduqda məhkum edilə və cəzaya məruz qala bilməz. (3; 434). 26 yanvar 1950-ci il tarixdə qüvvəyə minmə prosesi başa catmış Hindistan Konstitusiyasının 20-ci maddəsinə əsasən cinayətdə ittiham edilən heç bir şəxs özünə qarşı şahid olmağa məcbur edilə bilməz. (2; 452).

04 noyabr 1950-ci ildə imzalanaraq 03 sentyabr 1953-cü ildən qüvvəyə minmiş Avropa İnsan Hüquqları Konvensiyasında özünə qarşı ifadə verməyə məcbur edilməmək xüsusi müddəa kimi nəzərdə tutulmasa da, Avropa İnsan Hüquqları Məhkəməsinin bir sıra qərarlarında qeyd olunmuşdur. Məhkəmənin qərarlarında qeyd olunmuşdur ki, ədalətli məhkəmə baxışı hüququ cinayət ittihamı verilən hər bir şəxsin susmaq və öz təqsirini təsdiq edən ifadə verməmək hüququnu əhatə edir. 17 dekabr 1996-cı il tarixdə qəbul edilmiş Saunders Birləşmiş Krallığa qarşı iş üzrə qərarda məhkəmə göstərmişdir ki, susmaq hüququ və onun tərkib hissəsi olan özünə qarşı ifadə verməmək hüququ Konvensiyanın 6-cı maddəsində xüsusi olaraq qeyd olunmasa da həmin maddədə bəhs olunan ədalətli prosedurun əsasında duran, hamılıqla qəbul edilmiş beynəlxalq normalardır. İspaniya Krallığının 27 dekabr 1978-ci il tarixdə qəbul olunmuş Konstitusiyasının 24-cü maddəsində hər kəsin özünə qarşı şahidlik etməmək və özünü günahkar hesab etməmək hüququ müəyyən edilmişdir. (2; 232).

07 noyabr 1982-ci il tarixdə qəbul olunmuş Türkiyə Respublikasının Konstitusiyasında (Türk Cumhuriyyəti Anayasası) ifadə verməyə məcbur edilə bilməmək hüququ daha geniş şəkildə müəyyən edilərək hər kəsin özünə aid olunmaqla yanaşı onun qanunla müəyyən edilmiş yaxınlarınada aid edilmişdir. Belə ki, Türkiyə Respublikasının Konstitusiyasının 38-ci maddəsində müəyyən olunmuşdur ki, «heç kəs özünü və qanunda göstərilən yaxınlarını təqsirləndirən ifadə verməyə və ya bu yolda dəlil göstərməyə məcbur edilə bilməz». (4; 56).

Rusiya Federasiyasının 12 dekabr 1993-cü il tarixdə qəbul olunmuş Konstitusiyası da bu vacib insan hüququnu geniş şəkildə təsbit edərək, 51-ci maddədə aşağıdakı müddəani nəzərdə tutmuşdur: 1. «Heç kəs özünə, öz həyat yoldaşına və dairəsi federal qanunla müəyyən edilən yaxın qohumlarına qarşı şahidlik etməyə borclu deyildir. Federal qanunla şahid ifadələri vermək vəzifəsindən azad etmənin digər halları müəyyən edilə bilər». (5; 16).

Kırğızıstan Respublikasının əvvəlki, 05 may 1993-cü il tarixdə qəbul olunmuş Konstitusiyası belə bir müddəa nəzərdə tutmurdu, 27 iyun 2010-cu il tarixdə keçirilmiş referendumla qəbul olunmuş yeni Konstitusiyanın 26-cı maddəsinin 5-ci bəndində Rusiya

Federasiyasının Konstitusiyasında nəzərdə tutulmuş müddəa eyni olaraq göstərilmişdir. Kazaxıstan Respublikasının 30 avqust 1995-ci il tarixli Konstitusiyasının 77-ci maddəsinin 3-cü bəndinin 7-ci yarımbəndinə əsasən, heç kəs özünə, ərinə (arvadına), dairəsi qanunla müəyyən edilən yaxın qohumlarına qarşı ifadə verməyə borclu deyil.

Belarus Respublikasının 15 mart 1994-cü il tarixdə qəbul olunmuş Konstitusiyasının 27-ci maddəsinə əsasən heç kəs özünə, öz ailə üzvlərinə, yaxın qohumlarına qarşı ifadə və izahat verməyə məcbur edilməməlidir. Qanun pozuntusu ilə əldə edilmiş sübutların hüquqi qüvvəsi yoxdur. Ukrayna Respublikasının 28 iyun 1996-cı il tarixli Konstitusiyasının 63-cü maddəsinə əsasən şəxs özünə, dairəsi qanunla müəyyən edilmiş ailə üzvlərinə, yaxud yaxın qohumlarına qarşı ifadə və ya izahat (pokazaniə ili obcəsneniə) verməkdən imtina etməyə görə məsuliyyət daşımır. Estoniya Respublikasının 28 iyun 1992-ci il Konstitusiyasının 22-ci maddəsinə görə heç kəs özünə və öz yaxınlarına qarşı şahidlik etməyə məcbur edilə bilməz. Gürcüstan Respublikasının 24 avqust 1995-ci il tarixli Konstitusiyasının 42-ci maddəsinin 8-ci bəndinə əsasən heç kəs özünə və ya dairəsi qanunla müəyyən edilən yaxınlarına qarşı ifadə verməyə borclu deyildir.

Keçmiş SSRİ-yə daxil olmuş bu respublikaların konstitusiyalarında qeyd olunan müddəaların nəzərdə tutulması belə bir nəticəyə gəlməyə əsas vermir ki, bütün ölkələrin əsas qanunlarında bu var. Bir sıra ölkələrin konstitusiyalarında (məsələn, Özbəkistan, Tacikistan, Moldova, Litva, Latviya respublikalarında) özünü və yaxın qohumlarını ifşa etməklə bağlı müddəaya rast gəlmirik.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası qəbul edilənədək bizim qanunvericilikdə özünə və yaxın qohumlarına qarşı ifadə verməmək sərbəstliyi və ya belə ifadənin verilməsinə məcbur edilmənin yolverilməzliyi təsbit olunmamışdır. İnkişaf etmiş dünya ölkələrinin insan hüquqları sahəsində ən mütərəqqi naliyyətlərini özündə birləşdirən, beynəlxalq birliyin insan hüquqlarına dair qəbul etdiyi demokratik norma və tələbləri tam şəkildə əks edirən, 12 dekabr 1995-ci il tarixdə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası digər əsas insan və vətəndaş hüquqları və azadlıqları ilə yanaşı şəxsin özünü və yaxınlarını ifşa etməkdə sərbəstliyində başqa ölkələrdə olduğundan daha geniş olaraq nəzərdə tutlmuşdur. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının «Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi» adlı 66-cı maddəsinə əsasən «heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideyinlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz». Bununla yanaşı, Konstitusiyanın həmin maddəsində göstərilmişdir ki, «əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir». (6; 22).

Lakin, Konstitusiya qəbul olunduqdan sonra müəyyən müddət ərzində əvvəllər qəbul olunmuş cinayət-prosessual qanunvericiliyi qüvvədə qaldığından və bu qanunvericilikdə özünə və yaxın qohumlarına qarşı ifadə verməmək sərbəstliyi təsbit olunmamaqla onun həyata keçirilməsi prosedurları və mexanizmi müəyyən edilmədiyindən və baxmayaraq ki, Əsas Qanunun 71-ci maddəsinin VI bəndinə əsasən Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqlıqları birbaşa qüvvədə idi özünə və yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilməməyə dair normanın müddəalarının tətbiqi ilə bağlı çətinliklər yaranırdı. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında «Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsi ilə əlaqədar Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 67, 70-ci və Cinayət Məcəlləsinin 179, 181-ci maddələrinin şərh edilməsi haqqında» 29 dekabr 1998-ci il tarixli Qərar qəbul etmişdir.

Belə ki, həmin vaxt qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 67-ci maddəsində müəyyən olunmuşdu ki, cinayət işi üzrə hər hansı bir halı bilən şəxs ifadə vermək üçün şahid kimi çağrıla bilər və ona məlum hallar barəsində və müttəhimin şəxsiyyətini xarakterizə edən faktlara dair ifadə verməlidir. 70-ci maddədə isə nəzərdə tutulurdu ki, şahid və zərər çəkmiş şəxs çağırışa gəlməkdən boyun qaçırma və ya ifadə verməkdən imtina etməyə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 181-ci maddəsi ilə, yalan ifadə verməyə görə isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179-cu maddəsi ilə məsuliyyət daşıyır. Azərbaycan Respublikasının Prokurorluğu öz sorğusunda Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsində sadalanan şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179 və 181-ci maddələrində nəzərdə tutulan əməlləri törətdikdə, onların həmin maddələrlə cinayət məsuliyyətinə cəlb olunub-olunmaması məsələsinin şərh edilməsini xahiş etmişdir.

Bununla bağlı Konstitusiya Məhkəməsi qərara almışdır ki, hər hansı bir şəxs özünə, arvadına, (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməkdən imtina etdikdə, habelə onlara qarşı

ifadə verməyə məcbur edilərək qəsdən yalan ifadə verdikdə, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 70-ci maddəsinə və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179 və 181-ci maddələrinə əsasən məsuliyyətə cəlb edilə bilməz. İfadə verməsi məcburi olmayan şəxslərdən hər hansı biri öz razılığı ilə şahid qismində ifadə verərkən, qəsdən yalan ifadə verdiyi halda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179-cu maddəsi ilə məsuliyyətə cəlb oluna bilər. Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinin müddəalarını nəzərə alaraq ifadə verməsi məcbur olmayan şəxslərdən hər hansı biri həmin maddədə sadalanan qohum tərəfindən törədilmiş cinayət haqqında xəbər verilməsinə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 82 və 186-cı maddələri ilə məsuliyyət daşıya bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsi Əsas Qanunun «Əsas hüquqlar, azadlıqlar və vəzifələr» adlı ikinci bölməsinin «Əsas insan və vətəndaş hüquqları və azadlıqları» adlı III fəslində nəzərdə tutulmuşdur. Yəni, bu fəsildə əsas insan və vətəndaş hüquqları və azadlıqları nəzərdə tutulmuşdur və buna görədə fəsildə olan maddələrin əksəriyyətinin adında (ümumiyyətlə qeyd etməliyəm ki, maddələrinin adının olması bizim Konstitusiyanın gözəl xüsusiyyətlərindən biridir və bu heç də bütün ölkələrin əsas qanunlarına xarakterik deyildir, məsələn RF-nın Konstitusiyasında maddələrin adları yoxdur) «hüquq», yaxud «azadlıq» sözü işlənir. Məsələn, maddə 25. Bərabərlik hüququ, maddə 27. Yaşamaq hüququ, maddə 47. Fikir və söz azadlığı, maddə 48 Vicdan azadlığı və sair. Fəslin cəmi bir-neçə maddəsinin adında «hüquq», yaxud «azadlıq» sözü işlənilmir ki, onlardan da biri 66-cı maddədir. Maddə «Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi» adlanır. Maddənin məzmununda da «hüquq», yaxud «azadlıq» sözü işlənilmir. Buradan belə nəticəyə gəlmək olar ki özünə və yaxın qohumlarına qarşı ifadə verməmək həm hüquq, həm də ki, azadlıq kimi qəbul oluna bilər. Təsadüfi deyildir ki, CPM-nin müvafiq maddəsində də (mad.20) «hüquq», yaxud «azadlıq» sözü işlənilmir, maddə isə «Özünü və qohumlarını ifşa etməkdə sərbəstlik» adlanır. Məlum olduğu kimi, hüquq və azadlıqlar bir-birinə çox yaxındırlar, onların həm oxşar, həm fərqli cəhətləri vardır. Oxşar cəhətləri daha çoxdur, fərqli cəhətləri isə davranışın seçimi sərbəstliyinin dərəcəsindədir. Başqa sözlə desək, hüquqda azadlıqdır bir qədər az dərəcədə, yaxud azadlıqda hüquqdur daha geniş səviyyədə. Təsadüfi deyildir ki, Konstitusiyanın azadlıqlara həsr edilmiş maddələrində hüquqdan bəhs olunur. (məsələn 48-ci və 49-cu maddələrin II hissələri).

Fikrimcə, Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsində «hüquq» və ya «azadlıq» sözünün işlədilməməsi onu göstərir ki, heç kəsin özünə və qohumlarına qarşı ifadə verilməsinə məcbur edilə bilməməsini Əsas Qanun həm hüquq, həm də ki azadlıq olmasını mümkün hesab edir. Lakin, qanunda və Konstitusiya Məhkəməsinin qərarlarında bu məsələyə aydınlıq gətirilmişdir. Belə ki, Cinayət-Prosessual Məcəllənin 235.3, 240.4, 328.2.1-ci və digər maddələrində, yeni İnzibati Xətalar Məgəlləsinin 67.3-cü maddəsində özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək sərbəstliyi hüquq kimi göstərilmişdir. Yeri gəlmişkən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 264-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə uyğunluğunun yoxlanılmasına dair» 29 yanvar 2004-cü il tarixli Qərarında da «Konstitusiyanın 66-cı maddəsindəki özünə qarşı ifadə verməmək hüququnun təmin olunması» ifadəsi işlədilmişdir.

Azərbaycan Respublikası Konstitusiyası əleyhinə ifadə verilməsi məcburi olmayan şəxslərə şəxsin özü ilə yanaşı onun arvadını (ərini), övladlarını, qardaşını, bacısını da aid etməklə belə şəxslərin siyahısını bitmiş hesab etməyərək, tam siyahının müəyyən edilməsini müvafiq qanunun üzərinə qoymuş və ifşa etməkdə sərbəstliyi yalnız cinayət təqibi ilə əlaqələndirməyərək bu və ya digər hüquq sahəsinə aid etməklə məhdudlaşdırmamışdır. Bir sıra ölkələrin Konstitusiyalarında (İspaniya, Yaponiya, Hindistan və sair) və Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi «Mülki və siyasi hüquqlar haqqında» beynəlxalq paktda isə, yuxarıda qeyd olunduğu kimi, şəxsin yalnız özünə qarşı ifadə verməməkdə sərbəstliyi müəyyən edilmişdir. Mülki və siyasi hüquqlar haqqında» beynəlxalq paktda, Amerika Birləşmiş Ştatlarının, Hindistanın Konstitusiyalarında isə özünü ifşa etməkdə sərbəstlik hüququ cinayət işləri və cinayətdə ittihamla əlaqədar nəzərdə tutulmuşdur. İspaniya Krallığının Konstitusiyası onlardan fərqli olaraq hər kəsin özünə qarşı şahidlik etməmək hüququnu yalnız cinayət təqibi ilə əlaqələndirməmişdir.

Türkiyə Respublikasının və Rusiya Federasiyasının Konstitusiyaları hər kəsin yalnız özünü deyil, həmdə, müvafiq olaraq yaxınlarını və yaxın qohumlarını ifşa etməkdə sərbəstliyini təsbit edərək, bu hüququn bu və ya digər hallara, o cümlədən cinayət təqibinə aid edilməsi və sair haqqında hər hansı məhdudlaşdırıcı

qeyd, yaxud göstəriş nəzərdə tutmamışlar. Azərbaycan Respublikasının Konstitusiyasıda məsələyə daha geniş mövqedən yanaşaraq, əleyhinə ifadə verilməsi məcburi olmayan şəxslərə həmin şəxsin özündən başqa onun bir sıra qohumlarını aid etməklə yanaşı, bu hüququn cinayət təqibi ilə, yaxud hansısa digər hallar ilə əlaqədar olması barədə hər hansı göstəriş, qeyd, məhdudiyyət müəyyən etməmişdir. Bu isə o, deməkdir ki, özünə və bir sıra qohumlarına qarşı ifadə verilməsinin məcburi olmaması haqqında müddəanı Konstitusiyamız yalnız cinayət təqibi ilə əlaqədar yaranan hüquqi münasibətlərə aid etməyərək, hüququn bu və digər sahəsi üzrə məhdudlaşdırmır. Yəni, özünə və qohumlarına qarşı ifadə verilməsinin məcburi olmaması haqqında Azərbaycan Respublikası Konstitusiyasının müddəası hüququn bütün sahələrinə, o cümlədən cinayət, cinayət-prosessual, inzibati, mülki, mülki-prosessual və digər sahələrinə də aiddir.

Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinin məzmunu qohumlar arasında olan və eyni zamanda ailə münasibətlərindən yaranan, hər bir insan üçün mühüm əhəmiyyət kəsb edən bağlılıq münasibətlərinin dövlət tərəfindən qorunması istəyindən irəli gəlir. Konstitusiyamızın 34-cü maddəsində müəyyən olunduğu kimi, nigah və ailə dövlətin himayəsindədir; analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinin hüquqi əhəmiyyəti ilk növbədə onun əxlaqi dəyərlərə əsaslanmasındadır. Baxmayaraq ki, şəxsin ifadə verməsi bütün hallarda bu və digər hüquqi məsələnin aydınlaşdırılması üçün mühüm əhəmiyyət kəsb edə bilər və dövlət hər bir hüquqi məsələnin, yaxud yaranmış mübahisənin hüquqi cəhətdən düzgün həll edilməsində maraqlıdır (7); o əxlaqi dəyərləri, o cümlədən hər kəsin öz şəxsi mənafeyini və maraqlarını, qohumlar, ailə üzvləri arasında olan etibar, sədaqət, inam və məhəbbəti daha vacib hesab edərək, onlara üstünlük verir, prioritet münasibətlə yanaşır. Göstərilən əxlaqi və mənəvi dəyərlərin itirilmək təhlükəsi qarşısında olması cəmiyyətin özəyi, əsası olan ailənin və qohumluq əlaqələrinin itirilməsinə gətirib cıxara bilər. Konstitusiyada öz yaxın adamlarına – ərinə (arvadına), övladına, valideyninə, qardaşına, bacısına qarşı ifadə verməyin məcburiliyinin qadağan olunması dövlət tərəfindən ailənin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində müəyyən edilən vacib hüquqi təminatlardan biridir. (8; 195).

Azənbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsi iki müddəadan ibarətdir. Maddənin birinci müddəasında heç kəsin özünə, arvadına (ərinə), övladına, valideyninə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməməsi müəyyən edilmişdir. Konstitusiyanın bu maddəsində nəzərdə tutulmuş ikinci müddəa olmasa idi belə nəticəyə gəlmək olardı ki, əleyhinə ifadə verilməsi məcburi olmayan şəxslərin siyahısına əsas qanun şəxsin özünü, arvadını (ərini), övladlarını, valideynlərini, qardaşını, bacısını daxil edərək, bu şəxslərin siyahısını bitmiş hesab edir. Belə nəticənin cıxarılmasına Konstitusiyanın həmin müddəasında «və digər qohumlarına» ifadəsinin nəzərdə tutulmaması əsas vermiş olur. Lakin, əsas qanunun 66-cı maddəsinin ikinci müddəasında nəzərdə tutulmuşdur ki, «əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir». Bu isə o deməkdir ki, əleyhinə ifadə verilməsi məcburi olmayan şəxslərin Konstitusiyada müəyyən edilmiş siyahısı tam deyildir.

Konstitusiyanın 66-cı maddəsinə əsasən «əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir». Göründüyü kimi, əsas qanun əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısının qanunlarla deyil, bir vahid qanunla, yəni bütün hüquq sahələri üçün, o cümlədən mülkü prosessual hüquq, inzibati hüquq, cinayət hüququ, cinayət-prosessual hüquq, digər hüquq sahələri üçün vahid formada müəyyən edilməsini tələb edir. Hazırda isə bu məsələyə hüququn ayrı-ayrı sahələrində fərqli münasibət vardır.

Qüvvədə olan Mülki Prosessual Məcəllənin 104.5-ci maddəsinə müvafiq olaraq şəxs özünə qarşı, ər-arvad bir-birinə qarşı, uşaqlar valideynlərinə, valideynlər uşaqlarına, qardaş və bacılar bir-birinə qarşı, nənə-baba nəvələrinə, nəvələr baba-nənələrinə qarşı ifadə verməkdən imtina edə bilərlər. Bununla yanaşı, Milki Prosessual Məcəllə 104.5.4-cü maddədə Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatlarının vəzifələrini yerinə yetirmələri ilə əlaqədar olaraq, onlara məlum olan məlumatlar üzrə ifadə verməkdən imtina edə bilmələrini də nəzərdə tutmuşdur. MPM-nin 104.5-ci maddəsində əleyhinə ifadə verilməsi imtina edilə bilən şəxslərin siyahısının sonunda «və digər», «və sair» kimi siyahının bitmədiyini ifadə edən sözlərin işlədilməməsi həmin siyahının bitmiş olduğunu söyləməyə əsas verir. Lakin, qeyd etmək lazımdır ki, əleyhinə ifadə verilməsi imtina edilə bilən qohumların siyahısına Mülki Prosessual Məcəllə Konstitusiyanın 66-cı maddəsində sadalanan qohumların siyahısında göstərilmiş eyni şəxsləri daxil etmişdir. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların Konstitusiyanın 66-cı maddəsində göstərilən siyahısı isə əsas qanunun

həmin maddəsinin məzmununa əsasən tam deyildir. Deməli, əleyhinə ifadə verilməsi imtina edilə bilən qohumların MPM-nin 104.5-ci maddəsində nəzərdə tutulmuş siyahısı tam hesab edilə bilməz və əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı bu məcəllədə müəyyən edilməmişdir.

Bundan başqa, Mülki Prosessual Məcəllənin əleyhinə ifadə verilməsindən imtina edilə bilən şəxslərin siyahısını müəyyən edən müddəası şahid ifadəsinə həsr olunmuş 104-cü maddədə nəzərdə tutulmuşdur ki, bu da həmin müddəanın yalnız şahid ifadəsinə aid edildiyi kimi qəbul oluna bilər. Belə bir fikrin yaranmasına həm də o əsas verir ki, Mülki Prosessual Məcəllənin tərəflərə, üçüncü şəxslərə, ərizəçilərə, işdə iştirak edən digər şəxslərə (MPM-nin 46-cı maddəsi) və şahidlərdən başqa prosesin digər iştirakçılarına həsr edilmiş maddə və normalarında onların özlərinə və müvafiq qohumlarına qarşı ifadə verməkdən imtina edə bilmələri haqqında müddəaya rast gəlmirik. Belə bir hal, fikirimizcə, Azənbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə ziddir. Əsas qanunun həmin maddəsinin tələbləri yalnız şahidlərə deyil, eyni zamanda bütün mülki proses iştirakçılarına aid edilməlidir. Buna görə də, hesab edirik ki, əleyhinə ifadə verilməsindən imtina edilə bilən şəxslərin siyahısı MPM-də şahid ifadələrinə həsr olunmuş maddədə deyil, sübutlara həsr edilmiş ümumi maddələrin birində müəyyən edilməlidir.

Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı Azərbaycan Respublikası Cinayət Məcəlləsində də müəyyən edilməmişdir. Cinayət Məcəlləsinin 297 və 298-ci maddələrinin qeydlərinə əsasən şəxs özünə, arvadına (ərinə), övladlarına, valideyinlərinə və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilərək bilə-bilə yalan ifadə verdikdə və ifadə verməkdən imtina etdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz. Cinayət Məcəlləsinin 307-ci maddəsinin qeydində isə arvadı (əri), övladları, valideyinləri və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumları tərəfindən hazırlanmış və ya törədilmiş ağır və ya xüsusilə ağır cinayət barədə bilərək onun barəsində xəbər verməyən şəxsin cinayət məsuliyyətinə cəlb oluna bilməməsi müəyyən edilmişdir. Göründüyü kimi, əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısını müəyyən etməməklə yanaşı Cinayət Məcəlləsi «arvadı (əri), övladları, valideyinləri və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumları» ifadəsini istifadə edərək, bu məsələnin həllini digər qanunvericiliyin üzərində saxlamışdır.

Azərbaycan Respublikasının hazırda qüvvədə olan İnzibati Xətalar Məcəlləsindən əvvəlki İnzibati Xətalar Məcəlləsinin (məlum olduğu kimi, yeni İnzibati Xətalar Məcəlləsi 29.12.2015-ci il tarixli Qanunla təsdiq edilərək 01.03.2016-cı il tarixdən qüvvəyə minmiş, əvvəlki İXM-si (11.07.2000-də qəbul edilmiş və 01.09.2000-dən qüvvəyə minmişdir) 377.3-cü maddəsində şahidin özünə və yaxın qohumlarına qarşı izahat verməmək hüququ nəzərdə tutulurdu. Bu Məcəllənin 377-ci maddəsinin qeydində göstərilirdi ki, «yaxın qohumlar» dedikdə valideynlər, uşaqlar, övladlığa götürənlər, övladlığa götürülənlər, doğma qardaş və bacılar, babalar, nənələr, nəvələr, habelə ər-arvad başa düşülür. Yəni, 2000-ci ilin İnzibati Xətalar Məcəlləsi Mülki Prosessual Məcəlləyə nisbətən əleyhinə izahat verilməsi məcburi olmayan qohumların siyahısını bir qədər genişləndirərək, onların sırasına düzgün olaraq övladlığa götürənlərlə övladlığa götürülənləri də daxil etmişdi. Həmin İnzibati Xətalar Məcəlləsində, eyni zamanda, Konstitusiyada müəyyən olunduğu kimi, qardaş və bacıların hamısına qarşı deyil, yalnız doğma qardaş və bacılara qarşı izahat verməmək hüququ müəyyən edilirdi. Qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyası qardaş və bacılara, digər yaxın qohumlara qarşı ifadə verməyə heç kəsin məcbur edilə bilməməsini müəyyən edərkən hər hansı məhdudiyyət nəzərdə tutmamışdır. Bu isə o deməkdir ki, heç kəsin qardaş və bacılarına qarşı ifadə verməsinə məcbur edilə bilməməsini müəyyən edərkən əsas qanun bunu həm doğma, həm də ki, ögey qardaş və bacılara aid etmişdir.

Konstitusiyanın müddəası əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısını müəyyən etməyərək, qohumların bitməmiş siyahısını təsbit etsə də, həmin siyahıda nəzərdə tutulanların məhdudlaşdırılmasına yol vermir. Buradan isə belə nəticə hasil olurdu ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin şahidin yalnız doğma qardaş və bacılarına qarşı izahat verməmək hüququnu müəyyən edən müddəası Konstitusiyanın 66-cı maddəsinə uyğun deyildi. Belə ki, 2000-ci ilin İnzibati Xətalar Məcəlləsinin 377-ci maddəsinin məzmunundan belə cıxırdı ki, şahidin doğma qardaş və bacılarına qarşı izahat verməmək hüququ var, ögey qardaş və bacılarına qarşı isə izahat verməmək hüququ yoxdur və sonunculara qarşı izahat verməyə borcludur. Bununla əlaqədar olaraq, tərəfimizdən müvafiq təkliflər verilmiş və yeni İnzibati Xətalar Məcəlləsində şahidin hüquq və vəzifələrinə həsr edilmiş 67-ci maddədə şahidin özünə və yaxın qohumlarına qarşı ifadə verməmək hüququnu müəyyən edilməklə

maddənin «Qeyd» hissəsində «yaxın qohumlar» dedikdə valideynlərin, uşaqların, övladlığa götürənlərin, övladlığa götürülənlərin, doğma və ögey qardaş və bacıların, babaların, nənələrin, nəvələrin, habelə ər-arvadın başa düşüldüyü müəyyən edilmişdir. Yəni, 2000-ci ilin İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş, yaxın qohumlarına qarşı izahat verməmək hüququnun ögey qardaş və bacılara tətbiq edilməməsi ilə bağlı anlaşılmazlıq aradan qaldırılmışdır.

Yeni İnzibati Xətalar Məcəlləsində «yaxın qohumlar» ifadəsi ilə yanaşı, «qohum» sözündən də istifadə olunmasına baxmayaraq (məsələn, müvafiq şəxslərlə qohumluq əlaqəsinin olması inzibati xətalar haqqında işlər üzrə icraatı rədd edən hallara aid edilmişdi) «qohum» dedikdə isə kimlərin başa düşüldüyü Məcəllədə açılmamışdı, buna görə İXM-nin 67-ci maddəsi 01.05.2018-ci il tarixli Qanunla yeni redaksiyada verilərək, "qohum" dedikdə kimlərin (babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslərin, ər-arvadın yaxın qohumlarının, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ögey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin ərinin (arvadının) və ya onların yaxın qohumlarının nəzərdə tutulduğu müəyyən edilmiş, yaxın qohumlara isə əvvəl olduğu kimi, babaların, nənələrin, valideynlərin, övladlığa götürənlərin, doğma və ögey qardaşlar və bacıların, ər-arvadın, uşaqların, övladlığa götürülənlərin, nəvələrin aid olduğu göstərilmişdir. Həmin qanunla, eyni zamanda, məhkəmədə baxılan inzibati xətalar haqqında işlər üzrə icraatda fiziki şəxsin müdafiəçisi qismində yalnız vəkilin, zərər çəkmiş fiziki şəxsin nümayəndəsi qismində isə onun yaxın qohumunun və ya vəkilin buraxılması müəyyən edilmişdir.

Lakin, yeni İnzibati Xətalar Məcəlləsində də şahidin özünə və yaxın qohumlarına qarşı izahat verməmək hüququnu müəyyən edilsə də inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin və zərər çəkmiş şəxsin hüquqları içərisində həmin hüquq nəzərdə tutulmamışdır. Məcəllənin barəsində inzibati xətalar haqqında iş üzrə icraat aparılan şəxsin, zərər çəkmiş şəxsin və şahidin hüquqi vəziyyətini müəyyən edən müvafiq olaraq 61, 62 və 67-ci maddələrinin müqayisəli təhlil edilməsi nəticəsində belə fikir yarana bilər ki, şahidin özünə və yaxın qohumlarına qarşı izahat verməmək hüququ var, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan və zərər çəkmiş şəxsin isə bu hüququ yoxdur. Yəni, şahidin hüquqları içərisində bu hüquq göstərilib, barəsində inzibati xətalar haqqında iş üzrə icraat aparılan şəxsin və zərər çəkmiş şəxsin hüquqları içərisində isə bu hüquq göstərilməmişdir. Lakin zərər çəkmişin hüquq və vəzifələrinə həsr edilmiş 62-ci maddədə belə bir norma (mad.62.5) nəzərdə tutulmuşdur ki, zərər çəkmiş şəxs bu Məcəllənin 67-ci maddəsində (yəni şahidə həsr edilmiş maddədə) nəzərdə tutulmuş qaydada şahid kimi sorğu-sual edilə bilər. Lakin, burada «sorğu-sual edilir» yox, «sorğu-sual edilə bilər» işlədilmiş olduğundan məsələni birmənalı olaraq həll etmiş olmur. Buna baxmayaraq, imperativ olmasa da, zərər çəkmiş şəxsin özünə və yaxın qohumlarına qarşı izahat verməmək hüququnun mümkünlüyü müəyyən edilir. Barəsində inzibati xətalar haqqında iş üzrə icraat aparılan şəxsin hüquq və vəzifələrinə həsr edilmiş 61-ci maddədə isə bu hüququn təmini ilə bağlı ümumiyyətlə heç bir müddəa, o cümlədən başqa normaya istinadedici hər hansı norma müəyyən edilməmişdir ki, bu da, fikrimizcə, Konstitusiyanın 66-cı maddəsinin məzmununa uyğun deyildir.

İnzibati Xətalar Məcəlləsinin 67.5-ci maddəsinə əsasən bilə-bilə yalan izahat verməyə görə inzibati məsuliyyət haqqında şahidə xəbərdarlıq edilir. Şahid izahat verməkdən imtina etdikdə və ya çağırış üzrə gəlməkdən boyun qacırdıqda o, İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada inzibati məsuliyyətə cəlb edilir. Məcəllənin 530-cü maddəsi inzibati xətalar haqqında işlər üzrə icraat zamanı şahidin, zərər cəkmiş şəxsin, mütəxəssisin bilə-bilə yalan izahat verməsinə görə inzibati məsuliyyət nəzərdə tutur. İnzibati Xətalar Məcəlləsinin 532.2-ci maddəsi isə inzibati xətalar haqqında işlər üzrə icraat zamanı cağırılmış şəxslərin (şahidin, zərər cəkmiş şəxsin, mütəxəssisin) izahat verməkdən imtina etməsinə görə inzibati məsuliyyət müəyyən edir. Lakin, qeyd olunan şəxslər Konstitusiyanın 66-cı maddəsinə müvafiq olaraq özünə, arvadına (ərinə), övladlarına, valideyinlərinə və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər qohumlarına qarşı izahat verməyə məcbur edilərək bilə-bilə yalan izahat verdikdə və izahat verməkdən imtina etdikdə inzibati məsuliyyətə cəlb oluna bilməzlər. Buna görədə, əsas qanunun həmin maddəsində müəyyən edilmiş mühüm insan hüququnun ardıcıl olaraq həyata keçirilməsinin təmin edilməsi üçün İnzibati Xətalar Məcəlləsinin 530 və 532-ci maddələrində Cinayət Məcəlləsinin 297 və 298-ci maddələrində hazırda olduğu kimi, müvafiq qeydlərin nəzərdə tutulması, fikrimizcə zəruridir.

Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısının müəyyən edilməsi məsələsi qanunvericiliyin digər sahələrinə nisbətən daha düzgün olaraq cinayət-prosessual qanunvericiliyində həll edilmişdir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin

«Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri» adlı ikinci fəslinin ayrıca bir maddəsi bütövlükdə şəxsin özünün və qohumlarının ifşa etməkdə sərbəstliyinə həsr edilmişdir. Cinayət-Prosessual Məcəlləsinin həmin «Özünü və qohumlarını ifşa etməkdə sərbəstlik» adlanan 20-ci maddəsinə əsasən» «heç kəs şəxsən özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz və buna görə hər hansı təqibə məruz qala bilməz. İbtidai araşdırma və ya məhkəmə baxışı zamanı özünü, yaxud qohumlarını cinayət törətməkdə ifşa edən məlumatları verməsi təklif olunan şəxs bunun özü üçün hər hansı mənfi hüquqi nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır».

Məcəllənin 7.0.32-ci maddəsində göstərilmişdir ki, "yaxın qohumlara" "babalar,nənələr,valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr" aiddirlər.

Burada, yeri gəlmişkən qeyd etməliyəm ki, əleyhinə ifadə verilməsi məcburi olmayan şəxslərin dairəsi xarici ölkələrin qanunvericiliyində fərqli müəyyən edilsə də, bu qəbildən olan şəxslərin siyahısı oxşar şəkildə müəyyən edilir. Lakin, digər ölkələrin qanunvericiliyindən fərqli olan, maraq doğuran xüsusiyyətlər də vardır. Məsələn, Latviya Respublikasının qüvvədə olan Cinayət Məcəlləsi (Məcəllə 01.04.1999-cu ildən qüvvədədir) 302-ci maddədə şahidin və ya zərərçəkmiş şəxsin məhkəməyədək icraatda, yaxud məhkəmədə ifadə verməkdən əsassız imtina etdiyinə görə məsuliyyət nəzərdə tutur. Bu maddədən sonrakı 303-cü maddədə isə müəyyən olunmuşdur ki, ifadə verməkdən imtina etməyə görə təqsirləndirilən şəxsin nişanlısı, həyat yoldaşı, valideynləri, uşaqları, qardaş və bacıları, babaları, nənələri və nəvələri cinayət məsuliyyətindən azad edilirlər.

Qayıdaq ölkənin cinayət-prosessual qanunvericiliyinə. Özünü və qohumlarını ifşa etməmək hüququ Cinayət-Prosessual Məcəlləsinin cinayət mühakimə icraatının vəzifələrini, əsas prinsiplərini və şərtlərini müəyyən edən ikinci fəslinin ayrıca maddəsində təsbit olunduğundan cinayət prosesində iştirak edən bütün şəxslərə aid olunmasına baxmayaraq, məcəllənin cinayət prosesinin bu və digər subyektlərinin hüquqi vəziyyətini tənzim edən bir neçə normalarında da nəzərdə tutulmuşdur. Belə ki, Cinayət-Prosessual Məcəllədə şübhəli şəxsin tutulduğu və ya ona qətimkan tədbirinin seçilməsi haqqında qərar elan edildiyi andan digər hüquqlarla yanaşı «ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək» hüququ da nəzərdə tutulmuşdur (maddə 90.7.10). Təqsirləndirilən şəxsin həyata keçirdiyi hüquqlar icərisində məcəllə onun «ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməməkdən imtina etmək, habelə haqqında irəli sürülmüş ittihama dair izahat vermək və izahat verməkdən imtina etmək» hüququnu da nəzərdə tutmuşdur. (maddə 91.5.10). Şahidin də malik olduğu hüquqlardan biri kimi onun «özünə və yaxın qohumlarına qarşı ifadələrin verilməsindən, materialların və məlumatların təqdim olunmasından imtina etmək» hüququ müəyyən edilmişdir. (CPM-nin 95.6.4-cü mad.)

CPM-nin bu normalarının müqayisəli təhlili belə nəticəyə gəlməyə əsas verə bilər ki, şübhəli və təqsirləndirilən şəxs özünə və yaxın qohumlarına qarşı həm ifadə, həm də ki, izahat verməmək hüququ var, şahidin isə yalnız ifadə verməmək hüququ vardır, izahat verməmək hüququ isə yoxdur. Ona görə ki, qanunda şübhəli və təqsirləndirilən şəxsin özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək hüququ, şahidin isə ifadə verməmək hüququ təsbit olunmuşdur. Bundan başqa, şahidin materialların və məlumatların təqdim olunmasından imtina etmək hüququ nəzərdə tutulsa da, şübhəli və təqsirləndirilən şəxsin ümumiyyətlə ifadə (izahat) verməməkdən imtina etmək hüququ təsbit olunmuşdur ki, sonuncunun da materialları təqdim etməmək hüqüqunu da əhatə etməsi aydın deyildir və mübahisə doğura bilirdi. Bu məsələyə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin şərh edilməsinə dair» 14 oktyabr 2019-cu il tarixli Qərarında müəyyən aydınlıq gətirilmişdir.

Həmin qərarda göstərilmişdir ki, Şəxsin özünün və ya yaxın qohumlarının əleyhinə ifadə vermək öhdəliyindən azad edilməsi, yəni, şahidlik immuniteti ilə təmin edilməsi şəxsin özünə və ya yaxınlarına qarşı şahidlik etməyə hər hansı formada məcbur edilməsinin yolverilməzliyini ifadə edir. Bu hüququn mahiyyəti ondan ibarətdir ki, şəxs, nəinki ifadə verməkdən, eyni zamanda cinayətin törədilməsində onun təqsirini təsdiqləyən digər sübutları da təqdim etməkdən imtina edə bilər və cinayət mühakimə icraatının istənilən mərhələsində bu hüquq təmin olunmalıdır. Lakin şahidlik immunitetinə malik olan şəxsin üzərinə işin hallarına dair ifadə vermək öhdəliyinin qoyulmasının qadağan edilməsi heç də

bu şəxsin öz iradəsi əsasında müvafiq mülahizələri təqdim etmək imkanını istisna etmir.

Qanunvericilikdə müəyyən edilən hər hansı hüququn real olması üçün qanunda onun həyata keçirilməsini təmin edən vasitələr, o cümlədən prosessual təminatlar, hüququn realizə edilməsi ilə əlaqədar yaranan hüquqi münasibətlərin digər tərəflərinin müvafiq öhdəliyi və vəzifələri nəzərdə tutulmalıdır. Özünü və qohumlarını ifşa etməkdə sərbəstlik hüququnun təmin olunması üçün qüvvədə olan Cinayət-Prosessual Məcəllədə aşağıdakı prosessual təminatlar nəzərdə tutulmuşdur. Belə ki, tutulmuş şəxsin hüquqlarının təmin olunması üçün Cinayət-Prosessual Məcəlləsinin 153.2.1-ci maddəsində cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerlərinin «tutulmadan dərhal sonra şəxsə tutulmanın əsaslarını bildirmək, özünə və yaxın qohumlarına qarşı ifadə verməmək, müdafiəçinin yardımından istifadə etmək hüquqlarını izah etmək» vəzifələri müəyyən edilmişdir. Məcəllənin 227.4-cü maddəsində müstəntiqin dindirmədən əvvəl «şahidə iş üzrə məlum olan bütün hallar barədə danışmaq vəzifəsi, habelə ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq etməklə ona özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə borclu olmadığı barədə məlumat» verməsi təsbit olunmuşdur.

Cinayət-Prosessual Məcəllənin 235.3-cü maddəsinə əsasən üzləşdirmə aparıldıqda «şahidlər ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qacırmağa və bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti haqqında, habelə özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ barədə xəbərdar olunurlar». Məcəllənin 239.4-cü maddəsində şəxsin tanınması aparılarkən tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda onun əvvəlcədən «ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti haqqında, habelə özünün, yaxud yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ haqqında» xəbərdar edilməsi nəzərdə tutulmuşdur.

Cinayət-Prosessual Məcəllənin 240.4-cü maddəsində isə əşyaların tanınması aparılarkən tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda ona qabaqcadan «ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə, habelə özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ barədə» xəbərdarlıq edilməsi müəyyən edilmişdir. Göstərilənlərlə yanaşı, Cinayət-Prosessual Məcəllənin 328.2.1-ci maddəsində məhkəmə iclasında şahidin dindirilməsindən əvvəl ona sədrlik edən tərəfindən «özünün və yaxın qohumlarının əleyhinə ifadə verməkdən imtina etmək» hüququnun izah edilməsi nəzərdə tutulmuşdur.

Cinayət-prosessual qanunvericiliyinin şəxsin özünü və qohumlarını ifşa etməmək hüququnu tənzim və təmin edən müddəalarının nəzərdən keçirilməsi aşağıdakı fikirləri söyləməyə əsas verir. Cinayət-Prosessual Məcəllə özünü və qohumlarını ifşa etməmək hüququnu Ümumi hissənin ikinci fəslində təsbit edərək cinayət prosesində iştirak edən bütün şəxslərə aid etməsinə baxmayaraq, bu hüququn reallaşmasını təmin etmək üçün onun həyata keçirilməsini şübhəli, təqsirləndirilən şəxslərin və şahidlərin dindirilməsi zamanı mütləq olduğunu onlara aid olan maddələrdə bir daha nəzərdə tutaraq bu barədə müvafiq müddəalar müəyyən etmişdir. (CPM-nin 90.7.10; 91.5.10 və 95.6.4-cü maddələri). Lakin, özünü və qohumlarını ifşa etməmək hüququ yalnız şübhəli, təqsirləndirilən şəxslərə və şahidlərə deyil, eyni zamanda prosesdə iştirak edən digər şəxslərə (məsələn nümayəndələrə və qanuni nümayəndələrə) aid olmasına baxmayaraq, CPM-də sonuncuların hüquqi vəziyyətini müəyyən edən normalarda onların özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək hüququ nəzərdə tutulmamışdır. Belə ki, CPM-nin 101.5.5-ci maddəsində zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin, mülki iddiacının və cavabdehin qanuni nümayəndəsinin, 102.6.3-cü maddəsində isə zərər çəkmiş şəxsin, mülki iddiacının və cavabdehin nümayəndəsinin izahatlar vermək hüququ nəzərdə tutulsa da, Məcəllənin 90.7.10; 91.5.10 və 95.6.4-cü maddələrindən fərqli olaraq onların özlərini və yaxın qohumlarını ifşa etməmək hüququ olduğu müəyyən edilməmişdir. CPM-nin göstərilən maddələrinin müqayisəli təhlili qeyd olunan şəxslərin qanuni nümayəndələrinin və nümayəndələrinin izahat verərkən özünü və yaxın qohumlarını ifşa etməmək hüququna malik olmadıqları fikrini yarada bilər ki, bu da Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinin məzmununa zidd olardı. Göstərilənləri nəzərə alaraq, özünü və yaxın qohumlarını ifşa etməmək hüququnun CPM-nin 101.5.5 və 102.6.3-cü maddələrindədə nəzərdə tutulması məqsədə müvafiq olardı.

CPM-nin 239.4-cü maddəsində şəxsin tanınması aparılarkən tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda onun əvvəlcədən «özünün, yaxud yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ haqqında» xəbərdar edilməsi nəzərdə tutulmuşdur. Qanunda istifadə edilmiş «özünün, yaxud yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ» ifa-

dəsi, fikrimizcə, Azərbayhan Respublikası Konstitusiyasının 66-cı maddəsinə və Cinayət-Prosessual Məcəllənin 20-ci maddəsinə uyğun deyildir. CPM-nın 239.4-cü maddəsinin məzmunundan belə çıxır ki, şəxsin tanınması aparılarkən tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda onun özünün, yaxud yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ vardır. Yəni, həm özünün, həm yaxın qohumlarının əleyhinə yox, ikisindən birinin əleyhinə ifadə verməmək hüququ vardır. Buna görədə CPM-nin 239.4-cü maddəsində «yaxud» sözü «və» bağlayıcısı ilə əvəz edilməlidir. Qeyd etməliyik ki, CPM-nin 240.4-cü maddəsində əşyanın tanınması aparılarkən tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda ona qabaqcadan digər hüquqlarla yanaşı «özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ barədə xəbərdarlıq» edilməsi nəzərdə tutulmuşdur.

CPM-nin maddələrində bir sıra istintaq hərəkətləri aparılarkən müvafiq proses iştirakçılarına özünə və yaxın qohumlarına qarşı ifadə verməmək hüququnun izah edilməsi nəzərdə tutulmaqla, 125.2.4-cü maddədə cinayət prosesində iştirak edən şəxsin hüquq və vəzifələrinin izah edilməməsi, tam və ya düzgün izah edilməməsi nəticəsində onun öz hüquq və vəzifələrini yanlış başa düşməsi hallarında əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilməməsi müəyyən olunmuşdur. Buradan belə nəticəyə gəlmək olar ki, özünə və yaxın qohumlarına qarşı ifadə verməmək hüququnun izah edilməsi nəzərdə tutulan istintaq hərəkətləri üzrə müvafiq proses iştirakçılarına münasibətdə bunun təmin olunmaması alınmış ifadənin və digər məlumatların sübut kimi qəbul edilməməsinə əsas vermiş olur.

Sonda qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinin tələbi ilə bağlı Cinayət Məcəlləsinin 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddəsinin məzmunun ona uyğunluğu və digər məsələrlə bağlı məhkəmə-istintaq praktikasında yaranmış bir-neçə suallara Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 264-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə uyğunluğunun yoxlanılmasına dair» 29 yanvar 2004-cü il tarixli və «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair» 10 aprel 2012-ci il tarixli qərarları ilə aydınlıq gətirilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə uyğunluğunun yoxlanılması barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin sorğusuna baxaraq Konstitusiya Məhkəməsi birinci qərarda qeyd etmişdir ki, özünə qarşı ifadə verməyə məcbur edilə bilməməsinə dair konstitusiya norması ədalətli məhkəmə baxışını, fərdin azadlıq konstitusiya hüququnu, təqsirsizlik prezumpsiyasını, şəxsi toxunulmazlığı təmin edən mühüm təminatlardan biridir. Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ şübhəli və ya təqsirləndirilən şəxsin öz təqsirini etiraf etməyə məcbur edilməsinin qarşısını almağın mühüm təminatıdır. Lakin bu hüquq mütləq deyil, onun hədləri hər bir konkret halda fərdin, cəmiyyətin və dövlətin maraqları arasında dəqiq və ədalətli balans əsasında müəyyənləşdirilməlidir.

Nəqliyyat vasitəsini idarə edən şəxsin özünə qarşı ifadə verməmək hüququ cinayət-prosessual hüquq olduğuna görə yol-nəqliyyat hadisəsindən dərhal sonra yaranmır. Əvvəla ona görə ki, heç bir yol-nəqliyyat hadisəsi öz-özlüyündə hələ cinayət hadisəsi kimi qiymətləndirilə bilməz. Hadisə yerinə müvafiq icra hakimiyyəti orqanının (polisin) əməkdaşlarının gəlməsindən dərhal sonra isə yol-nəqliyyat hadisəsinin iştirakçılarından heç birinin hələ cinayət-prosessual statusu olmur. Onlar məhz yol-nəqliyyat hadisəsinin iştirakçıları kimi hadisə barədə ilkin izahat verməlidirlər. Bu zaman həmin şəxslər, o cümlədən nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən izahat verilməsi özünə qarşı ifadə vermək kimi deyil, Qanunda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi kimi qiymətləndirilməlidir.

Hadisənin baş verməsinə səbəb olan şəxsin hərəkətlərində (yaxud hərəkətsizliyində) cinayət tərkibi olarsa, bir qayda olaraq cinayət işinin başlanmasından sonra şəxsin statusundan asılı olaraq müvafiq cinayət-prosessual hüquqları, o cümlədən özünə qarşı ifadə verməmək hüququ yaranır və bu hüquqlar cinayət prosesinin bütün mərhələlərində təmin olunmalıdır. Yol-nəqliyyat hadisəsi ilə bağlı sürücülərin hadisə yerində qalıb gözləmək vəzifəsini, özünə qarşı ifadə verməyə məcbur etmə ilə eyni mənanı ehtiva edən sinonim anlayışlar kimi göstərmək olmaz. Yol-nəqliyyat hadisəsini törədən şəxs nəticə etibarılə cinayət prosesinin hər hansı mərhələsində özünə qarşı istifadə edilə biləcək ifadə verməyə məcbur edilərsə, bu halı Konstitusiyanın 66-cı maddəsinin müddəalarının pozulması kimi qiymətləndirmək mümkündür və qanunverici sürücünün hadisə yerində gözləmə vəzifəsini müəyyən etməklə, yol-nəqliyyat hadisəsində onun təqsirinin olmasını müəyyən etmir. Qeyd olunanlarla əlaqədar olaraq Azərbaycan

Respublikasının Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin 264-cü maddəsini Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə uyğun hesab etmişdir.

«Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair» 10 aprel 2012-ci il tarixli qərarda Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin 263.1 və 264-cü maddələri ilə təqsirləndirilən şəxsin avtomobili idarə edərkən vətəndaşı vurub onun sağlamlığına az ağır zərər yetirdikdən sonra zərərçəkmişi xəstəxanaya aparıb, orada ona tibbi yardım göstərildikdən sonra evinə apararaq hadisə yerinə qayıtmaması və baş vermiş yol-nəqliyyat hadisəsi barədə müvafiq orqana xəbər verməməsi ilə bağlı hərəkətlərinin CM-nin 264-cü maddəsinin tərkibini yaratmasına dair Nəsimi rayon məhkəməsinin sorğusuna baxaraq belə nəticəyə gəlmişdir ki, mənası universal xarakter daşıyan CM-nin 264-cü maddəsinin məqsədi yol-nəqliyyat hadisəsi nəticəsində zərərçəkmiş şəxsin gələcəkdə mülki hüquqlarının bərpasının mümkün olması üçün yol-nəqliyyat vasitələrini idarə edən şəxsləri törədilmiş hadisədən dərhal sonra hadisə yerində qalaraq şəxsiyyəti barədə qarşı tərəfi bu və ya digər vasitə ilə məlumatlandırmağa məcbur etməkdən ibarətdir.

Bununla da, yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlığına az ağır zərər vurulmuş zərərçəkmiş şəxsə yol-nəqliyyat vasitəsini idarə edən şəxs barəsində dərhal düzgün məlumatı əldə etmək imkanı verilir. Müvafiq olaraq, cinayət qanununun həmin müddəası yol-nəqliyyat vasitəsini idarə edən şəxsin üzərinə fəal və pozitiv öhdəlik qoyur ki, dərhal hadisədən sonra hadisə yerində qalsın, onu tanımaq və mülki hüquqların təmin edilməsi məqsədilə sonradan tapılmasını yüngülləşdirmək üçün lazımi məlumatları bildirsin. Belə məlumatlar sağlamlığına zərər vurulmuş şəxsə, bu mümkün olmadıqda isə, onun maraqlarını təmin edəcək digər şəxsə verilməlidir. Eyni zamanda, nəzərə alınmalıdır ki, nəqliyyat vasitəsini idarə edən şəxsin yol-nəqliyyat hadisəsi yerini hər hansı bir səbəbdən tərk etməsi, o cümlədən müraciətdə göstərildiyi kimi, zərərçəkmiş şəxsi tibb müəssisəsinə aparması da onu öz şəxsiyyəti barədə məlumatları bu və ya digər vasitə ilə zərərçəkmiş şəxsə (tərəfə) çatdırmaq öhdəliyindən azad etmir.

Nəqliyyat vasitəsinin sürücüsünün yol-nəqliyyat hadisəsi yerində qalaraq öz şəxsiyyəti ilə bağlı məlumatları zərərçəkmiş şəxsə aşkar etmək öhdəliyinin Konstitusiyanın 66-cı maddəsindən, eləcə də Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndindən irəli gələn özünə qarşı ifadə verməmək hüququna uyğun olub-olmaması ilə bağlı Konstitusiya Məhkəməsi qeyd etmişdir ki, Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan 29 yanvar 2004-cü il tarixli Qərarı ilə CM-in 264-cü maddəsi Konstitusiyanın 66-cı maddəsinə uyğun hesab edilmişdir.

Qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhkəməsi belə qərara gəlmişdir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin mənasına görə yol-nəqliyyat hadisəsi törətmiş şəxs hadisə yerində qalaraq şəxsiyyəti barədə məlumatları zərərçəkmiş şəxsə (tərəfə) bu və ya digər vasitə ilə çatdırmaq öhdəliyi daşıyır. Bu öhdəliyə riayət etməklə nəqliyyat vasitəsini idarə edən şəxsin yol-nəqliyyat hadisəsi yerini hər hansı bir səbəbdən tərk etməsi, o cümlədən zərərçəkmiş şəxsi tibb müəssisəsinə aparması hadisə yerindən qaçma kimi qiymətləndirilə bilməz.

**Mahir Tağıyev,**
*Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin böyük prokuroru, baş ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru, dosent.*

**İstifadə olunan ədəbiyyat:**

1. Международный пакт о гражданских и политических правах. Международные акты о правах человека. Сборник документов. -М.: Изд-во «Норма»,(Издательская группа Норма-Инфра.М.),2000.-784с.
2.Конституции зарубежных государств: Учебное пособие., сост. Проф. В.В.Маклаков.-4-е изд., перераб. и доп.- М.: "Волтерс Клувер", 2003.,-624с.
3. Конституции зарубежных стран., сост.Дубровин В.Н.- М.: ООО. Изд-во "Юрлитинформ", 2001. –448с.
4. Türkiye Cumhuriyeti Anayasası., Seckin yayinesi. Ankara.- 1998., 231 s.
5. Конституция Российской Федерации.- М.: Ось-89.,2004.,- 48с.
6. Azərbaycan Respublikasının Konstitusiyası., «Hüquq Yayın Evi» nəşriyyatı., Bakı., 2019., 116 s.
7. Təsadüfi deyildir ki, qüvvədə olan cinayət- prosessual və mülki-prosessual qanunvericiliyi 60-cı illərin ortalarınadək qüvvədə olmuş qanunvericilikdən fərqli olaraq şahidə etiraz verilməsi haqqında müddəalar nəzərdə tutmur. Yəni, işin düzgün araşdırılması üçün şahidin məlumatları əhəmiyyətli olduğundan, hətta işin nəticə etibarı ilə həllində müəyyən marağı olan şahidlərin dindirilməsindən imtina edilməsini qanun məqsədə müvafiq hesab etmir.
8. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi., «Hüquq ədəbiyyatı» nəşriyyatı., Bakı., 2003., 552 s.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 28-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 44.2-ci maddədə "on mislinədək miqdarda" sözlərindən sonra ", habelə cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarda" sözləri əlavə edilsin.

**1.2.** 47.4.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"47.4.5.** hərbi qulluqçulara.".

**1.3.** 49.3-cü maddənin ikinci cümləsində və 69.3-cü maddədə "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

**1.4.** 68-ci maddə üzrə:

**1.4.1.** 68.1.3-cü maddədə "üç" sözü "dörd" sözü ilə əvəz edilsin;

**1.4.2.** 68.2-ci maddədə "cəza" sözündən sonra "ictimai işlər," sözləri əlavə edilsin;

**1.4.3.** aşağıdakı məzmunda 68.3-cü və 68.4-cü maddələr əlavə edilsin:

**"68.3.** Cinayətlərin məcmusu və hökmlərin məcmusu üzrə cəzalar qismən və ya tamamilə toplanılarkən azadlığın məhdudlaşdırılmasının bir gününə:

**68.3.1.** islah işlərinin iki günü;

**68.3.2.** ictimai işlərin dörd saatı bərabər tutulur.

**68.4.** Cinayətlərin məcmusu və hökmlərin məcmusu üzrə cəzalar qismən və ya tamamilə toplanılarkən islah işlərinin bir gününə ictimai işlərin iki saatı bərabər tutulur.".

**1.5.** 71.1-ci maddədən "və məhkumluğun götürülməsi" sözləri çıxarılsın və maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Məhkəmə şərti məhkum etmənin ləğv edilməsi qənaətinə gəldikdə, məhkumu tamamilə və ya qismən əlavə cəzadan da azad edə bilər. Şərti məhkum etmə ləğv edildikdə məhkumun əlavə cəzası olmadığı və ya o, əlavə cəzadan tamamilə azad edildiyi hallarda məhkəmə, həmçinin şəxsin məhkumluğunun götürülməsi barədə qərar qəbul edir.".

**1.6.** 72-ci maddənin "Qeyd" hissəsinin mətni birinci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilsin:

**"2.** Bu Məcəllənin 72–73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda, zərərçəkmiş şəxsə dəymiş ziyan və bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulan dövlət büdcəsinə ödəniş cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə ödənilir.

**3.** Bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulmuş cinayət şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatmadığı hallarda, şəxsin həmin maddələrdə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən azad edilməsi məsələsinə baxılarkən, dövlət büdcəsinə ödəniş başa çatmayan cinayətə görə qəsdin yönəldiyi əmlakın on faizi miqdarında müəyyən olunur.".

**1.7.** 73-1-ci maddə üzrə:

**1.7.1.** 73-1.1-ci maddədə "179.1" rəqəmlərindən sonra ", 185.1" rəqəmləri əlavə edilsin;

**1.7.2.** 73-1.2-ci maddədə "bir misli" sözləri "iyirmi beş faizi" sözləri ilə əvəz edilsin;

**1.7.3.** 73-1.3-cü maddədə "iki misli" sözləri "əlli faizi" sözləri ilə əvəz edilsin.

**1.8.** 73-2-ci maddə üzrə:

**1.8.1.** 73-2.1-ci maddədə "209.1, 209.2.2" rəqəmləri "209" rəqəmləri ilə əvəz edilsin;

**1.8.2.** 73-2.2-ci maddədən "209.2.1, 209.3," rəqəmləri çıxarılsın.

**1.9.** 79.3-cü maddədən ", yaxud məhkum edilmiş şəxsi

cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərir" sözləri çıxarılsın.

**1.10.** Aşağıdakı məzmunda 80-1-ci maddə əlavə edilsin:

**"Maddə 80-1.** Zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə

Məhkum edilmiş şəxs cəza çəkdiyi dövrdə cinayət məsuliyyətdən azad etmə ilə bağlı bu Məcəllənin 73.2, 73-1.1, 73-1.2 və 73-2-ci maddələrində, habelə 72, 263 və 306-cı maddələrinin "Qeyd" hissələrində nəzərdə tutulmuş şərtləri yerinə yetirdikdə cəza çəkməkdən azad edilir.".

**1.11.** 83.3-cü maddə üzrə:

**1.11.1.** 83.3.1-ci maddədə "çatdıqda" sözündən sonra ", çəkilməmiş əlavə cəzası olduğu hallarda isə həmçinin əlavə cəza icra olunub qurtardıqda" sözləri əlavə edilsin;

**1.11.2.** aşağıdakı məzmunda 83.4-1-ci maddə əlavə edilsin:

**"83.4-1.** Əsas cəzanı çəkib qurtarmış, yaxud əsas cəzasını çəkməkdən vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmiş şəxsin çəkilməmiş əlavə cəzası olduğu hallarda, məhkumluğun ödənilməsi müddəti əlavə cəzanın çəkilib qurtardığı gündən hesablanır.".

**1.12.** 85.5-ci maddədə ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Yetkinlik yaşına çatmayanlara cinayətlərin və ya hökmlərin məcmusu üzrə cəza təyin edilərkən məcmuya daxil olan cinayətlərdən birinə görə on il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edildikdə, bu halda qəti cəza az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə təyin edilir.".

**1.13.** 99-4.4 – 99-4.7-ci maddələr müvafiq olaraq 99-4.3 – 99-4.6-cı maddələr hesab edilsin.

**1.14.** 99-7.2-ci maddədə "99-5.3" rəqəmləri "99-5.4" rəqəmləri ilə əvəz edilsin.

**1.15.** 162.1-ci maddədən "və ya az ağır" sözləri çıxarılsın.

**1.16.** 167-2-ci maddə üzrə:

**1.16.1.** 167-2.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.16.2.** 167-2.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**1.17.** 186.1-ci maddənin sanksiyasında "iki min manatdan dörd min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək" sözləri ilə əvəz edilsin.

**1.18.** 187.1-ci maddənin sanksiyasında "min manatdan iki min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək" sözləri ilə əvəz edilsin.

**1.19.** 188-ci maddə üzrə:

**1.19.1.** 188.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.19.2.** 188.2-ci maddənin sanksiyasında "bir ildən" sözlərindən əvvəl "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.19.3.** 188.3-cü maddənin sanksiyasında "üç" sözü "üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin.

**1.20.** 190-cı maddə üzrə:

**1.20.1.** 190.2-ci maddənin sanksiyasında "mislindən dörd mislinədək miqdarda" sözləri "misli miqdarında" sözü ilə əvəz edilsin;

**1.20.2.** "Qeyd" hissəsində "iyirmi" sözü "əlli" sözü ilə, birinci, ikinci və üçüncü hallarda "yüz" sözü "iki yüz" sözləri ilə əvəz edilsin.

**1.21.** 192-ci maddə üzrə:

**1.21.1.** 192.1-ci maddənin dispozisiyasında "vətəndaşlara, təşkilatlara və ya" sözləri "fiziki və ya hüquqi şəxslərə, yaxud" sözləri ilə əvəz edilsin;

**1.21.2.** 192.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, "altı ayadək müddətə azadlığın məhdudlaşdırılması" sözləri "bir ilədək müddətə islah işləri" sözləri ilə əvəz edilsin;

**1.21.3.** 192.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.22.** 192-1-ci maddə üzrə:

**1.22.1.** 192-1.1 və 192-1.2-ci maddələrin dispozisiyasında "vətəndaşlara, təşkilatlara və ya" sözləri "fiziki və ya hüquqi şəxslərə, yaxud" sözləri ilə əvəz edilsin;

**1.22.2.** 192-1.1 və 192-1.2-ci maddələrin sanksiyasında "dörd" sözü "üç" sözü ilə əvəz edilsin;

**1.22.3.** 192-1.3-cü maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.23.** 193.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 193.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.24.** 194-cü maddə üzrə:

**1.24.1.** 194.1-1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə əvəz edilsin;

**1.24.2.** 194.2-ci maddənin sanksiyasında "yeddi" sözü "altı" sözü ilə əvəz edilsin.

**1.25.** 195.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 195.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.26.** 195-1-ci maddə üzrə:

**1.26.1.** 195-1.1-ci maddənin sanksiyasında "dörd mislinədək miqdarda cərimə" sözləri "üç mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.26.2.** 195-1.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin;

**1.26.3.** 195-1.3-cü maddənin sanksiyasında "mislindən altı mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.27.** 195-2.1-ci maddənin sanksiyasında "bir" sözü "iki" sözü ilə, 195-2.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.28.** 196.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 196.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarında" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.29.** 197.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 197.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarında" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.30.** 198.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 198.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.31.** 200-2.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 200-2.3-cü maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.32.** 201.2-ci maddənin sanksiyasında "yeddi" sözü "beş" sözü ilə əvəz edilsin.

**1.33.** 201-1.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 201-1.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.34.** 202.2-ci, 202-1.2-ci və 202-2.1-ci maddələrin sanksiyasında "üç mislindən beş mislinədək miqdarda" sözləri "iki misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.35.** 203.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 203.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.36.** 203-1.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 203-1.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.37.** 205-2.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 205-2.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.38.** 206-cı maddə üzrə:

**1.38.1.** 206.1-ci maddənin dispozisiyasında "külli" sözü "xeyli" sözü ilə əvəz edilsin;

**1.38.2.** 206.1-ci maddənin sanksiyasında "beş" sözü "cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə edilməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç" sözləri ilə əvəz edilsin;

**1.38.3.** aşağıdakı məzmunda 206.1-1-ci və 206.1-2-ci maddələr əlavə edilsin:

**"206.1-1.** Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə —

cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında cərimə edilməklə iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**206.1-2.** Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə—

cinayətin predmetin dəyərinin altmış faizindən səksən faizinədək miqdarında cərimə və ya cinayətin predmetin dəyərinin altmış faizindən səksən faizinədək miqdarında cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.38.4.** maddənin Qeyd hissəsinin birinci bəndi aşağıdakı redaksiyada verilsin:

**"1.** Bu Məcəllənin 206.1-ci maddəsində "xeyli miqdar" dedikdə, əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 206.1-1-ci maddəsində "külli miqdar" dedikdə, iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 206.1-2-ci maddəsində "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.".

**1.39.** 207-ci maddənin sanksiyasında "səkkiz" sözü "yeddi" sözü ilə əvəz edilsin.

**1.40.** 209-cu maddə üzrə:

**1.40.1.** 209.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 209.2-ci və 209.3-cü maddələrin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin;

**1.40.2.** "Qeyd" hissəsində birinci və ikinci halda "yüz" sözü "iki yüz" sözləri ilə əvəz edilsin;

**1.41.** 210.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 210.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.42.** 211.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 211.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.43.** 212.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə, 212.2-ci maddənin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.44.** 213-cü maddə üzrə:

**1.44.1.** 213.1-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə əvəz edilsin;

**1.44.2.** 213.2-ci və 213.3-cü maddələrin sanksiyasında "mislindən beş mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin;

**1.44.3.** "Qeyd" hissəsində "iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə" sözləri "əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə iki" sözləri ilə əvəz edilsin.

**1.45.** 213-1-ci maddənin "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd:** Bu Məcəllənin 213-1.1 və 213-1.3-cü maddələrində "xeyli miqdar" dedikdə beş yüz manatdan iki min manatadək olan məbləğ, 213-1.2.1 və 213-1.4-cü maddələrində "külli miqdar" dedikdə iki min manatdan yuxarı olan məbləğ başa düşülür.".

**1.46.** 215.1-ci maddədə "təşkilatı və ya vətəndaşı" sözləri "fiziki və ya hüquqi şəxsi" sözləri ilə əvəz edilsin.

**1.47.** 221-ci maddə üzrə:

**1.47.1.** 221.2-ci maddənin sanksiyasında "dörd" sözü "üç" sözü ilə əvəz edilsin;

**1.47.2.** 221.3-cü maddənin sanksiyasında "altı" sözü "beş" sözü ilə əvəz edilsin.

**1.48.** 222-ci maddə üzrə:

**1.48.1.** 222.3-cü maddənin sanksiyasında "on" sözü "yeddi" sözü ilə əvəz edilsin;

**1.48.2.** aşağıdakı məzmunda 222.4-cü maddə əlavə edilsin:

**"222.4.** Eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**1.49.** 223-cü maddə üzrə:

**1.49.1.** 223.2-ci maddənin sanksiyasında "yeddi" sözü "altı" sözü ilə əvəz edilsin;

**1.49.2.** aşağıdakı məzmunda 223.3-cü maddə əlavə edilsin:

**"223.3.** Eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda-

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**1.50.** 225-ci maddə üzrə:

**1.50.1.** 225.2-ci maddənin sanksiyasında "yeddi" sözü "altı" sözü ilə əvəz edilsin;

**1.50.2.** aşağıdakı məzmunda 225.3-cü maddə əlavə edilsin:

**"225.3.** Eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda-

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**1.51.** 233-4.3-cü maddənin sanksiyasında "mislindən dörd mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.52.** 240-cı maddənin "Qeyd" hissəsinin mətni birinci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

**"2.** Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri könüllü surətdə təhvil verən, yaxud güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.".

**1.53.** 255.2-ci maddənin sanksiyasında "üç mislindən beş" sözləri "iki mislindən üç" sözləri ilə əvəz edilsin;

**1.54.** 256-cı maddənin "Qeyd" hissəsində "dörd yüz manatdan min manatadək olan məbləğ, 256.2.2-ci maddəsində "külli miqdar" dedikdə isə" sözləri "min manatdan yeddi min manatadək olan məbləğ, 256.2.1-ci maddəsində "külli miqdar" dedikdə isə yeddi" sözləri ilə əvəz edilsin.

**1.55.** 258-ci maddənin "Qeyd" hissəsində "dörd yüz manatdan" sözləri "min manatdan yeddi" sözləri ilə əvəz edilsin və "külli miqdar" dedikdə isə" sözlərindən sonra "yeddi" sözü əlavə edilsin.

**1.56.** 265-ci maddə üzrə:

**1.56.1.** 265.1-ci maddənin dispozisiyasından "və ya ağır" sözləri çıxarılsın;

**1.56.2.** 265.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.56.3.** aşağıdakı məzmunda 265.1-1-ci maddə əlavə edilsin:

**"265.1-1.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda –

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.56.4.** 265.2-ci maddənin dispozisiyasında "Eyni hərəkətlər" sözləri "Bu Məcəllənin 265.1-ci maddəsində nəzərdə tutulmuş əməllər" sözləri ilə əvəz edilsin.

**1.57.** 265-1-ci maddə üzrə:

**1.57.1.** 265-1.1-ci maddənin dispozisiyasından "və ya ağır" sözləri çıxarılsın;

**1.57.2.** 265-1.1-ci maddənin sanksiyasında "üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki" sözləri "iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir" sözləri ilə əvəz edilsin;

**1.57.3.** aşağıdakı məzmunda 265-1.1-1-ci maddə əlavə edilsin:

**"265-1.1-1.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.57.4.** 265-1.2-ci maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 265-1.1-ci maddəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin.

**1.58.** 266-cı maddə üzrə:

**1.58.1.** 266.3-cü maddənin dispozisiyasında "həlak olmasına" sözləri "ölümünə" sözü ilə əvəz edilsin;

**1.58.2.** aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 266.1-ci maddəsində "külli miqdar" dedikdə əlli min manatdan yuxarı olan məbləğ başa düşülür. ".

**1.59.** 267-ci maddə üzrə:

**1.59.1.** 267.1-ci maddənin dispozisiyasından "və ya ağır" sözləri çıxarılsın;

**1.59.2.** 267.1-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə" sözləri "bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.59.3.** aşağıdakı məzmunda 267.1-1-ci maddə əlavə edilsin:

**"267.1-1.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda –

üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.59.4.** 267.2-ci maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 267.1-ci maddəsində nəzərdə tutulmuş " sözləri ilə əvəz edilsin;

**1.59.5.** 267.3-cü maddənin dispozisiyasında "həlak olmasına" sözləri "ölümünə" sözü ilə əvəz edilsin.

**1.60.** 268-ci maddə üzrə:

**1.60.1.** 268.1-ci maddənin dispozisiyasında "və ya ağır zərər vurulmasına və ya külli miqdarda ziyan" sözləri "zərər" sözü ilə əvəz edilsin;

**1.60.2.** 268.1-ci maddənin sanksiyasında "altı" sözü "beş" sözü ilə əvəz edilsin, "iki" sözü (hər iki halda) "bir" sözü ilə əvəz edilsin;

**1.60.3.** aşağıdakı məzmunda 268.1-1-ci maddə əlavə edilsin:

**"268.1-1.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda –

dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.60.4.** 268.2-ci maddədə "ölümünə" sözündən sonra "və ya digər ağır nəticələrə" sözləri əlavə edilsin.

**1.61.** 272.1-ci maddənin sanksiyasında "cərimə" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin.

**1.62.** 273.1-ci maddənin sanksiyasında "cərimə" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin.

**1.63.** 302-ci maddə üzrə:

**1.63.1.** 302.1-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.63.2.** 302.2-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**1.64.** 306-cı maddənin "Qeyd" hissəsində "məhkəmə tərəfindən hökm çıxarılanadək" sözləri "həmin əməllərlə bağlı hökm qanuni qüvvəyə minənədək" sözləri ilə əvəz edilsin.

**1.65.** 308.1-ci maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**1.66.** 308-2.4-cü maddənin sanksiyasında "mislindən dörd mislinədək miqdarda" sözləri "misli miqdarında" sözləri ilə əvəz edilsin.

**1.67.** 312.1-ci maddənin sanksiyasında "cərimə və ya " sözlərindən sonra "üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**1.68.** 315-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən zor tətbiq etməklə müqavimət göstərmə və ya xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı zor tətbiq etmə–

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**1.69.** 318-2-ci maddə ləğv edilsin.

**1.70.** 322.1-ci maddədə "vətəndaş və ya təşkilat" sözləri "fiziki və ya hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

**1.71.** 328-ci maddə üzrə:

**1.71.1.** 328.1-ci maddədə "əhəmiyyətli" sözü "mühüm" sözü ilə əvəz edilsin;

**1.71.2.** 328.2.1-ci maddədən "və ya mütəşəkkil dəstə" sözləri çıxarılsın;

**1.71.3.** 328.3-cü maddənin sanksiyasına "iki ilədək müddətə intizam" sözlərindən əvvəl "iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya" sözləri əlavə edilsin;

**1.71.4.** "Qeyd" hissənin 3-cü bəndində "Döyüş şəraiti" sözləri "Bu fəslin müvafiq maddələrində "döyüş şəraiti" sözləri ilə əvəz edilsin.

**1.72.** 329-cu və 330-cu maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 329. Tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər**

**329.1.** Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsə zor tətbiq etməsi —

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**329.2.** Eyni əməllər:

**329.2.1.** təkrar törədildikdə;

**329.2.2. i**ki və ya daha çox şəxsə qarşı törədildikdə;

**329.2.3.** bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

**329.2.4.** silah tətbiq etməklə törədildikdə;

**329.2.5.** zərərçəkmiş şəxsin sağlamlığına qəsdən az ağır zərər vurmaqla törədildikdə;

**329.2.6.** işgəncə verməklə törədildikdə —

bir ildən iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**329.3.** Bu Məcəllənin 329.1 və 329.2-ci maddələrində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına qəsdən ağır zərər vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 330. Rəisə qarşı zorakı hərəkətlər**

**330.1.** Rəisə, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar zor tətbiq etmə və ya zor tətbiq etməklə müqavimət göstərmə-

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**330.2.** Rəisə, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə onu qulluq vəzifəsini pozmağa məcbur etmə -

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**330.3.** Bu Məcəllənin 330.1 və 330.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

**330.3.1.** bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

**330.3.2.** təkrar törədildikdə;

**330.3.3.** iki və ya daha çox şəxs barəsində törədildikdə;

**330.3.4.** silah tətbiq etməklə törədildikdə;

**330.3.5.** zərərçəkmiş şəxsin sağlamlığına qəsdən az ağır zərər vurmaqla törədildikdə –

bir ildən iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**330.4.** Bu Məcəllənin 330.1-330.3-cü maddələrində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına qəsdən ağır zərər vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda –

üç ildən səkkiz ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**330.5.** Bu Məcəllənin 330.1-330.4-cü maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə -

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**1.73.** 331-ci maddə ləğv edilsin.

**1.74.** 332-ci maddə üzrə:

**1.74.1.** 332.1-ci maddənin dispozisiyasında "pozma, zərərçəkmiş şəxsin şərəf və ləyaqətini alçaltmaqla və ya ona qarşı zor tətbiq etməklə əlaqədar olduqda" sözləri "pozaraq, zərərçəkmiş şəxsin sağlamlığına qəsdən yüngül zərər vurma" sözləri ilə əvəz edilsin;

**1.74.2.** 332.1-ci maddənin sanksiyasında "iki" sözü "bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir" sözləri ilə əvəz edilsin;

**1.74.3.** aşağıdakı məzmunda 332.1-1 və 332.1-2-ci maddələr əlavə edilsin:

**"332.1-1.** Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq zərərçəkmiş şəxsə qarşı zor tətbiq etməklə, yaxud hədə-qorxu tətbiq etməklə

özgənin xeyli miqdarda əmlakını və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə —

iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**332.1-2.** Bu Məcəllənin 332.1-1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə –

bir ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.74.4.** 332.2-ci maddənin dispozisiyasında "Eyni" sözləri "Bu Məcəllənin 332.1, 332.1-1 və ya 332.1-2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.74.5.** 332.2.3-cü maddədə ", qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə" sözləri "və ya qabaqcadan əlbir olan bir qrup şəxs" sözləri ilə əvəz edilsin;

**1.74.6.** 332.2.5-ci maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı redaksiyada 332.2.6-cı maddə əlavə edilsin:

**"332.2.6.** işgəncə verməklə törədildikdə -";

**1.74.7.** 332.2-ci maddənin sanksiyasında "üç" sözü "iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki" sözləri ilə əvəz edilsin;

**1.74.8.** 332.3-cü maddənin dispozisiyasında "və ya 332.2-ci maddələrində nəzərdə tutulmuş əməllər" sözləri ", 332.1-1, 332.1-2 və ya 332.2-ci maddələrində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurduqda və ya digər" sözləri ilə əvəz edilsin;

**1.74.9.** 332.3-cü maddənin sanksiyasında "beş ildən on" sözləri "üç ildən səkkiz" sözləri ilə əvəz edilsin;

**1.74.10.** maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 332.1-1-ci maddəsində "xeyli miqdar" dedikdə yüz manatdan yuxarı, lakin min manatdan artıq olmayan məbləğ, 332.1-2-ci maddəsində "külli miqdar" dedikdə min manatdan yuxarı məbləğ başa düşülür.".

**1.75.** 333-cü maddə üzrə:

**1.75.1.** 333.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"333.1.** Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantının hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə - ";

**1.75.2.** 333.2-ci maddədə "Çağırış və ya kontrakt üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun hərbi hissədən özbaşına getməsi və ya xidmət yerinə üzrlü səbəblər olmadan qayıtmaması" sözləri "Bu Məcəllənin 333.1-ci maddəsində nəzərdə tutulmuş əməllər" sözləri ilə əvəz edilsin;

**1.75.3.** 333.3-cü maddənin dispozisiyasında "Zabit heyətindən olan şəxsin" sözləri "Zabitin" sözü ilə, "olmadıqda, yaxud bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox olduqda" sözləri isə "olmayaraq törədildikdə" sözləri ilə əvəz edilsin;

**1.75.4.** 333.4-cü maddənin sanksiyasına "iki ildən" sözlərindən əvvəl "iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya" sözləri əlavə edilsin;

**1.75.5.** Aşağıdakı məzmunda 333.4-1-ci maddə əlavə edilsin:

**"333.4-1.** Bu Məcəllənin 333.1-ci və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər üç aydan artıq törədildikdə -

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.75.6.** 333.6-cı maddənin dispozisiyasında "333.4-cü" sözləri "333.4-1-ci" sözləri ilə əvəz edilsin.

**1.76.** 334.1-ci maddənin dispozisiyasından "xidmətdən üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi), yaxud" sözləri çıxarılsın.

**1.77.** 335-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 335. Hərbi xidmət vəzifələrinin icrasından boyun qaçırma**

**335.1.** Hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərər yetirməklə, özünü xəstəliyə vurmaqla, sənədləri saxtalaşdırmaqla və ya sair aldatma yolu ilə hərbi xidmət vəzifələrinin icrasından müvəqqəti boyun qaçırması —

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

**335.2.** Eyni əməllər hərbi xidmət vəzifələrinin icrasından tamamilə boyun qaçırmaq məqsədi ilə törədildikdə —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

**335.3.** Bu Məcəllənin 335.1 və 335.2-ci maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə—

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**1.78.** 338.1-ci maddənin dispozisiyasından "əgər" sözü çıxarılsın, "zərər vura bilərdisə" sözləri "real təhlükə yaratdıqda" sözləri ilə əvəz edilsin.

**1.79.** 339.1-ci maddənin dispozisiyasından "əgər" sözü çıxarılsın, "zərər vura bilərdisə" sözləri "real təhlükə yaratdıqda" sözləri ilə əvəz edilsin.

**1.80.** 340.1-ci maddənin dispozisiyasında "mənafelərinə" sözündən sonra "mühüm" sözü əlavə edilsin.

**1.81.** 341-ci maddə üzrə:

**1.81.1.** 341-ci maddənin adı və 341.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"Maddə 341. Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma**

**341.1.** Rəisin və ya vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi və ya xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda–";

**1.81.2.** 341.1-ci maddənin sanksiyasında "iki ilədək" sözlərindən əvvəl "iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin.

**1.82.** 342-ci maddə üzrə:

**1.82.1.** 342.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"342.1.** Rəisin və ya vəzifəli şəxsin öz xidməti borcuna vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə

yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda –

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.82.2.** aşağıdakı məzmunda 342.1-1-ci maddə əlavə edilsin:

**"342.1-1.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda—

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.82.3.** 342.2-ci maddənin dispozisiyasında "Eyni əməllər ağır nəticələrə" sözləri "Bu Məcəllənin 342.1 və ya 342.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə" sözləri ilə əvəz edilsin.

**1.83.** 347-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, habelə nəqliyyat vasitələrinin və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaqla hərbi əmlakın itirilməsi mühüm zərər vurduqda -".

**1.84.** 348-ci maddə üzrə:

**1.84.1.** maddənin adından ", xarab etmə" sözləri çıxarılsın;

**1.84.2.** 348.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"348.1.** Silahı, onun komplekt hissələrini, döyüş sursatlarını, partlayıcı maddələri və qurğuları, hərbi texnikanı və ya sair hərbi əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə ağır nəticələrə səbəb olduqda -".

**1.85.** 349-cu maddə üzrə:

**1.85.1.** 349.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"349.1.** Silahı, onun komplekt hissələrini, döyüş sursatlarını, partlayıcı maddələri və qurğuları və ya hərbi texnikanı qəsdən məhv etmə və ya zədələmə -";

**1.85.2.** aşağıdakı məzmunda 349.1-1-ci maddə əlavə edilsin:

**"349.1-1.** Bu Məcəllənin 349.1-ci maddəsində nəzərdə tutulmayan sair hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə xeyli miqdarda zərər vurduqda –

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.85.3.** 349.2-ci maddənin dispozisiyasında "349.1-ci maddəsində" sözləri "349.1 və ya 349.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**1.85.4.** maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 349.1-1-ci maddəsində "xeyli miqdar" dedikdə beş min manatdan yuxarı olan məbləğ başa düşülür.".

**1.86.** 350-ci maddə üzrə:

**1.86.1.** 350.1-ci maddənin dispozisiyasında "zərər vurduqda, hərbi texnikanın məhvinə və ya sair ağır nəticələrə səbəb olduqda" sözləri "az ağır zərər vurduqda" sözləri ilə, maddənin sanksiyasında "iki" sözü "bir" sözü ilə əvəz edilsin;

**1.86.2.** aşağıdakı məzmunda 350.1-1-ci maddə əlavə edilsin:

**"350.1-1.** Bu Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş əməl ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurduqda və ya sair ağır nəticələrə səbəb olduqda–

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.";

**1.86.3.** 350.2-ci maddənin dispozisiyasında "əməl" sözündən əvvəl "Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş" sözləri əlavə edilsin.

**1.87.** 351-ci maddə üzrə:

**1.87.1.** 351.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"351.1.** Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurduqda—";

**1.87.2.** 351.1-ci maddənin sanksiyasında "iki" sözü "bir" sözü ilə, "üç" sözü "iki" sözü ilə əvəz edilsin;

**1.87.3.** aşağıdakı məzmunda 351.1-1-ci maddə əlavə edilsin:

**"351.1-1.** Bu Məcəllənin 351.1-ci maddəsində nəzərdə tutulmuş əməl ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurduqda—

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanun 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

**2.2.** Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə görə bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Onlar, habelə bu Qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

**2.3.** Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən və ya cəzasını çəkmiş, lakin məhkumluğu olan şəxslərin vəziyyəti bu Qanunla yaxşılaşdırılırsa, həmin məsələlərə, habelə bu Qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş məsələlərə hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən, cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılır.

**2.4.** Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə dair məhkəmələrin, ibtidai istintaq və ya təhqiqat orqanlarının icraatında olan cinayət işlərinə və materiallara əməlin cinayət olmasını və cəzalanmalı olmasını aradan qaldıran yeni qanunun qüvvəyə minməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilmə əsasları ilə xitam verilir və ya cinayət təqibinin başlanması rədd edilir və bu əməllərin inzibati məsuliyyətə səbəb olması məsələsi araşdırılır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2020-ci il
№ 68-VIQD

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNIN FƏRMANI

## «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanununun 2020-ci il iyunun 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257; 2015, № 5, maddə 542; 2018, № 3, maddə 447, № 4, maddə 679) 2.5-ci bəndi ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Fərman 2020-ci il iyunun 1-dən qüvvəyə minir.Azərbaycan Respublikasının Prezidenti

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 may 2020-ci il
№ 1038

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 16.3-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

«Hərbi qulluqçulara ictimai işlər, həmçinin bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə inzibati həbs tətbiq edilə bilməz.».

**1.2.** 28.4.6-sı maddə aşağıdakı redaksiyada verilsin:

**«28.4.6.** hərbi qulluqçulara.».

**1.3.** 30-cu maddə üzrə:

**1.3.1.** 30.1-ci maddədə «ayrı-ayrı növlərinə görə» sözlərindən sonra «üç gündən» sözləri əlavə edilsin;

**1.3.2.** 30.2-ci maddədə «həmçinin hərbi qulluqçular, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları» sözləri «habelə bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə hərbi qulluqçular» sözləri ilə əvəz edilsin.

**1.4.** 31.4-cü maddədə «üçdə» sözü «dörddə» sözü ilə əvəz edilsin.

**1.5.** Aşağıdakı məzmunda 31.4-1-ci maddə əlavə edilsin:

**«31.4-1.** İnzibati qaydada tutulmuş şəxs barəsində inzibati həbs istisna olmaqla tətbiq edilən digər inzibati tənbehin həddi, bu Məcəllənin Xüsusi hissəsində inzibati xətanın törədilməsinə görə müəyyən edilən inzibati tənbehin yuxarı həddinin dörddə üçündən çox ola bilməz.».

**1.6.** Aşağıdakı məzmunda 34-1-ci maddə əlavə edilsin:

**«Maddə 34-1. İnzibati xətaya görə daha yüngül inzibati tənbeh tətbiq etmə**

Bu Məcəllənin Xüsusi hissəsində inzibati xətaya görə müəyyən edilmiş sanksiyada nəzərdə tutulmuş ictimai işlər və ya inzibati həbs növündə inzibati tənbehin tətbiq edilməsi bu Məcəllənin 28.4-cü və ya 30.2-ci maddələrinin tələblərinə əsasən mümkün olmadıqda, hakim inzibati xəta törətmiş şəxs barəsində bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş inzibati tənbeh əvəzinə iki yüz manatdan beş yüz manatadək məbləğdə cərimə növündə inzibati tənbeh tətbiq edir.».

**1.7.** 39.2-ci maddədə «227-ci maddəsində» sözləri «227, 232-1-ci və 351-1-ci maddələrində» sözləri ilə əvəz edilsin.

**1.8.** 43-cü maddə üzrə:

**1.8.1.** 43.1-ci maddədə «197» rəqəmlərindən sonra «, 198.2, 198.3» rəqəmləri, «229,» rəqəmlərindən sonra «232-1,» rəqəmləri və «351,» rəqəmlərindən sonra «351-1,» rəqəmləri əlavə edilsin;

**1.8.2.** 43.4-cü maddədə «Bu Məcəllənin» sözlərindən sonra «610-618-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, habelə bu Məcəllənin» sözləri əlavə edilsin.

**1.9.** 53.0.10-cu maddədə «227-ci maddəsində nəzərdə tutulan» sözləri «Xüsusi hissəsinin müvafiq maddələrinin Qeyd hissələrində bilavasitə müəyyən edilmiş hallarda» sözləri ilə əvəz edilsin.

**1.10.** 54-cü maddə üzrə:

**1.10.1.** 54.2-ci maddədə «və 606.1-ci» sözləri «, 606.1 və 610-618-ci» sözləri ilə əvəz edilsin;

**1.10.2.** 54.3-cü maddədə «qərardaddan» sözündən sonra «onun surətinin bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində» sözləri əlavə edilsin.

**1.11.** 88.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 88.1.7-ci maddə əlavə edilsin:

**«88.1.7.** müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri - hərbi xidmət əleyhinə olan inzibati xəta törədildikdə.».

**1.12.** 89.4-cü maddədə «və ya 535-ci,» sözləri «, 535 və 610-618-ci» sözləri ilə əvəz edilsin.

**1.13.** Aşağıdakı məzmunda 99.3-1-ci maddə əlavə edilsin:

**«99.3-1.** Bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xəta hadisəsinin mövcudluğu ilə bağlı bu Məcəllənin 99.1-ci maddəsində göstərilən səbəblərdən biri və bu Məcəllənin 99.2-ci maddəsində göstərilən kifayət qədər əsaslar olduqda, müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli vəzifəli şəxsi inzibati xəta haqqında iş üzrə icraatın başlanması üçün zəruri məlumatları toplayaraq ərazi üzrə müvafiq hərbi prokurora göndərir.».

**1.14.** 99.4.3-cü maddədə «qərardad» sözündən sonra «(qərar)» sözü əlavə edilsin.

**1.15.** 102.1-ci maddədə «qaydaları» sözündən sonra «, hərbi xidmət» sözləri, «227-ci,» sözlərindən sonra «232-1-ci, 351-1-ci,» sözləri əlavə edilsin.

**1.16.** 103.1-ci və 103.2-ci maddələrdə «prokurorun qərarı» sözləri «prokurorun inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarı və ya bu Məcəllənin 102.6-cı maddəsində nəzərdə tutulmuş qaydada tərtib etdiyi protokol» sözləri ilə əvəz edilsin.

**1.17.** 129.1.2, 130.1-ci və 130.2-ci maddələrdə «şikayət» sözündən sonra «və ya protest» sözləri əlavə edilsin.

**1.18.** 156-cı maddə üzrə:

**1.18.1.** 156.2-ci maddədə «tətbiq edilmiş şəxslər» sözü «tətbiq edilmiş bu Məcəllənin 610—618-ci maddələrində göstərilən xətaları törətmiş şəxslər hauptvaxtda, digər şəxslər isə» sözləri ilə əvəz edilsin;

**1.18.2.** 156.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**«156.3.** Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun inzibati həbs müddəti hərbi xidmət müddətinə daxil edilmir.».

**1.19.** 198.0-cı maddə üzrə:

**1.19.1.** maddənin sanksiyasında «min manatdan iki» sözləri «beş yüz manatdan» sözləri ilə əvəz edilsin;

**1.19.2.** 198.0-cı, 198.0.1–198.0.10-cu maddələr müvafiq olaraq 198.1-ci, 198.1.1–198.1.10-cu maddələr hesab edilsin və aşağıdakı məzmunda 198.2-ci və 198.3-cü maddələr əlavə edilsin:

«**198.2.** Texniki təhlükəsizlik və ya əmək mühafizəsinin başqa qaydalarına riayət edilməsi vəzifəsi həvalə edilmiş şəxs tərəfindən bu qaydaların pozulması nəticəsində ehtiyatsızlıqdan insan sağlamlığına yüngül zərərin vurulmasına görə —

min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

**198.3.** Bu Məcəllənin 198.2-ci maddəsində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.».

**1.20.** Aşağıdakı məzmunda 215.4-cü maddə əlavə edilsin:

**«215.4.** Qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə —

vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.».

**1.21.** Aşağıdakı məzmunda 232-1-ci maddə əlavə edilsin:

**«Maddə 232-1. Əmlakı qəsdən məhv etmə və ya zədələmə**

Özgənin əmlakını qəsdən məhv etməyə və ya zədələməyə görə, bu az miqdarda ziyan vurduqda –

inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə «az miqdar» dedikdə, beş min manatdan yuxarı olmayan məbləğ başa düşülür.».

**1.22.** 262-ci maddənin «Qeyd» hissəsində «maddədə» sözü «Məcəllənin 262.3-cü maddəsində» sözləri ilə, «min manatadək olan» sözləri «beş min manatdan yuxarı olmayan» sözləri ilə əvəz edilsin.

**1.23.** Aşağıdakı məzmunda 351-1-ci maddə əlavə edilsin:

«**Maddə 351-1. Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma**

Dağıtmaq, zədələmək və ya başqa üsulla yolların, nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlığının yararsız vəziyyətə salınması –

inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə nəzərdə tutulmuş əməl külli məbləğdə (əlli min manatdan artıq) ziyan vurduqda

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.».

**1.24.** 398-ci maddənin «Qeyd» hissəsinin 1-ci bəndində «iyirmi» sözü «əlli» sözü ilə əvəz edilsin.

**1.25.** 420-ci maddənin «Qeyd» hissəsinin 2-ci bəndində «yüz» sözü «iki yüz» sözləri ilə əvəz edilsin.

**1.26.** 431-ci maddənin «Qeyd» hissəsində «yüz» sözü «iki yüz» sözləri ilə əvəz edilsin.

**1.27.** 449-cu maddənin «Qeyd» hissəsində «iyirmi» sözü «əlli» sözü ilə əvəz edilsin.

**1.28.** 460-cı maddənin «Qeyd» hissəsinin 1-ci bəndində «iyirmi» sözü «əlli» sözü ilə əvəz edilsin.

**1.29.** 479-cu maddə üzrə:

**1.29.1.** sanksiyada «altmış faizindən yüz» sözləri «qırx faizindən altmış» sözləri ilə əvəz edilsin;

**1.29.2.** «Qeyd» hissəsində «dörd» sözü «əlli» sözü ilə əvəz edilsin.

**1.30.** 480-ci, 481-ci və 482.1-ci maddələrin sanksiyasında «altmış faizindən yüz» sözləri «qırx faizindən altmış» sözləri ilə, 482.2-ci maddənin sanksiyasında «yüz» sözü «altmış» sözü ilə əvəz edilsin.

**1.31.** aşağıdakı məzmunda 41-ci fəsil əlavə edilsin:

**«Fəsil 41. Hərbi xidmət əleyhinə olan inzibati xətalar**

**Maddə 610. Rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin şərəf və ləyaqətini alçaltma**

Rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar şərəf və ləyaqətini alçaltma —

on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 611. Tabelikdə olan hərbi qulluqçunun şərəf və ləyaqətini alçaltma**

Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsin şərəf və ləyaqətini alçaltması –

on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 612. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma**

**612.1.** Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma, yəni bir hərbi qulluqçunun digərinin şərəf və ləyaqətini alçaltması və ya ona zor tətbiq etməsi –

on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**612.2.** Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq zərərçəkmiş şəxsə qarşı zor tətbiq etməklə, yaxud hədə-qorxu tətbiq etməklə özgənin az miqdarda əmlakını və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə —

bir aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:**

**1.** Bu Məcəllənin 612.1-ci maddəsində nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

**2.** Bu Məcəllənin 612.2-ci maddəsində «az miqdar» dedikdə, yüz manatdan yuxarı olmayan məbləğ başa düşülür.

**Maddə 613. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə**

**613.1.** Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantının hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməməsi bir gündən artıq, lakin üç gündən çox olmayaraq törədildikdə —

on günədək müddətə inzibati həbs tətbiq olunur.

**613.2.** Zabitin, gizirin, miçmanın, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi, habelə üzrlü səbəblər olmadan hərbi hissəyə və ya xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə —

iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**613.3.** Bu Məcəllənin 613.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə-

on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**613.4.** Bu Məcəllənin 613.2-ci maddəsində nəzərdə tutulmuş əməllərin inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə-

on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 614. Hərbi əmlakı itirmə, məhv etmə və ya zədələmə**

**614.1.** Hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaqla itirilməsi—

on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**614.2.** Silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular və ya hərbi texnika istisna olmaqla sair hərbi əmlakı qəsdən az miqdarda məhv etmə və ya zədələmə -

on beş gündən iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:**

**1.** Bu Məcəllənin 614.1-ci maddəsində nəzərdə tutulmuş əməl mühüm zərər vurduqda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

**2.** Bu Məcəllənin 614.2-ci maddəsində «az miqdar» dedikdə, beş min manatdan yuxarı olmayan məbləğ başa düşülür.

**Maddə 615. Silahla və yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma**

Silahla, hərbi sursatla, radioaktiv materiallarla, partlayıcı maddələrlə, habelə ətrafdakılar üçün yüksək təhlükə törədən maddə və əşyalarla davranış qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurduqda —

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 616. Maşınları idarəetmə və istismar qaydalarını pozma**

Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda —

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 617. Hərbi uçuş aparatlarının istismar qaydalarını pozma**

**617.1.** Hərbi uçuş aparatlarının uçuş, uçuşa hazırlıq və ya sair istismar qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda –

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**617.2.** Bu Məcəllənin 617.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 618. Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozma**

**618.1.** Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda —

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**618.2.** Bu Məcəllənin 618.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.».

**Maddə 2**

Bu Qanun 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2020-ci il
№ 69-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNIN FƏRMANI

### «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 69-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» 2016-cı il 15 fevral tarixli 795 nömrəli, «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın təsdiq edilməsi barədə» 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 69-VIQD nömrəli Qanununun 2020-ci il iyunun 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, №2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 mart tarixli 962 nömrəli, 19 mart tarixli 964, 965 nömrəli və 7 may tarixli 1015 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4.4-cü bənddə «və 114.2.2-ci maddəsində» sözləri «, 88.1.7-ci, 99.3-1-ci və 114.2.2-ci maddələrində» sözləri ilə əvəz edilsin;

**1.2.** 5.4-cü bənddə «198 — 203-cü» sözləri «198.1-ci, 199 — 203-cü» sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respubli-

kasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, №9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 mart tarixli 976 nömrəli və 1 may tarixli 1013 nömrəli fərmanları) ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 1-ci hissədə «290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə),» sözləri «232-1, 290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 351-1,» sözləri ilə əvəz edilsin;

**2.2.** 13-cü hissədə «196,» rəqəmlərindən sonra «198.2, 198.3,» rəqəmləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 69-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Fərman 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 may 2020-ci il
№ 1039

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli, 30 mart tarixli 41-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 116.1-ci maddəyə «532,» rəqəmlərindən sonra «533-1,» rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 533-1-ci maddə əlavə edilsin:

**«Maddə 533-1.** Kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması

Kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə –

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.».

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 may 2020-ci il
№ 94-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 94-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 94-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** «Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1013 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»na aşağıdakı məzmunda 60-1-ci hissə əlavə edilsin:

**«60-1.** Məcəllənin 533-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**60-1.1.** teleradio yayımlarına münasibətdə inzibati xətanı aşkar etmiş AzərbaycanRespublikasının Milli Televiziya və Radio Şurası adından — bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**60-1.2.** digər kütləvi informasiya vasitələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından — bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**60-1.3.** açıq məkanda reklam daşıyıcılarına münasibətdə:

**60-1.3.1.** «İçərişəhər» Dövlət Tarix-Memarlıq və «Qala» Dövlət Tarix-Etnoqrafiya qoruqlarının və Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədilən inzibati xətalar istisna olmaqla, digər inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi adından — bu Siyahının 31-2.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**60-1.3.2.** «İçərişəhər» Dövlət Tarix-Memarlıq və «Qala» Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində törədilən inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi adından — bu Siyahının 31-2.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**60-1.3.3.** Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədilən inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş Dənizkənarı Bulvar İdarəsi adından — bu Siyahının 31-2.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.».

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 533-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyun 2020-ci il
№ 1073

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli və 1 may tarixli 69-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddədə «211» rəqəmləri «211.1» rəqəmləri ilə əvəz edilsin;

**2.** 211-ci maddənin mətni 211.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 211.2-ci və 211.3-cü maddələr əlavə edilsin:

**«211.2.** Epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə –

fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

**211.3.** Bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.».

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 iyun 2020-ci il
№ 124-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 124-VIQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 124-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli Fərmanı) 4.3-cü bəndinə «cümləsində,» sözündən sonra «211.2,» rəqəmləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 124-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 iyun 2020-ci il
№ 1049

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, №3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, №8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3,

maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 mart tarixli 962 nömrəli və 19 mart tarixli 964 nömrəli fərmanları) ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın 2.2-ci və 2.4-cü bəndlərində «322.0.2» rəqəmlərindən əvvəl «211,» rəqəmləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 aprel 2020-ci il
№ 987

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNIN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1638-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794; 2008, № 1, maddə 9; 2011, № 3, maddə 183, № 4, maddə 273, № 5, maddə 379; 2013, № 6, maddə 653; 2014, № 7, maddə 816; 2017, № 3, maddə 375; 2018, № 2, maddə 214, № 10, maddə 1999, № 11, maddə 2272) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 5.4-cü bəndində "əmlak müsadirəsinin" sözləri "xüsusi müsadirənin" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2020-ci il.
№1012

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNIN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli 1693-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 mart 976 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»na aşağıdakı məzmunda 31-5–31-11-ci hissələr əlavə edilsin:

**«31-5.** Məcəllənin 388-2.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**31-5.1.** inzibati xətanı aşkar etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-5.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Nazirliyin yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri, onun mü**avini, Aparatın rəhbəri, şöbə müdiri;**

**31-5.3.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-5.4.** inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-6.** Məcəllənin 388-2.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**31-6.1.** teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-6.2.** kino və video xidmətlər vasitəsilə yayımlanan informasiya məhsuluna, həmçinin mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, habelə belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – Mədəniyyət naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri;

**31-6.3.** internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərə (o cümlədən animasiya filmlərinə), kompüter oyunlarına və digər elektron oyunlara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-6.4.** mətbu nəşrlərə münasibətdə:

**31-6.4.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-6.4.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-6.5.** digər informasiya məhsullarına münasibətdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-7.** Məcəllənin 388-2.0.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**31-7.1.** televiziya yayımına münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-7.2.** kino və video xidmətlərinə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-7.3.** internet informasiya ehtiyatlarında yayıma münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-8.** Məcəllənin 388-2.0.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-9.** Məcəllənin 388-2.0.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**31-9.1.** teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-9.2.** mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-9.3.** internet informasiya ehtiyatları vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsinə münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-9.4.** mətbu nəşrlərə münasibətdə:

**31-9.4.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-9.4.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-9.5.** digər informasiya məhsullarına münasibətdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-10.** Məcəllənin 388-2.0.6-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**31-10.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-10.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-10.3.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-11.** Məcəllənin 388-2.0.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**31-11.1.** təhsil müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından – bu Siyahının 6-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-11.2.** tibb müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-11.3.** mədəniyyət müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-11.4.** bədən tərbiyəsi və idman müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi adından – bu Siyahının 34.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-11.5.** inzibati xətanı aşkar etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-11.6.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**31-11.7.** inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.».

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2020-ci il
№ 1013

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

### Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair

Bakı şəhəri, 3 mart 2020-ci il.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Şəki Apelyasiya Məhkəməsinin hakimi Mirbahəddin Hüseynov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Kəmalə Paşayevanın,

mütəxəssislər Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi İlqar Cəfərov və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəis müavini Musa Hümbətovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Şəki Apelyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəki Apelyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) ünvanladığı müraciətdə göstərmişdir ki, Zərdab Rayon Məhkəməsinin 3 sentyabr 2019-cu il tarixli hökmü ilə V.Quliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 234.1-ci maddəsi ilə təqsirli bilinərək 2 il müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, həmin Məcəllənin 69.3-cü maddəsinə əsasən üzərində 1 il 5 ay 12 gün müddətinə azadlığın məhdudlaşdırılması cəzası saxlanılmışdır.

Azərbaycan Respublikası Baş Prokurorunun müavini Zərdab Rayon Məhkəməsinin 3 sentyabr 2019-cu il tarixli hökmündən apelyasiya protesti verərək həmin hökmün dəyişdirilməsini xahiş etmişdir. Apelyasiya protesti onunla əsaslandırılmışdır ki, V.Quliyev Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin (bundan sonra – Ağır Cinayətlərə dair işlər üzrə Məhkəmə) 21 fevral 2007-ci il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 234.4.1-ci maddəsi ilə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, 10 iyun 2013-cü il tarixində «Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 7 may 2013-cü il tarixli Qərarının (bundan sonra – Qərar) 1.1-ci bəndinə müvafiq olaraq cəzadan azad olunmuşdur.

Protestverənin mövqeyinə görə, V.Quliyev ikinci cinayət əməlini 23 may 2019-cu il tarixində törədərkən onun əvvəlki məhkumluğu ödənilməmiş və götürülməmişdir. Bu səbəbdən də onun əməlində cinayətlərin residivi mövcud olmuşdur.

Belə ki, Cinayət Məcəlləsinin 18.1-ci maddəsinə uyğun olaraq, qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətin residivini yaradır.

Həmin Məcəllənin 61.1.1-ci maddəsinə görə, cinayətlərin residivi cəzanı ağırlaşdıran haldır.

Cinayət Məcəlləsinin 65.2-ci maddəsinə əsasən, residivə görə cəzanın müddəti törədilmiş cinayətə görə Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş daha ciddi cəza növünün son həddinin yarısından, təhlükəli residivə görə üçdəikisindən, xüsusi təhlükəli residivə görə isə dörddəüçündən az ola bilməz.

V.Quliyev də Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin 21 fevral 2007-ci il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 234.4.1-ci maddəsi ilə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, Qərarın 1.1-ci bəndinə əsasən 10 iyun 2013-cü il tarixində cəzadan azad olunmuşdur. Yəni V.Quliyev Qərarın qüvvəyə mindiyi 7 may 2013-cü il tarixində cəzadan azad edilmiş olsaydı, 23 may 2019-cu il tarixində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə törətdiyi cinayətə görə residiv yaranmayacaqdı.

Protestverən hesab edir ki, V.Quliyevin Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin 21 fevral 2007-ci il tarixli hökmü üzrə Cinayət Məcəlləsinin 234.4.1-ci maddəsi ilə yaranmış məhkumluğunun ödənilməyə başlanılması müddəti ona tətbiq olunmuş amnistiya aktının qəbul edildiyi 7 may 2013-cü il tarixindən deyil, həmin amnistiya aktının ona münasibətdə icra edildiyi 10 iyun 2013-cü il tarixindən hesablanmalıdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Şəki Apelyasiya Məhkəməsi vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin «məhkum edilmiş şəxs qanunla müəyyən edilmiş qaydada vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti əsas və əlavə cəzanı çəkməkdən azad edildiyi vaxtdan hesablanır» müddəasının amnistiya aktının tətbiqi əsasında cəzadan azad edilmiş məhkumlara münasibətdə Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60 və 71-ci maddələri, eləcə də «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 6 və 7-ci maddələri baxımından şərh edilməsini Konstitusiya Məhkəməsindən xahiş etmişdir.

Müraciətdə qaldırılan məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir. Bu vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş institutlardan biri olan cəzadan azadetmənin əsasları həmin Məcəllənin bir neçə maddəsində nəzərdə tutulmuşdur. Bu əsaslara cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəzetmə, xəstəliyə görə cəzanı çəkməkdən azadetmə, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azadetmə, amnistiya və əfvetmə aiddir (Cinayət Məcəlləsinin 76-82-ci maddələri).

Cəzadan azadetmənin digər növlərindən fərqli olaraq, amnistiya və əfvetmənin tətbiqi ali dövlət orqanlarının səlahiyyətlərinə aid olduğundan onlar Konstitusiyada öz əksini tapmışdır. Konstitusiyanın 65-ci maddəsinə əsasən, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır. Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndinə görə, əfvetmə səlahiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 19-cu bəndinə müvafiq olaraq amnistiya məsələlərinin həlli Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aiddir.

Amnistiya və əfvetmə hüquqi təbiətinə görə humanizm, mütənasiblik prinsipləri və cinayətkarlıqla mübarizə sahəsində konstitusiya dəyərlərinin tarazlığı nəzərə alınmaqla dövlət tərəfindən həyata keçirilən mərhəmət aktıdır. Bu konstitusiya səlahiyyətinin həyata keçirilməsi nəinki siyasi və iqtisadi məqsədəuyğunluqdan, ilk növbədə, ədalət və xeyirxahlığa olan inamdan, belə humanist addımın sosial şərtləndirilməsindən irəli gəlir. Bununla belə həmin səlahiyyətlər həyata keçirilərkən Konstitusiyadan irəli gələn insan hüquqlarının birbaşa qüvvəsi, sağlamlıq, mənəviyyat, ictimai asayişin qorunması, təhlükəsizlik və s. dəyərlərə xüsusi diqqət yetirilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, əfvetmə və amnistiya aktları hökmlərin qanuniliyi və ədalətliliyini şübhə altına almır. Belə ki, amnistiya və əfvetmə şəxsə bəraət qazandıran və cinayətin törədilməsi faktını aradan götürən hal deyil, barəsində tətbiq ediləcəyi şəxsə göstərilən humanizmin təzahürüdür.

Cinayət Məcəlləsinin 81-ci maddəsinə əsasən, amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

Məcəllənin 82-ci maddəsinə uyğun olaraq, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər. Əfvetmə aktı ilə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Cinayət Məcəlləsinin 83.1-ci maddəsinə əsasən, cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir. Cinayətlərin residivi zamanı və cəza təyin edilərkən bu Məcəlləyə uyğun olaraq məhkumluq nəzərə alınır.

Məhkumluq yalnız şəxsin məhkum olunması və ona cəzanın təyin edilməsi faktı ilə şərtləndirilmir. Məhkumluq şəxs tərəfindən təkrarən cinayət törədilərkən cinayət qanunvericiliyi ilə müəyyən olunmuş hüquqi nəticələrə səbəb olan məhkumun hüquqi vəziyyətini ifadə edir; şəxsdə olan ödənilməmiş və ya götürülməmiş məhkumluq xüsusi, onunla dövlət arasında cinayət-hüquqi tənzimləmə əsasında formalaşan, bu şəxs tərəfindən yeni cinayətlər törədilərkən onun şəxsiyyətinin və törətdiyi cinayətlərin yüksək ictimai təhlükəli kimi qiymətləndirilməsinə xidmət edən ictimai-hüquqi münasibətləri yaradır və buna görə onun barəsində cinayət hüquqi xarakterli daha ağır tədbirlərin tətbiqini nəzərdə tutur (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83-cü maddəsinin şərh edilməsinə dair» 2009-cu il 25 may tarixli Qərarı).

Cinayət qanunvericiliyində cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq, habelə yetkinlik yaşına çatmayan şəxslər barəsində fərqli məhkumluğun ödənilməsi müddətləri nəzərdə tutulmuşdur. Belə ki, Cinayət Məcəlləsinin 83.3-cü maddəsinə müvafiq olaraq, böyük ictimai təhlükə törətməyən cinayət törətməyə görə azadlıqdan – onlar cəzanı çəkib qurtardıqları gündən bir il keçdikdə, az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində – onlar cəzanı çəkib qurtardıqları gündən iki il keçdikdə, ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində – onlar cəzanı çəkib qurtardıqları gündən altı il keçdikdə, xüsusilə ağır cinayət törətməyə görə məhkum edilmiş şəxslər barəsində isə onlar cəzanı çəkib qurtardıqları gündən səkkiz il keçdikdə məhkumluq ödənilmiş hesab olunur.

Məhkum edilmiş şəxs qanunla müəyyən edilmiş qaydada vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə və yaxud cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə, məhkumluğun ödənilməsi müddəti əsas və əlavə cəzanı çəkməkdən azad edildiyi vaxtdan hesablanır (Məcəllənin 83.4-cü maddəsi).

Məcəllənin bu normasının mənasından da göründüyü kimi, amnistiya aktı əsasında əsas cəzasını çəkməkdən vaxtından əvvəl azad edilmiş şəxsin əlavə cəzası olduğu hallarda məhkumluğun ödənilməsi müddəti əlavə cəzanın çəkilib qurtardığı vaxtdan hesablanır.

Məhkəmə tərəfindən təyin edilən cəzaların icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin

tətbiqi qaydalarını və şərtlərini müəyyən edən Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 6-cı maddəsinə görə, cəzaların icrasının və cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqinin əsaslarını məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, qərarları, habelə amnistiya və ya əfvetmə aktları təşkil edir. Həmin Məcəllənin 167.0.5-ci maddəsində göstərilmişdir ki, digər əsaslarla yanaşı məhkumlar cəza çəkməkdən amnistiya və ya əfvetmə aktına əsasən azad edilirlər.

Hər iki akt birdəfəlik tətbiqetmə üçün nəzərdə tutulsa da, əfvetmə yalnız qanuni qüvvəyə minmiş hökm əsasında məhkum edilmiş şəxslərə münasibətdə, amnistiya aktı isə cinayət prosesinin istənilən mərhələsində tətbiq edilə bilər.

Bu aktlar arasında daha bir fərq ondan ibarətdir ki, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxslər, amnistiya isə fərdi qaydada müəyyən olunmayan şəxslər dairəsi barəsində qəbul edilir. Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu aktların subyektiv tərkibinin müəyyən olub-olmaması baxımından onların tətbiq edilmə formaları da fərqlənir.

Əfvetmə müraciət əsasında tətbiq edildiyindən, məhkum edilmiş şəxsin işi Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası tərəfindən araşdırılır, onun əfv edilməsinin mümkünlüyü barəsində müvafiq qurumların rəyləri alınır, baxılmış sənədlər qəti qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş «Əfvetmə haqqında Əsasnamə»nin 36-cı bəndinə uyğun olaraq, cəzanı icra edən orqan əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını təxirə salınmadan icra etməlidir.

Qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanan amnistiyanın elan edilməsi isə birbaşa olaraq cinayəti törədən şəxsin hüquqi vəziyyətini dəyişmir. Bu akt konkret şəxslərin dəqiq hüquq və vəzifələrini deyil, müvafiq şəxslər dairəsinin hüquqi statusunun dəyişməsini şərtləndirən hüquqi faktları müəyyən edir. Belə ki, müəyyən bir şəxsə münasibətdə amnistiya aktının tətbiq edilməsi üçün əsasların olub-olmaması yoxlanıldıqdan sonra hüquqtətbiqedici tərəfindən müvafiq qərar qəbul edilməlidir.

Beləliklə, amnistiya aktının onun təsiri altına düşən şəxslər barəsində tətbiq edilib-edilməməsinin mümkünlüyünün yoxlanılması Qərarla müəyyən edilmiş müvafiq orqan tərəfindən həyata keçirilir.

Yuxarıda qeyd edildiyi kimi, V.Quliyev 10 iyun 2013-cü il tarixində Qərarın 1.1-ci bəndinə əsasən cəzadan azad olunmuşdur.

Həmin Qərarın 15-ci bəndinə əsasən, Qərarın 1.1 və 2-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində amnistiya cəzaçəkmə müəssisələri, 1.2, 1.3 və 4.1-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı, 1.4-1.7 və 4.2-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində icra məmurları tərəfindən tətbiq edilir. Qərarın 1.8, 3, 4.3-4.5-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində isə amnistiyanın tətbiq edilməsi məsələsinə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

Qərarın 16-cı bəndinə uyğun olaraq, 15.1-15.3-cü bəndlərində nəzərdə tutulmuş orqanlar amnistiya tətbiq edərkən, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydalara riayət etməklə, qərarları müvafiq prokurorlarla razılaşdırmalıdırlar.

Qərarın 21-ci bəndinə görə isə bu Qərar onun təsiri altına düşən hər bir şəxs barəsində ayrı-ayrılıqda tətbiq edilir.

Amnistiya tətbiq edilərkən məhkumun şəxsi işi öyrənilməli və amnistiyanın tətbiqi məsələlərinin həlli üçün zəruri sənədlər göstərilən qərara əlavə edilməlidir. Amnistiyanı tətbiq edən orqanlar amnistiyanın tətbiqi barədə qərar qəbul edilməsi üçün zəruri sənədləri müvafiq orqanlardan tələb etməyə haqlıdırlar. Bu sorğular dərhal icra edilməlidir (Qərarın 22-ci bəndi).

Qeyd edilməlidir ki, amnistiya haqqında yuxarıda göstərilən Qərar dərc olunduğu gündən qüvvəyə minmiş və onun həmin gündən dörd ay müddətində tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, amnistiya aktının dərc olunduğu gündən qanuni qüvvəyə minməsi, aktın barəsində tətbiq ediləcək şəxslərin hüquqi statusunun həmin gündən dəyişməsini nəzərdə tutmur. Amnistiya aktının dərc edildiyi gündən qanuni qüvvəyə minməsi barəsində tətbiq edilən şəxslərin dairəsinin müəyyən edilməsi və aktın tətbiq edilməsi üçün nəzərdə tutulmuş müddətin axımının başlanması üçün zəruri olan zamanı ifadə edir.

Yuxarıda göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti amnistiyanın həmin şəxs barəsində tətbiq edildiyi, yəni müvafiq səlahiyyətli orqan tərəfindən konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərar qəbul edildiyi gündən hesablanmalıdır.

Bununla belə Konstitusiya Məhkəməsinin Plenumu onu da vurğulayır ki, amnistiyanın tətbiq edilməsinə dair qərar barəsində tətbiq olunacaq şəxslər üçün mühüm hüquqi nəticələr yaratdığından, səlahiyyətli orqanların belə işlərə mümkün qədər qısa müddət ərzində baxmaları məqsədəmüvafiqdir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

Cinayət Məcəlləsinin 83.4-cü maddəsinə uyğun olaraq, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti şəxsin cəzanı çəkməkdən azad edildiyi, yəni səlahiyyətli orqanın konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərarının qüvvəyə mindiyi gündən hesablanmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinə uyğun olaraq, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti şəxsin cəzanı çəkməkdən azad edildiyi, yəni səlahiyyətli orqanın konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərarının qüvvəyə mindiyi gündən hesablanmalıdır.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**